reallaşdıqda bele bir neçə ildən sonra nəticə verə biləcək siyasi andır. Şaquli hakimiyyət dedikdə yerli icra hakimiyyətinin və digər hakimiyyətlərin səlahiyyətlərinin məhdudlaşdırılması düşünülür. Bu xüsusilə, biznes sferalarında, sənayedə, vergi tutmada və digər məcburi ayırmalarda özünü göstərir. Münasibətlərin şaquli strukturunu AİZ üçün qeyri-real hesab etmək olar.

Bütövlükdə, iqtisadi münasibətlərin formalaşmasında problemlərin olmasına baxmayaraq, Azerbaycan öz xalqının rifahının ardıcıl olaraq yüksəldilməsi, doğma diyarm sülh, tərəqqi və çiçəklənən regiona çevirilməsi üçün bütün ölkələrlə qarşılıqlı faydah əməkdaşlıq üçün hazıdır.

## 1.2. Struktur adaptasiyası dövrü və bazar iqtisadiyyatına transformasiya

90-cı illərin ortalarında respublika hökuməti təsərrüfat sistemlərinin əlamətinin səmərəliliyinin yüksəldilməsi zərurətindən irəli gələn konsepsiyamn-islahatların daha fəal sürətdə aparılmasına başladı, 90-cı illərin əvvəllərində makroiqtisadi strategiyaların seçilməsi alternativ xarakter daşıyırdı: ya qeyri-rentabelli müəssisələrin tam iflası zamam iqtisadiyyatın sərt sanatsiya variantı seçilməli, yaxud da işsizliyin səviyyəsinin formal olaraq saxlanılması üçün qeyri-rentabelli müəssisələrə dəstək verilməsi variantı tətbiq edilməsi idi (məsələn, kondisioner zavodu). İslahatlann əsasını iqtisadi islahatlann apanlma- sma qoyulmuş bir çox məhdudiyyətlərin aradan qaldırılmasım güman edən bazar iqtisadiyyatma keçidin liberal modeli təşkil edirdi. Sosial-əmək sferası yeni keyfiyyətdə çıxış edir və muzdlu əməklə məşğul olanlara əmək haqqı vermək imkanı olan xüsusi mülkiyyət institutlan yarandı. İqtisadiyyatdakı yeniliklər yeni sferaların və fəaliyyət

növlərinin yaradılmasında və yeni gəlir mənbələrinin-sahibkarlıqdan və mülkiyyətdən'gələn gəlilərin formalaşmasında 'Ö₂!änü göstərdi. Sərt maliyyə-kredit siyasətinin aparılması bir tərəfdən əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasım, diger tərəfdən isə hiperinfilyasiyadan qaçmağı təmin edifdi. Qeyd etmək lazımdır ki, hökümət tərəfindən görülmüş bu tədbirlər əsasən özünü doğrultmuşdur. Belə ki, 2000-ci ildə ümumi daxili məhsul 1999- cu il göstəricisi ilə müqayisədə 11,1 % artinışdır. Adam- başma düşən ÜDM isə 1998-ci il göstəricisi ilə müqayisədə demək olar ki, 94 ABŞ dollan qədər artaraq, 664,5 dollar təşkil etmişdir^

Qeyd etmək lazımdır ki, Azərbaycan həmin dövrdə makroiqtisadi stabilləşmə sahəsində müəyyən tərəqqiyə nail oldu və ola bilər ki, inkişaf etməkdə olan ölkələrlə bir cərgədə dayandı.

Bu nəticələrə xarici sərmayələrin cəlb edilməsi və "nou-hau" ilə neftin çıxaniması və ixraa üzrə kompleks tədbirlərin reallaşmasına əsaslanan strateğiyalann həyata keçirilməsi yolu ilə nail olunmuşdur. Lakin, bu tendensiya sabit xarakter daşımaya bilər. İş yalnız neftin qiymətinin enməsində və ya qalxmasında deyil, dövlətin nisbətən varlı olmayan xəzinəsindədir. 2000-2003-cü illərin rəsmi statistikasının iqtisadi təhlil onu sübıit edir ki, bütün makroiqtisadi göstəricilər üzrə praktiki olaraq artım müşahidə edilmişdir. Belə ki, 2002-ci ildə ÜDM 2001-ci il ilə müqayisədə 10,6 % artmış və 29,6 triiı. manat təşkil etmişdir. Sənaye istehsalınm səviyyəsi 19;7 trln. manat təşkil etmiş və artım 2001-ci illə müqayisədə 3,6 %-ə çatmışdır. Bu zaman kənd təsərrüfatı məhsullarmın istehsal

**' Azərbaycan statistik göstəriciləri, 2000.**

payına 6,4 trin. manat, yəni 32,5 % düşmüşdür*. Həcminə görə bu rəqəm iqtisadiyyatın çoxsahəli olduğunu iddia edir. Lakin, Azərbaycan iqtisadiyyatının çoxsahəli olduğunu demək hələ tezdir. Belə ki, neft və qaz çıxarmanın payına, məlum olduğu kimi, sənaye istehsalınm yandan çox hissəsi düşür. Bundan başqa ixracın səviyyəsinin 90 % - i neft və neft məhsullarının ixracından asılıdır.

Bütövlükdə 2002-ci il ərzində xarici ticarət dövriyyəsinin həcmi 0,9% azalaraq 3,274 mlrd, təşkil etmişdir, onun 1,778 mlrd, dollan ixraca, 1,496 mlrd.dollan isə idxalın payına düşmüşdür. Bu zaman ixrac 11,3 % azalmış, eyni zamanda idxal 15,1 % yüksəlmişdir.

İdxalın strukturunda əsas hissəni maşın və mexanizmler-25 %, mineral resurslar-15 -17%, qida məhsulları 10-15% təşkil edir. Azərbaycanın fəal xarici ticarət əlaqələri yaratdığı ölkələr sırasına İtaliya, ABŞ Türkiyə, Rusiya, Yaponiya və s. daxildir^ (bu ölkələr əmtəə dövriyyəsinin həcmindən asılı olaraq ardıcılıqla düzülmüşdür).

Statistika göstərir ki, Azərbaycan əvvəlki kimi praktiki olaraq enerji daşıyıcılarının ixracından asılıdır və bu zaman kifayət qədər ciddi şəkildə gündəlik tələbat mallarının idxalına meyllidir. Bununla əlaqədar olaraq Azərbaycan iqtisadi keçid dövrünü yaşamış ölkələrin bazar transformasiyası təcrübələrindən nəticə çıxarmalıdır. Bu göstərir ki, yalnız dövlətsizləşdirmə və özəlləşdirmə yolu üə mülkiyyət fomasının dəyişilməsi, müəssisələrin bazar münasibətlərinə adaptasiyası, dəyişən şəraitdə onlann davranışlarında yeni məntiqənin işlənməsi üçün hələ kifa-

**' Плюсовая экономика «Зеркало» 18.01.2003 г. Economic Trends Quarteriy, Issue, Azerbayjan, 2001.**

**^ Yenoorada.**

yət deyildir. Bazar münasibətlərinə uyğun şəkildə fəaliyyət göstərmək üçün, kardinal, hərtərəfli dəyşikliklər-sis- temli restrukturlaşma lazımdır. Bizim qənaətimizcə restrukturlaşma bazarm yeni tələbləri ilə müəssisələrin davranışlarının köhnəlmiş məntiqləri arasında ziddiyyətlərin aradan qaldırılması üsuludur.

Deməli, ən yaxın tədbirlər, başqa sözlə dövlət tərəfindən heyata keçirilən islahatlar yalnız neft sektorunun, kənd təsərrüfatmm (emal) və bir sıra digər sahələrin inkişaf etdirilməsi ilə bitməməlidir. Belə ki neft ixracı nə qədər azalmasa belə, ümumi istifadə əmtələrinin, o cümlədən qida məhsullarmm idxalmdan asılılıq aradan qaldırılmayacaq.

Azərbaycan iqtisadiyyatmda dövlətsizləşdirmə, özəlləşmə, sahibkarhğm inkişafi və rəqabət əsasında bazarlara transformasiyanın həyata keçirilməsi beynəlxalq iqtisadi münasibətlərin, bu münasibətlərin obyekt və subyektlərində kəmiyyət və keyfiyyət dəyişiklikləri üçün zəruriiqtisadi əsaslar yaratmışdı. Dövlətsizləşdirmə və özəlləşdirmə məsələlərinə toxunan Azərbaycanın İqtisadi inkişaf nazirliyi dərin təhlil tələb edən aşağıdakı məlumatları açıqladı. 2003-cü ildə ümumi deyəri 36,6 mlrd, manat təşkil edən 1677 kiçik müəssisə və obyektlər özəlləşdirilmişdir.

Özəlləşmə prosesinin əvvəlindən (hesab edildiyi kimi, 1996-cı ildə başlayan) bu ilin yanvannadək 10 minlərlə kiçik müəssisə və ya obyektlər dövlətsizləməyə məruz qalmışlar. O cümlədən 16,965 (43,8 %) avtonəqliyyat müəssisələri və vasitələri, 9,720 ( 25,1 %) məişət xidməti müəssisələri, 3,137 ( 8,2 %) ticarət obyektləri, 867 ( 2,2%) ictimai iaşə müəssisələri, 751 ( 2 %) sənaye müəssisələri, 593 ( 1,5 %) avtodoldurma stansiyaları, 388 ( 1,0 %) tikinti təşkilatlan, 122 ( 0,3 %) kənd təsərrüfatı

müəssisələri, 109 ( 0,3 %) kommunal obyektlər, ümumi dəyəri 599,4 mlrd, manat olan (faizlər orta hesabla götürülmüşdür) 5894 ( 15,2 %) digər obyektlər və avadanlıqlar daxildir.* Omutni məbləğin həcmi şübhə doğurur, belə ki, özəllədirilmiş müəssisələrdən dövlət büdcəsinə real olaraq daxil olmalar çox azdır. Elə 2003-cü ildə dövlət büdcəsinə daxil olmuş vəsaitlərin həcmi ilə özəlləşdirmədən gələn gəliri müqayisə etmək kifayətdir. Keçən il özəlləşdirilmiş müəssisələrdən dövlət büdcəsinə daxil olunmalı vəsaitlərin həcmi üstəgəl özəlləşdirmədə iştirak etmək üçün opsionlar əldə etmək xarici investorlardan daxil olunmuş gəlirlər, büdcə gəlirlərinin nəzərə çarpacaq dərəcədə az olduğunu əks etdirir.

Səhmlərin reallaşması statistikası göstərir ki, 2003-cü ildə İqtisadi inkişaf nazirliyi orta və iri dövlət müəssisələrinin bazası əsasmda 40 səhmdar cəmiyyət yaratmışdır (2002-ci ildə onların sayı 97 idi). 2004-cü ilin yanvarm 1- də olan məlumata görə nazirlik tərəfmdən 5,4 trln. manat və ya 1 mlrd. ABŞ dollardan artıq həcmdə 1526 müəssisənin (o cümlədən 346 sənaye obyektlərinin) nizamnamə kapitalı səhmləşdirilmişdir^.

Bu il ümumi nazamnamə kapitalı 326 mlrd. 400 mln. manat həcmində olan 206 səhmdar cəmiyyətin səhmləri hərraca çıxarılmışdır. Hərracda ümumi dəyəri 122 mlrd, manat olan səhmləri satmaq mümkün olmuşdur. Dəyəri 55 mlrd, manat təşkil edən səhmlər əmək kolektivlərində qapalı və xüsusi çek hərraclarmda, dəyəri 24,5 mlrd, manat olan səhmlər açıq pul hərraclarmda, dəyəri 42 mlrd. 1 mln. manat olan səhmlər isə investisiya hərraclarmda sa-

**' «Новое время», 16 март 2004 г.; Azərbaycanın statistik göstoriciləri.2000-2003-cü illər.**

**^ «Новое время», 16 март 2004 г.**

tılmışdır.' Aydındır ki, iqtisadiyyatda, ixracda və idxalda dərin struktur dəyişiklikləri apanimadan, ümumi sərmayədə investisiyaların həcmləri artınlmadan, istehsalın sonrakı inkişafı məsələlərini həll etmək olmaz. İqtisadiyyatın bu inkişaf mərhələsində sosial sistemin möhkəmləndirilməsi üçün hələ xeyli ehtiyatlar vardır. Həyat səviyyəsinin saxlanılması üçün əhali hələ əsasən maliyyə və maddi resurslara malikdir və bu da yeni makroiqtisadi siyasət konsepsiyasının işlənməsi üçün hökumətə aşağıdakı tədbirlərin reallaşmasma kifayət qədər vaxt verə bilir. Maliyyə siyasətində: Mərkəzi Bankın anti infllyasiya siyasətinin işlənməsidir. Vergi-büdcə siyasəti büdsənin stabil-azalan kəsirinə və yoxsulluğun azadılması məsələsinin həlli üçün cari xərclərin artım tempinin təmininə və yoxsulluğun kəmiyyət göstəricilərinin müəyyən edilməsinə əsaslanmalıdır. Sənayedə və kənd təsərrüfatında: fermerlər üçün kənd təsərrüfatı əmtəələrinin emal sahələrinin inkişaf etdirilməsi, daxili maliyyə bazarlarının səviyyəsinin yüksəldilməsi yolu ilə əmanətlər və investisiyalar arasında qarşılıqlı əlaqələrin yaxşılaşdırılması yollanm axtarmaqdır.

Nəqliyyat xərclərinin azaldılması və Bakı şəhərində və onun ətrafında ekoloji vəziyyətin yaxşılaşdıniması məqsədi ilə ayrı-ayrı sənaye sahələrinin başqa iqtisadi regionlara köçürülməsi məqsədəuyğundur. Məsələn, tikinti materiallan istehsalım xammal və əmək resursları ilə zəngin olan ayn-ayn regionlannda yerləşdirmək və inkişaf etdirmək olar.

Sosial siyasətdə və səhiyyədə: əhalinin sosial müdafiəsi zəif olan təbəqəsinə sosial xərclərin artınıması pensiya sahəsində islahatların aparılması üzrə işlərin davam etdirilməsi. Səhiyyə sistemində yenidənqurmanın

' **«НоВое** ВрСМÄ», **16** Мapr **2004 r.**

həyata keçirilməsinin daha səmərəli yolu xidmətlərin bazar prinsipləri üzrə göstərilməsidir.

Dövlətsizləşmə və özəlləşdirmə prosesində neqativ anların olmasına baxmayaraq, bütövlükdə müsbət anlar da çoxluq təşkil edir. Məsələn, iqtisadiyyatın inkişafında beynəlxalq iqtisadi əlaqələr subyektlərinin dairələrinin genişlənməsi baş verir. SSRİ-i zamanı belə əlaqələrin subyekti kimi dövlət və onun orqanları çıxış edirdilərsə, ondan fərqli olaraq, Azərbaycan müstəqillik eldə etməklə iqtisadi keçid ölkələri kimi, belə subyektlərin timsalmda xüsusi firmalar, ayrı-ayrı sahibkarlar çıxış edirlər.

Azərbaycan müstəqillik illərində yalnız kəmiyyət deyil, həmdə keyfiyyət dəyişikliklərinə nail olmuşdur:

- təsərrüfatçılığm liberal-bazar mexanizmi şəraitində ölkənin iqtisadi sistemi möhkəm dayanıqlılıq əldə etdi;
- radikal islahatlar dönməz şəkil aldı;
- iqtisadiyyatm dövlətsizləşməsi və radikal topraq islahatlan sosial-iqtisadi münasbətlər sistemində prinsipcə yeni şərait yaratdı;
- ■’ əsas təbii-iqtisadi resurslann istifadəsi üzrə uzunmüddətli dövlət strategiyası sona qədər formalaşdı;
- mikrotəsərrüfat sistemində inteqrasiya və açıqlıq yüksəldi.

Dünyamn bütün ölkələri ilə ticarət - iqtisadi münasibətlərin inkişafı üçün Azərbaycanda artıq bu gün ən münasib hüquqi və təşkilati şərait yaradılmışdır. Xarici iqtisadi fəaliyyətin liberallaşması ticarət əlaqələrini daha da gücləndirmişdir. 1994-cü ildə 58 ölkə idisə, 2002-ci ilədək dünyanm 113 ölkəsi ilə əlaqələr qurulmuşdur.

İnstitusional yenidən qurma sahəsində son 10 il ərzində 200-dən artıq qanunvericilik aktlan, o cümlədən xarici investisiyalann və Azərbaycanda xarici şerketlərin inves

tisiya fəaliyyətlərinin qorunması haqqında qanun qəbul edilmişdir.

Azərbaycanda bazar dəyişikliklərinin aparılması müəssisələrin xarici bazarlara birbaşa çıxışını həyata keçirməyə, beynəlxalq fəaliyyət obyektlərinin sayının artırılması üçün iri məkan əldə etməyə imkan verdi. Bu proses daha çox sahibkarlıq fəaliyyətinin, rəqabətin və xarici siyasi fəaliyyətlərin inkişafına dəyişikliklər gətirir və bu da öz növbəsində sərbəst bazar münasibətlərinin, milli iqtisadiyyatm inkişafımn və respublika iqtisadiyyatmın sonrakı inkişafının əsas konseptual istiqamətlərinin planlaşdırılmasmın möhkəmləndirilməsini təmin edir. Respublika iqtisadiyyatımn inkişafmm strateji məqsədi iqtisadi dövriyyəyə iqtisadiyyatın 4 seqmentinin maksimal şəkildə cəlb edilməsi ilə müəyyən edilir:

- xammal və yanacaq kimi istifadə edən digər baza sahələrinin inkişafı nəzərə alınmaqla yanacaq-energetika resursları, o cümlədən yalnız neft hesabına deyil, həm də maşınqayırmamn, qara və əlvan (alüminium) metallurgiyanın kimya, neftkimya, yüngül sənaye sahələrinin hesabına ixrac potensialmm kəskin şəkildə artınıması;
- Avropa və Asiyanın 32 ölkəsinin maraqlarında olan, tarixi «ipək yolunun» bərpasmm reallaşması ilə əlaqədar ilbəil artmaqda olan, ölkənin tranzit imkanlan. Almaniyanm xarici işlər naziri Yoşka Fişer Bakıya səfər edərkən bəyan, etmişdir: «Azərbaycan Cənubu Qavqazda ən vacib ölkədİD>‘. Ekspertlərin fikrincə bu nəqliyyat koridoru mövcud olanlardan iqtisadi cəhətinə görə daha səmərəlidir. Bunula əlaqədar proqnozlaşdınlır ki, yaxın 10 il ərzində Azərbaycandan keçən yüklərin həcmi 8-10

**' «Деловой Азербайжан» 27 апреля - 4 мая 2004 г. с.2**

dəfə artacaq. İqtisadiyyatın bu seqmentinin ayrılmaz tərkib hissəsi Bakı-Ceyhan neft kəməri və Xəzər dənizindən Türkmənistan qazımn Azerbaycanın ve Gürcüstanın ərazilərindən keçməklə Türkiyəyə göndərilməsini nəzərdə tutan qaz kəmərinin tikintisi hesab edilir;

- kənd təsərrüfatında torpaq islahatı yalnız torpağm pulsuz oiraq kəndlilərə daimi istifadələri üçün paylanmasını deyil, həm də onlara torpağm alqı-satqısı- nı həyata keçirmək hüququnu nəzərdə tutur. Ölkə əhalisinin əmək qabiliyyətli fəal hissəsinin torpağa bağlanması məqsədi ilə, kənd təsərrüfatı istesalçıla- rına dövlət tərəfindən yardım (iqtisadi mexanisnnlər vasitəsi ilə) zəruridir. Bu da öz növbəsində məşğulluq probleminin həll edilməsinə imkan verir və ölkənin ərzaq və digər istehlak əmtəələrinin idxalından asılılığmı kəskin şəkildə azaldır;
- ölkə regionlarının iqtsadi imkanlanndan gələcəkdə maksimal istifadə edilməsi. Azərbaycamn yeraltı və yerüstü resrslan, turizm imkanları və sərbəst əmək resursları, yeni istehsal və iş yerlərinin, o cümlədən infrastrukturlann yaradılmasında sərmayə qoyulmasının stimullaşdırması yolu ilə ölkə regionlarının harmonik inkişafmı təmin etməyə imkan verir.

Dünya Bankının qiymətləndirməsinə görə 2005-ci ilədək Azərbaycan iqtisadiyyatma demək olar ki, 14 mlrd, dollar birbaşa xarici investisiya, yaxud orta hesabla hər il 2 mlrd, dollar qoyulacaq. Yenə də onların qiymətləndirilmələrinə görə XXI əsrin ilk illərində Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) həcmi

## 1.3. iqtisadiyyatın restrukturizasiyası Azərbaycan - xarici sahibkarlığın perspektiv inkişafının əsası kimi

Azərbaycan iqtisadiyyatı çoxsahəlidir. Zəngin təbii resursları və istehsal-texniki potensialın sayəsində Azərbaycan Respublikası keçmiş SSRİ-in tərkibində respubli- kalararası ixracda müsbət saldoya malik olan və Rusiya ile bir sırada dayanan 2 respublikadan biri idi. Respublika hökuməti iqtisadiyyatın belə milli xüsusiyyətini radikal restrukturizasiya prosesində nəzərə alır. Ona görə de iqtisadiyyatın inkişafı məsələsinin ilk iri proqramı hökumət tərəfindən zəruri infrastruktur şəraitin yaradılmasım müəyyən etmişdir.

Restrukturizasiyanı həm sahələr üzrə, həm də sektor istiqamətləri üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Struktur yenidənqurmanın başlıca xətti hökumət tərəfindən müəyyən edilmiş sahə prioritetləri əsasında iqtisadi sahələrin ardıcıl olaraq dirçəldilməsi və inkişafı hesab edilir. Bu zaman struktur yenidənqurmanın əsas amillərindən biri enerji resurslarından effektiv istifadənin yüksəldilməsinin təmin edilməsidir.

Bu mərhələdə hökumət strateji məsələ kimi, iqtisadiyyatın dinamik artımının təmin edilməsini görür. Burada əsas yer yanacaq-energetika kompleksinə və istehsal xərclərinin böyük hissəsinin yanacaq-energetika resurslarının təşkil etdiyi kimya, neftkimya və metallurgiya sənaye sahələrinə aiddir. Bu günkü vəziyyəti nəzərə almaqla hökumətin sənaye siyasəti xarici, xüsusilə Yaponiya sərmayəsinin cəlb edilməsi və fəal iştirakı ilə yüksək səmərəli və rəqabətqabiliyyətli sənaye istehsal komplekslərinin yaradılmasından ibarətdir. Belə struktura daxili və xarici bazarlarda tələb konyukturaları nəzərə

alınmaqla sənaye sahələrinin köklü şəkildə modernləşməsində strateji proqramların reallaşması çərçivəsi üzrə açıq iqtisadiyyat şəraitində formalaşır.

Azərbaycan hökuməti belə güman edir ki, iri sənaye müəssisələrinin sanatsiyası fərdi layihələr və səhmdar cəmiyyətlər yaradılması əsasmda həyata keçirilməlidir. Həmin səhmdar cəmiyyətinə son məhsul istehsalını təşkil edən müəssisənin daxil edilməsi mümkün olmalıdır. Bununla əlaqədar Yaponiyanm və dünyamn digər məşhur şirkətlərinin milli sənayenin restmkturizasiyasmda iştiraklannı təmin etmək məqsədi ilə intensiv işlər apan- lır. Azərbaycan xarici şirkətlərə milli iqtisadiyyatda müasir biznesin ən geniş spektr formalarını təklif edir. Buraya ilk növbədə özlərinin texnoloji təminatlın üçün məhsullar istehsal edən sahələr və yanacaq-energetika kompleksləri, o cümlədən istehsal xərclərinin, xüsusilə resurs- energetika xərclrinin aşağı salınması güman edilən kimya, nellkimya və metallurgiya sahələrinin inkişaf etdirilməsi və dünya bazarlannda məhsulların rəqabət qabiliyyətinin təmin edilməsi üçün istehsalın komplektlilik səviyyəsinin yüksəldilməsi daxilidir.

Yaponiya şirkətlərinin fəal iştirakı ilə kimya kompleksində yüksəktəzyiqli buxar generatoru qurğularının bazası əsasında xüsusi enerji istehsal sistemlərinin texniki layihələri hazırlanmışdır. Bu layihəyə əsasən il ərzində polipropilen-100 min ton, benzol-80 min ton, toluol-40 min ton, etil-benzol-50 min ton, natrium və kalium hid- roksid qələviləri, dixloretal, ammoniak və digər azot birləşmələri (kübrə, sulfat turşusu və s.), kaustik soda və s. istehsal xətləri istifadəyə verilmişdir.

Qeyd etmək lazımdır ki, kimya kompleksinin əksər zavodlan artıq 1999-cu ildə özəlləşdirilmişdir. Onlar arasında məişət kimyası zavodu, 2 yod zavodu, rezin qanşıq

məmulatlar, texniki-rezin memulatlan, şüşə-məmulatları, plastik-kütlə, lakboya zavodlarını göstərmək olar.

Bütövlükdə xarici şirkətlər üçün Azərbaycanda xüsusi sektorda yeni istehsallann təşkili üzrə çoxlu sayda maraqlı təklif və layhələr vardır.

Azərbaycan kifayət qədər faydalı qazmlı ehtiyatları ilə zəngin olunduğundan, qara, əlvan metallurgiyalarla təmsil olunan metallurgiya kompleksi də resurslarla təmin olunmuş hesab edilir. Metallurgiya sənayesi müəssisələrinin əsas xüsusiyyəti odur ki, onlarda qarşılıqlı kooperasiya-texnologiya əlaqələri mövcuddur. Məsələn, alüminium sənayesi sıx qarşılıqlı əlaqədə olan 165 mln. ton alunit filizi ehtiyatı ilə Zeylik yatağım özünə daxil edir, Gəncə aliminium kombinatı illik gücü 1 mln. ton, Sumqayıt «Əlvanmetab> illik gücü 25 min. ton və s.

Respublika hökuməti iqtisadiyyatda korporotiv istiqamətlərin inkişafına böyük əhəmiyyət verir. Bununla əlaqədar olaraq yuxarıda adlan çəkilən müəssisələr də daxil olmaqla, aliminium istehsalı üzrə xarici investorlarm da iştirala ile korporotiv şirkətlərin yaradılması üçün layihə işlənir. Artıq sənayemizin nəhəngi sayılan Sumqayıt boruprokat zavoduun restmkturizasiyası layihəsi fəaliyyətdədir.

Aydındır ki, həmin bu layihələr ən müasir texnoloji tələblərə cavab verməlidir. Ona görə də sənaye istehsalında yaponiya elmi-texniki «məktəbinin» imkanlannı nəzərə alaraq, güman etmək olar ki, yapon iş adamlan bu lahiyələrdə daha da fəal iştirak edə bilərlər.

Azərbaycamn sənayesi həm də çoxlu sayda maşınqayırma və elektrotexnika istehsal sahələri ilə təmsil olunduğundan yaponiya şirkətləri üçün cəlbedici ola bilər. Onların dirçəldilməsi üçün iqtisadi-texnoloji yeniləşmənin kompleks tədbirlərində nəzərdə tutulmuş fərdi layihələr

üzrə heyata keçirilməlidir. Bununla əlaqədar bir sıra iri birliklər restrukturlaşma layihələri hazırlanmış və artıq ilk ekspert yoxlamşmdan keçmişdir. Onların sıralarma daxildir: kondisionerlər zavodu (əvvəllər yapon mütəxəssisləri tərəfindən tikilmiş); müxtəlif təyinatlı elektrik müherrəikləri istehsal edən «Elektromaş» birliyi; soyuducular zavodu və s. Bu zavodların investisiya cəlbediciliyini onların ənənəvi satış bazarlannın və yüksəkixtisaslı mühendis-texniki potensiallarının olması müəyyən edir.

Yaponiyanın xüsusi sərmayəsi üçün tamamilə özəlləşdirilmiş əla yerli xammala və tutumlu daxili bazarlara malik olan yüngül və yeyinti sənayesi sahələri mövcuddur və onlann inkişaf etdirilməsi üçün geniş imkanlar vardır.

Azərbaycanın yüngül sənayesinin tərkibinə pambığın, yünun, ipəyin emalları üzrə müəssisələr, toxuculuq, tikiş, ayaqqabı və s. diger yardımçı sahələr daxildir və onlarm sayı 200 —dən artıqdır. Lakin, texnoloji gerilik məhsulların keyfiyyətlərinə təsir edərək, onlarm rəqabətqabiliyyə- tini aşağı salır. Əksər müəssisə sahələri (ipək, toxuculuq, trikotaj) müxtəlif yapon fırmalanmn («Kioto», «Cuki», «İtoçu», «Cori», «Tocima») və Qərbi Avropa ölkələrinin məşhur firmalarmın avadanlıqları ile işləyirlər, lakin bu avadanlıqlar fiziki və mənəvi cəhətcə köhnəldiklərindən onlann yapon şirkətlərinin iştirakı ilə modernləşməsi zərurəti yaranmışdır.

Xarici investorlar fəaliyyətdə olan pambıqparça, yun, ipək kombinatlannm, toxuculuq və tikotaj fabriklərinin özəlləşdirilməsində və modernləşməsində iştirak edə bilərlər.

Məsələn, Şəki ipək kombinatında barama əyirmə istehsalının yeniləşməsi böyük maraqlara səbəb olmuşdur. Onun gücü 270 ton ipək-xammal, 30,0 mln. poq/metr parça, tamamlama istehsalı-43 mln. kv. metr, hazır parça

təşkil edir. Həmin layihə üzrə «İtoçu» yapon firmasının nümayəndələri ilə də damşıqlar aparılır.

Azərbaycan natural liflərin bütün əsas növlərinə malik olmasına baxmayaraq, kimyəvi boya, toxuculug üçün yardımçı maddələrin və kimyəvi liflərin idxalından tamamilə asılı vəziyyətdədir. Bununla əlaqədar uyğun istehsallar, o cümlədən müvafiq yapon firmaları ilə kooperasi- yalann yaradılması məqsədəuyğundur.

Hazırda torpaq və aqrar islahatların aparılması ilə əlaqədar, aqrosənaye kompleksində xüsusi sektorun rolu artmışdır. Bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı məhsullanmn emal sahələrində xarici xüsusi firmalar fəallaşmışlar. Məsələn, pambıq təmizləmə, çay emalı və bir sıra digər sahələrə artıq xarici xüsusi investisiyalar qoyulmuşdur. Lakin, bir sıra yeyinti sənayesi sahələrində xüsusi istehsal ümumiyyətlə yoxdur. Belə ki, il ərzində Azərbaycanda şəkərə olan tələbat 240 min tona yaxın olunduğu halda, ölkədə bir dənə də olsun şəkərrafinand zavodu yoxdur. Azərbaycanm iqlim şəraiti imkan verir ki, il ərzində 800 min tondan artıq şəkər qamışı becərilsin. Emal gücünün olmaması ucbatından Azərbaycan şəkər ğamışı istehsalını məhdudlaşdırmağa və şəkər-konditer məhsullarının idxalını artırmağa məcburdur. Alkoqollu içkilərin istehsalı üçün böyük imkanlar vardır. Ən yaxşı üzüm növləri sayəsində xammalla tam təmin olunan ilk emal üzrə 100-dən artıq zavod, süzmə üzrə isə 15 zavod, ümumi gü- çü ildə 1,6 mln. ton olan, o cümlədən qonşu dövlətlərdə ənənəvi satış bazannm kifayət qədər olması, özəlləşdirmənin investisiya cəlbini və ölkəmizin araq-şərab sənayesinin texnoloji modernləşməsini müəyyən edir.

Azərbaycanda tikinti sənayesi kifayət qədər inkişaf etmişdir. Xüsusi tikintilərlə yanaşı tikinti materialları istehsal edən sahələr də az deyil.

Tikinti sahəsinin bütün müəssisələri artıq özəlləşdirilmişdir. Lakin, hökumət xarici investisiyalan cəlb etmək məqsədi ilə bir neçə iri müəssisənin nəzarət paketlərini özündə saxlamışdır. Hal-hazırda tikinti materiallarına olan tələbatın əsas hissəsi idxal hesabına təmin edilir. Həmin məhsullar boya, meşə materiallan, linoleum, gips, santex- nika avadanlıqları, kafel və s.-dir.

Nəzərə alsaq ki, işğal olunmuş torpaqlarımız azad edildikdən sonra tikinti bazarına olan tələb kəskin şəkildə artacaq, müvafiq istehsalın genişləndirilməsinin əhəmiyyəti göz qabağındadar və burada da yapon şirkətləri iştirak edə bilərlər.

İqtisadi səmərəlilik nöqteyi-nəzərindən, kommunikasiya-nəqliyyat şəbəkələrinin inkişafı üçün yaponiya TMK-ı tərəfindən sərmayələrin qoyulmasmı biz daha perspektivli hesab edirik.

Avropa-Asiya Transqafqaz koridorunun yaradılması üzrə proqramın reallaşması böyük miqdarda investisiya tələb edir. Yükdaşımalann intensiv artımı ilə əlaqədar olaraq, o öz həllini tez tapır. Yaponiya biznesi üçün həmin sektorda xidmət sahələrinin formalaşması üzrə geniş meydan açılmışdır.

Azərbaycanda telekommunikasiya sahələrinin modernləşməsi və inkişafı da tutumlu investisiya bazarı hesab edilə bilər. Burada artıq dünyanın bir çox ölkələrindən, o cümlədən Yaponiyadan məşhur firmalar çalışırlar.

Bütövlüklə qeyd etmək lazımdır ki, Azərbaycanda iqtisadi fəaliyyətin restrukturlaşması və liberallaşması Yaponiya sərmayəsi ilə əməkdaşlıqda fərdi sektorun inkişafı üçün xüsusi zəmin yaratmışdır.

## Fəsil 11. Xarici iqtisadi əlaqələrin formalaşması, investisiya siyasəti və sahələrin istiqa mətləri

### 2.1. Azərbaycanm inves^sfya potensialı və 90-cı illərin ortalarında xarici investisfyaların cəlb edəlməsinin sahələri

Azərbaycan Respublikası xarici investisiyaların axını üçün pozitiv şəraitə və obyektiv amillərə malikdir. Onla- rm sırasında təbii-xammal resursları, o cümlədən milli iqtisadiyyatm malik olduğu aşağıdakılar daxildir:

Mineral-xammal ehtiyatlan il ərzində neft-3 mlrd, tondan artıq, təbii qaz7İtrln.kub.m-dən artıq, dəmir filizi-230 mln.ton, alunit fılizi-234 mln.ton., inşaat materialları-60 mln.kub.m., sement və şüşə istehsalı üçün xammal-500- 600 mln.ton., seolit-20 mln.ton., minerat sular-730 min.kub.m, brom yodlu sular-840 min.kub.m. və s^

Sənayedə: 1155 iri və orta müəssisələr, o cümlədən: elektroenergetika-47, yanacaq kompleksləri-22, metallurgiya-10, kimya və neftkiya-28, maşmqayırma və metal emalı- 162, tikinti materiallan-145, yüngül, yeyinti və un üyütmə-580, digər sahələr-161;

Aqrosənaye kompleksində: kənd təsərrüfatı üçün yararlı sahələr^,! mln.ha, o cümlədən əkin sahələri-1,4 mln.ha, örüş-2 mln.ha.

Münasib təbii-iqlim şəraiti potensial olaraq aşağıdakılan istehsal etməyə imkan verir: pambıq-xammal-500-600 min.t, üzüm-1,3-1,5 mln.t., tütün-55-60 min,ton., tərəvəz-

**‘ Azerbaycanın mineral-xammal ehtyatlannn həcmi kitabm 3 bölməsində ola bilər ki, üst-üstə düşməsin, ona görə də müəllif məqsədyönlü şəkildə müxtəlif mənbələrin proqnoz məlumatlanndan istifadə etmişdir.**

800-900 min.t., meyvə-500 çay-30-32 bara- ma-5 min.t, yun-8-10 min.t

Kənd təsərrüfatı xammallarının emalı üçün aşağıdakı gücə malik istehsal sahələri var. İlkin şərab materiallarının hazırlanması üçün-1,8 min.t. üzüm, şampan şərabı-2 mln.butulka, üzüm şerabı-20 mİn, meyvə-tərəvəz-861 mln. şərti banka, balıq konservı-5l mln. şərti banka. Balıqlann tutulması, onların emalı və ildə 4-5 ton ağ balıq və kürü istehsal etməyə imkan verən müəssisələr mövcuddur;

«Nəqliyyat və kommunikasiya» sahələri üzrə: 2,12 min km, uzunluğa malik dəmir yollan, o cümlədən: elektrikləşdirmiş-1,3 min.km, tanker, parom-69-ədəd, hava limanı-12, o cümlədən: beynəlxalq - 1, sərnişin təyyarələri-40 ədəd, yük təyyarələri-5 ədəd, xalq təsərrüfatında istifadə edilən təyyarəler-75, vertolyotlar-41; möhkəm Örtüklü avtomobil yollannın uzunluğu-23 min.km., yük avtomobilləri-12,8 min.ədəd; metro xətləri-28,5 km; beynəlxalq kabel xətlərinin uzunluğu-7,5 min km., radiorele əlaqə xətləri-2,8 min km, yerüstü peyk əlaqələri-136 kanal, teləviziya stansiyalan 1 min kv.t. və yuxan-19.

Azərbaycamn elmi-texniki potensialı aşağıdakılardan ibarətdir: Milli Elmlər Akademiyası, Elmi-tədqiqat müəssiseləri-146, elmi işçilər-30 min nəfərdən artıq, o cümlədən elmlər doktoru-1,4 min nəfər, akademiyalar, universitetlər və digər ali təhsil müəssisələri-22, orta ixtisas və texniki müəssisələr-78;

Zəngin təbii-xammal bazası, su və təbii resursların kifayət qədər olması ölkədə güclü elektroenergetika, metallurgiya, neftqaz çıxarma, neft emalı və kimya sənayelərin yaradılmasma imkan verir.

Eyni zamanda müharibədən sonrakı illərdə (50-60-cı illər) yaradılmış sənayenin və iqtisadiyyatm infrastruktur-

larinin maddi bazası müasir tələblərə cavab vermir və onların ciddi rekonstruksiyaya və modernləşməyə ehtiyacları vardır.

Bazar münasibətlərinin formalaşması şəraitində qısa müddət ərzində yalnız sənaye potensialının deyil, həm də buraxılan məhsullann nomenklaturalarmı bazarın tələbinə uyğun şəkildə nəzərə almaqla, xammalm ilk emalından əvvəlcə yanmfabrikatlann, sonra isə son hazır məhsulun istehsalına keçirilməsini təmin etməklə dirçəldilməsini həyata keçirmək lazımdır.

Respublikada bu istiqamətdə beynəlxalq maliyyə təş- kilatlarmm (Beynəlxalq Valyuta Fondu, Beynəlxalq İnkişaf və Rekonstruksiya Bankı, Avropa İnkişaf və Rekonstruksiya bankı) köməyi ilə reablitasiya kreditlərinin verilməsi, xarici iqtisadi fəaliyyətin geniş şəkildə liberallaşdı- rılması, makroiqtisadi stabüləşməyə nail olunması metodlarının vasitəsi ilə iqtisadi islahatların həyata keçirilməsi üzrə zəruri tədbirlər artıq reallaşdırılmışdır.

Yuxanda adlan çəkilmiş beynəlxalq maliyyə təşkilatlarının iştirakı ilə özəlləşmə, həm yerli, həm-də xarici in- vestisiyalarm cəlbinə imkan verən mühitin yaradılması üzrə hərtərəfli proqramlann işlənməsi və tətbiqi həyata keçirilir.

Son 10 il ərzində respublika parlamenti tərəfindən iqtisadi islahatların gedişini sürətləndirən, xarici investisiyaların cəlb edilməsi üçün münasib şəraitin yaradılmasını təmin edən 150-den artıq qanunvericüik aktlan qəbul edilmişdir. Xususilə aşağıdakı qanunlar «xarici investisiyaların müdafiəsi haqqında», «səhmdar şirkətlər haqqında», «iflas haqqında», «mülkiyyət haqqmda», «banklar və bank fəaliyyəti haqqında», «gömrük haqqmda», «yerli hüquqi şəxslərin və vətəndaşların iştirakı ilə birgə müəssisələrin və onlarm filiallarmın Azərbaycan Respublikası

ərazisiadə qeydə aimmasmın sadələşdirilməsi haqqında» o cümlədən «Azərbaycan Respublikasında xarici firmaların və təşkilatlann filiallanmn fəaliyyəti və nümayəndo- liklorinin açılması qaydası haqqında» əsasnamə və s. qəbul edilmişdir.

Bu qanunlara uyğun olaraq Azərbaycan Respublikası ərazisində aşağıdakı müəssisələr yarana və fəaliyyət göstərə bilər:

- xarici investisiyalann pay iştirakı ilə (birgə müəssisə);
- xarici investora (xarici müəssisə), xarici hüquqi şəxsin nümayəndəliyinə (büro, kontorlar, agentlik) tamamilə məxsus olan müəssisə.

Bu gün respublikada dünyanın 40-daıı artıq ölkəsi ilə 1200-dən artıq birgə müəssisə fəaliyyət göstərir.

Sərmayələrin respublikaya gətirilməsi və birgə fəaliyyətin inkişafı üçün «xarici investisiyaların müdafiəsi haqqında» qanun əsasında dövlətlərarası müqavilənin bağlanması həlledici rol oynayır. Belə müqavilə-razılaşmalar Türkiyə, Böyük Britaniya, Səudiyyə Ərəbistam, ABŞ, AFR, Pakistan, İran və bir sıra MDB ölkələri ilə, 1995-ci ildə isə Yaponiya ilə bağlanmışdır.

Keçmiş SSRİ-də dərin inteqrasiya etmiş təsərrüfat, ticarət, maliyyə və nəqliyyat əlaqələrinin qınıması ucbatından Azərbaycan iqtisadiyyatı böyük çətinliklərlə üzləşmişdir.

Mövcud vəziyyətlə əlaqədar Azərbaycan dünya ictimaiyyətinin, beynəlxalq maliyyə təşkilatlanmn, donor-ölkələrin köməyi və xarici xüsusi sərmayələrin axmı olmadan bazar iqtisadiyyatı problemlərin təkbaşma həl etmək iqtidannda deyildir.

Yaranmış vəziyyətə uyğun olaraq iqtisadi islahatlann həyata keçirilməsi üçün respublika hökuməti tərəfindən artıq 90-cı illərin ortalannda 25 mlrd. ABŞ dollanndan ar

tıq həcmdə xarici investisiyaları cəlb elməklə prioritet sahələr üçün investisiya proqramı işlənmişdir.

Proqramda ilk növbədə respublikanın energetika sistemlərində rekonstruksiya işlərinin aparılması, köhnə avadanlıqlarm dəyişilməsi, fəaliyyətdə olan elektrostansiyaların texniki cəhətdən yenidən qurulması, 14 ildən artıq blokada şəraitində olan Naxçıvan Muxtar Vilayətinin özünün energetika bazasının yaradılması nəzərdə tutulmuşdur. Təxminən bütün enerji istehsal güclərinin 60 %-i 30 il bundan əvvəl qurulmuşdur. Nəticədə yanacaq və enerji itkisinin səviyyəsi çox yüksəkdir.

Yerli neftin qiymətinin dünya səviyyəsinə qaldırılmasını nəzərə alsaq respublikanın enerji sistmiərinin modernləşməsində xarici sərmayənin investisiyalaşdırılması yüksək maliyyə geriliyinə gətirib çıxara bilər. Energetika sahələrinin modernləşməsi üçün lazım olan xarici investsiyaların ümumi dəyəri 2,3 mlrd. ABŞ dolları təşkil edir.

Respublikanın sənaye potensialımn beşdə bir hissəsini 500 min. kv. metr sahəsi qeyri-səmərəli istifadə edilən, 130 müəssisəni təmsil edən maşınqayırma kompleksi təşkil edir. Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-in neft maşınqayırma məhsullarına olan tələbatmm 80 % - m Azərbaycan təmin edirdi. Bu gün ümumi konversiya şəraitində bizim zavodlarm kənd təsərrüfatı və maşınqayırma texnikalarının, ehtiyat hissələrinin və s. buraxılması üçün profillərinin dəyişilməsi məsələsi qarşıda durmuşdur.

Azərbaycanın kənd təsərrüfatı istehsalı əsasən pambıqçılığın, üzümçülüyün, tütünün və tərəvəzçiliyin inkişafına yönəldilmişdir. Bu məhsulların böyük hissəsi keçmiş ittifaqın ayn-ayn regionlanna göndərilirdi. Respublikanın kənd təsərrüfatının yüksək potensialının olmasma baxmayaraq, aqrar sektorun mövcud strukturu nəticəsində (onun

həddindən artıq ixtisaslaşması) bu gün özünün tələbatım təmin etməyə imkan vermir. Şəkər, bitgi yağları, ət və ət məhsullan, taxılın demək olar kı, lazım olan miqdarda həcmi xaricdən respublikaya idxal edilir. Ona görə də kənd əhalisinin məşqulluq problemlərinin həllinə imkan yerən, birgə müəssisə şəbəkələrinin yaradılması yolu ilə yeyinti sənayesində xammallann emal həcmlərinin genişləndirilməsi, kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün ən yeni texnologiyanm tətbiq edilməsi məqsədi ilə xarici investisiyalann miqyaslı şəkildə cəlb edilməsi tələb olunur.

Hökümət tərəfindən işlənmiş investisiya proqramı prioritet investisiya layihələrinin bütöv bir kompleksində bu istiqamətdə kənd təsərrüfatmın dirçəldilməsi üçün ümumi dəyəri 200 mln.ABŞ dollan, melorasiya və irriqasiyamn inkişafı üçün 400 mln ABŞ dolan nəzərdə tutmuşdur.

Su anbarlarmın və irriqasiya obyektlərinin tikintisinin daxil olunduğu kompleks proritet investisiya layihələrin reallaşması mütəxəssislərin fikrincə, 3-5 il müddətində pambıq istehsalım 475 min .ton, taxılı-375 min. ton, tərəvəz və bostan məhsullarını-350 min ton artırmağa imkan verir və digər növ kənd təsərrüfatı məsullarmın da əhə* miyyətli dərəcədə artımım təmin edir.

Azərbaycan hazır kənd təsərrüfatı məhsullarınm idxalçısından onların ixraccçısma çevrilə bilər.

Eyni zamanda müasir texniki və texnologiya bazası əsasında çox da böyük olmayan emal müəssisələri, o cümlədən; pambıq-yağ emalı, qənnadı zavodları, tütün kombinatı kimi müəssisələri yaratmaq zəruridir. Bütün bunlar ərzaq problemini və əmək resurslarından səmərəli istifadə edilməsi məsələlərinin həlimə imkan verir.

Respublikanın kimya sənayesi də yeniləşməni və yeni istehsalların yaradılmasmı tələb edir. Müəssisələrdə, onlann sahələrində buraxılan məsullarm yalmz 30-40%-i son məhsul hesab edilir, qalanları isə xammal və yarım- məhsul şəkilində emal üçün respublikadan kənara daşınır.

Sahələrin qarşısında duran başlıca məsələ yeni, güclü istehsalların yaradılması yolu ilə polimer materialların buraxılışı üzrə və ilk növbədə polipropilen, polietilen, polistirolun istehsalı üzrə son məhsulların paymm artırılmasından ibarətdir.

Kimya sənayesinə xarici investisiyalarm cəlb edilməsi dünya bazannda qeyri-məhdud tələblərlə istifadə edilən, yüzlərlə milyon dollar dəyərində raqabətqabiliyyətli məhsullann buraxılmasının təşkilinə imkanlar açacaqdır.

Yalmz neft emalı və kimya sənayesi üçün yaxın 3-4 il ərzində 1 mlrd. ABŞ dollarından artıq həcmdə xarici investisiya tələb olunur. Bu istqamətdə xarici xüsusi biznesə kiçik investisiya layihələri təklif edilir. Məsələn, «Abşeron yanmadasında neftlə çirklənmiş torpaqlann və neft tərkibli çirkab sulann təmizlənməsi» layihəsi. Layihənin ümumi dəyəri 10 mln. ABŞ dollan, müddəti 2,5 ildir.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafı beynəlxalq normalara uyğun olaraq, telekommunikasiya, yol təsərrüfatı, dəniz və hava nəqliyyatlan sistmləiinin rekonstrukmiyası üzrə problemlərin həll edilməsini tələb edir. «İnfrastruktura» milli proqrammm reallaşması üçün 3 mlrd. ABŞ dollarmdan artıq həcmdə investisiya tələb olunur (təkcə 1996-2005-ci illərdə Dövlət telekommunikasiya proqramlarmm maliyyələşməsinə-417 mln. ABŞ dolları nəzərdə tutulmuşdur).

Azərbaycan bütövlükdə yerli və xarici investorların tələblərini təmin edə bilən geniş inkişaf etmiş nəqliyyat

infrastrukturlarına: dəniz, hava, dəmir yolu, avtoyol nəqliyyatı, metropolitenə malikdir.

Respublikada hal-hazırda mövcud nəqliyyat kommunikasiyalarının rekonstruksiyasına və texniki cəhətdən yenidən qurulmasına böyük zərurət vardır. Onların sırasında Xəzər dənizində vacib mövqeyə malik Bakı dəniz limam- dır. Birgə neft layihələrinin həyata keçirilməsi Azərbaycanda, Qazaxstanda və Türkmənistanda dəniz nəqliyyatının fəallaşmasma, dəniz limanlarının genişləndirilməsinə gətirib çıxaracaq.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafmda hava nəqliyyatının rolu böyükdür. Fəaliyyətdə olan Bakı hava limanı orta səviyyəli maddi-texniki bazaya malikdir.

Aerovaqzalın genişləndirilməsi, təyyarə parklannm yeniləşməsi və s. işlər nəzərdə tutulmuş «Hava nəqliyyatı» proqramnm reallaşması üçün 887 mln. ABŞ dollardan artıq həcmdə investisiya lazımdır.

Xarici investisiyaların cəlb edilməsi vasitəsi ilə həm də aşağıdakı prioritet layihələrin maliyyələşdirilməsi zəruridir: «Xəzərgəmitəmiri» gəmi təmiri zavodunun rekonstruksiyası, Bakı metropoliteninin 3-cü və 4-cü növbələrinin tikintisi, «Bakı-Quba-Dağıstan (162 km), Bakı-As- tara-İran (263 km), Qazıməmməd-Əlibayramlı-Aslandü- zü, İran-Culfa-Naxçıvan-Sədərək-Türkiyə (480 km) avtomobil yollarının və körpülərin rekonstniksiyası. *

İqtisadi əlaqələrin kəsilməsi nəticəsində Daşkəsən yatağmda dəmir filizinin çıxarılması demək olar kı, dayandırmışdır. Burada iri dağ-mədən kombinatı mövcuddur (keçən illərdə illik istehsal 700 min tona çatmışdır). Burada əsas məhsul-konsentrantın tərkibində 60,3 % dəmir filizi vardır. Filizin balans ehtiyatı 230 mln ton hesab edilir.

*** Bu layihələrin çoxu artıq maliyyələşdirilmişdir və aşağıda təsvir ediləcəkdir.**

ve kombinatın 80-90 il müddətində fiınksiyalaşmasım təmin edə bilər. Qara metallurgiyaya investisiya tələbatı 920 mlnABŞ dollan təşkil edir.

Özünün xüsusi resursları (alunit filizi, nadir metallar, o cümlədən qızıl, gümüş) bazası əsasında yaradılmış əlvan metallurgiyanm da 679 mln.ABŞ dolları həcmində xarici investisiyaya ehtiyacı vardır.

Respublikanm çoxsahəli yüngül sənayesi özünün xüsusi xammalma əsaslanır. Buraxılan məhsullarm yandan çoxunu yanmfabrikatlar təşkil edir. İl ərzində istehsal olunan 150-200 min ton pambıq liflərinin yalmz 15-20%-i emal edilir.

Toxuculuq, tikiş, dəri istehsallannm təşkilində və idarə edilməsində Azərbaycana 60-cı illərdə Yaponiya və İngiltərənin təcrübəsinə və texnologiyalanna yiyələnmiş Pakistanm, Hindistanm, Türkiyənin və digər Yaxm və Orta Şərgi, Cənub-Şərgi Asiya ölkələrinin xüsusi sərmayələri yardım göstərə bilər.

## 2.2. Yapon şirkətləri üçün investisiya prioritetləri

Azərbaycan hökuməti tərəfindən həyata keçirilən iqtisadi islahatlar göstərir ki, aqrar sektorun, yüngül və neft-kimya sənayelərinin, maşmqayırma və metallurgiya müəssisələrinin köklü surətdə modemlədirilməsi zəruridir. Yaxın illər ərzində Azərbaycamn qarşısmda beynəlxalq maliyyə təşkilatlannm, xarici sahibkarların investisiyalan əsasında bütün təsərrüfat komplekslərində köklü surətdə islahatlar aparmaq, yeni texnika və texnologiyalan tətbiq etmək vəzifəsi durur. Azərbaycamn başqa alternativləri yoxdur.

Hökumətin investisiya təklifləri sirasmda Yaponiyam xüsusi qeyd etmək lazımdır. 2000-ci ilin noyabr ayında

Bakıda Azərbaycan-Yaponiya dövlət komissiyaİannm və iqtisadi əməkdaşlıq üzrə azərbaycan-yapon komitələrinin ikinci birgə iclasında baş nazirin müavini A.Şərifov demişdir: «Azərbaycan hökuməti ölkənin en iri müəssisələrini sırf simvolik qiyrriötİəHə yapon firmalarına satmağa və ya 100 % xäriCi idarəetməyə verməyə hazırdm>.‘ Baş nazirin müavini Ä’Şərifovun sözlərinə görə Azərbaycan hökuməti yapon şirkətlərinin cəlb edilməsi məqsədi ilə və eyni zamanda vefği ödənil- mosihdə və digər sahələrdə Yaponiyaya güzəşt koridoru yaratmaqla bütün investisiyalarm müdafiəsi üçün təminatla çıxış edir.

Azərbaycan hökuməti özünün təkliflərini bununla izah edir ki, Yapoıüyadan investsiyaların cəlb edilməsi üçün indiyədək laedit xətlərinə dövlət zəmanətinin verilməsi, yaxud da görülmüş işlərə görə paylarm bölüşdürülməsi haqqında razılaşmalar kimi metodlardan istifadə edilir. Belə metodlar yapon kreditorları və xarici tərəfdaşların tələbləri əsai^ihda istifadə edilirdi və bu zaman hər bir uğurlu razılaşma bu və ya digər ölçüdə gələcək razılaş- malann qüvvəyə minməsində dövlətin rolunu məhdudlaşdırırdı. Bununla belə, azərbaycan tərəfindən komissiyanm sədri A.Şərifovun sözlərinə görə (yapon tərəfindən həmsədr Nichimen şirkətinin prezidenti Akira Vatari idi) bu o demək deyildir ki, Azərbaycan hökumətinin xarici xarakteri investisiyalara birbaşa zəmanət vermək imkanı yoxdur. Məsələ ondadır ki, Azərbaycan dövlət zəmanəti ilə kredit alarkən, özünün borcdan asılılığını dərinləşdirir. Ona görə də əməkdaşlığın yeni-yeni formalanm axtarmaq lazımdır. A.Şərifov bəyan etmişdir: «İqtisadiyyatın müxtəlif sahələrində kifayət qədər prioritet layihələr vardır. Təxirəsalınmazlığı və daha yüsək prioritetli sahə- *

*** Azerbaycan hökumoti milli iqtisadiyyatın reallıqlannictiraf eU5i. "Банки и бизнес", №30,4 ноября 2000г.**

lərə dövlət öz güçü daxilində zəmanət verəcəkdir. Bu hər şeydən öncə, Samur-Abşeron irriqasiya sistemlərinin, neft maşınqayırmasında əmək resurslarmm inkişafı, kiçik HES - in rekonstruksiyası, telekommunikasiyalann, elektrostan-siylarm rekonstruksiyası və sK

Lakin, yaponlar üçün yeni bazarlara yiyələnərkən, dəqiq ardıcıllıqla ehtiyatlılıq göstərmək xarakterikdir. Bununla əlaqədar 1995-ci ildən Azərbaycan bazarlarında peyda olan yaponlar investisiyaların qoyulması üçün birbaşa dövlət zəmanətini tələb edirlər (ilk növbədə Azərbaycan haqqında informasiyaların kifayət həcmdə olmaması əsas gətirilir).

Eyniylə Azərbaycan hökumətinin və şirkətlərinin də TMK və yapon firmalanmn orta təbəqəsi haqqında kifayət qədər məlumatlan yoxdur. Yapon şirkətləri Cənub- Şərqi Asiyanın inkişaf etməkdə olan ölkələrində böyük potensiala və təcrübəyə malikdirlər. Həmin potensial və təcrübədən Azərbaycanda sahibkarlığm inkişafı üçün əməkdaşlıqdan geniş istifadə etmək lazımdır.

Yaponiya hökuməti və şirkətləri Azərbaycan bazarlarını «ehtiyatla» öyrənirlər və artıq bu barədə onların öz rəyləri vardır. Yaponiyanm Xarici ticarət və inkişaf nazirliyinin nümayəndəsi yapon xüsusi şirkətlərinin şikayətləndikləri məsələləri-işgüzar infrastrukturlarda və vergi siyasətində şəffaflığın olmamasını Azərbaycan hökumətinin nəzərinə çatdırmışdır. Yapon xüsusi kapitalının yüngül və yeyinti sənayelərinə, kənd təsərrüfatmm inkişafına cəlb edilməsi üçün sənayenin balanslaşmış sistemlərinin yaradılması tələb olunur. Bunun üçün Azərbaycan hökumətinə inkişaf prioritetlərini müəyyən etmək, onlann açıqlıq dərəcələrini yüksəltmək və makroiqtisadi infor-

**' Azərbaycan hökumət milli iqtisadiyyatm reallığmı etiraf etdi. «Бакни и бизнес» №30, 4 ноября, 2000г.**

masiyalann açıqlığını təmin etmək lazımdır. Bir çox hallarda ölkədə siyasi sabitlik, dövlət büdcəsinə dəqiq nəzarət sistemi, xarici borclara, investisiyalara nəzarət sərmayə qoyuluşunun sonrakı inkişafına zəmanət ola bilər.

Yaponiyanın Azərbaycandakı səfiri cənab Xirosi 2-ci Azərbaycan-Yaponiya dövlətlərarası iclasda qeyd etmişdir ki, Azərbaycanda yapon şirkətlərinin iqtisadi iştirakı neft-qaz sektorunda hiss edilir. Bununla əlaqədar hazırda qeyri-qənaətbəxş hesab edilən iqtisadiyyatın digər sahələrində də əlaqələri yaxşılaşdırmaq və inkişaf etdirmək lazımdır. Bütövlükdə yapon tərəfinin qeyd etdiyi bir sıra problemlərin olmasına baxmayaraq, Azəbaycan və Yaponiya arasında əməkdaşlıq surət götürməkdədir.

Qeyd etmək lazımdır ki, elə bu gün də bir çox xarici investorlarm, o cümlədən yaponların Azərbaycan iqtisadiyatının açıqlığına dair fikirləri tamamilə təqdirə layiqdir. Misal üçün, göstərilən problemlər vergi-gömrük kodekslərində faktiki olaraq öz əksini tapan vergi ödənişinin şəffaflığında özündə bürüzə verir. 2-ci proqram əsasında həyata keçirilən özəlləşmə isə, Azərbaycanm bütün dünyada qəbul edilmiş prinsip və formalara keçməsini sübut edir. Proqramın uğurla reallaşması o halda mümkündür ki, dövlət idarəetmə sistemi iqtisadi islahatlardan geri qalmasın.

Bütövlükdə hökumətin tərəfindən həyata keçirilən islahatlar yapon investorlanmn ciddi marağına səbəb olmuşdur. ikinci Azərbaycan-Yaponiya müşavirəsində yapon şirkətlərinin nəzərinə Sumqayıt boru prokat zavodu. Şəki ipək kombinatı, Bakı məişət kondisionerləri zavodu İdmi «köhnəlmiş» müəssisələr təklif edilmişdir. Kondisionelər zavodu bir vaxtlar Azərbaycanm ən iri sənaye obyektlərindən biri hesab edlirdi və yapon şirkətləri tərəfindən tikilmişdi. Yapon investisiyalanmn sayəsində yeni texnikaların tətbiq edilərək müəssisənin mo

dernləşdirilməsi istehsal edilmiş məhsulların Orta Asiya və Zaqafqaziya ölkələrində satışı üçün böyük perspektivlər açır.

Bundan başqa, yapon tərəfdaşların nəzərinə dağ metallurgiya müəssisələri, emal sahələri və maşınqayırma kompleksi təqdim edilmişdir.

Azərbaycamn inkişafında aqrosənaye kompleksinin böyk əhəmiyyəti vardır. Burada üzümçülük və şərab emalı, pambığın istehsalı və emalı, tərəvəzçilik və ət-süd sektorlan, emal, qablaşdırma, kənd təsərrüfatı məhsullarının saxlanması və s. daxil olmaqla praktik olaraq bütün sahələr cəlbedici və perspektivli ola bilər.

Yaddan çıxarmaq lazım deyil ki, aqrokompleksin inkişafı və mövcudluğu həm melliorasiya, həm de mineral kübrələrin istehsalı ile sıx əlaqədardır. Bir çox hallarda superfosfat istehsal etmək imka^arma malik olan müəssisə xammalın olmaması səbəbindən işləmir. Digər kübrə- lerin istehsalında da vəziyyət bunun kimidir.

Bununla əlaqədar olaraq Banqladeş Respublikasında tətbiq edilmiş yapon təcrübəsidən Azərbaycan da istifadə etməUdir, Banqladeş Cənub-Şərgi Asiyada böyük təbii qaz ehtiyatlanna malikdir və yapon şirkətləri ammiak l^brələrinin istehsalı üzrə zavodlarm tikİQtisində iştirak etmişdilər.

Bütövlükdə qeyd etmək lazımdır ki, aqrosənayeyə və ona bitişik sferalara qoyulmuş sərmayələrin rentabelliyi, yapon investisiyalannm cəlb edilməsi üçün başlıca səbəb ola bilər.

Əməkdaşlıq haqqında mümkün razılaşmalarm belə sahə istiqamətləri: müəllif tərəfindən təsadüfi verilmir. Bu bütövlükdə xarici ı şirkətlərə, o cümlədən yapon tərəfinə iqtisadiyyatın bütün sahələrinin inkişafımn sürətlənməsi üçün, müxtəlif formalarda xarici investisiyaların və yerli sərmayələrin. ;cəlb edilməsində Azərbaycan hökumətinin mövqeyini nümayiş etdirməkdir.

# Fəsil III. Azərbaycan-Yaponiya iqtisadi və texniki əməkdaşlığı

## 3.1. Azərbaycanın işgüzar tərəfdaşı - Yaponiya

Azərbaycanın iqtisadi ve işgüzar tərəfdaşı olan Yaponiya Asiyasının və Afrikanın inkişaf etməkdə olan ölkələri ilə əməkdaşlıqda böyük təcrübə toplamış, sənayesi inkişaf etmiş bir ölkədir. İkinci dünya müharibəsindən sonra Yaponiyanın hökuməti və transmilli korporasiyalan dünya iqtisadiyyatında yeni şəraiti və qüvvələr nisbətini nəzərə almaqla özlərinin xarici siyasətini qurdular. Yaponiya Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələri ilə özünün spesifik münasibətlər sistemini qurmuş, Sovet İttifaqı dağıldıqdan sonra isə iqtisadi keçid ölkələri ilə yeni münasibətlər yaratmışdır. Bu planda Azərbaycan zəngin təbii-xammal ehtiyatlanna malik bir ölkə kimi MDB ölkələri arasında həlledici yerlərdən birini tutur.

Yaponiya da öz növbəsində, iqtisadi qüdrəti artmaqda olan Azərbaycanı özünün siyasi mövqeyinə uyğunlaşdırmağa can ataraq, Azərbaycanın konkret daxili və xarici siyasətinin istiqamətlərini müəyyən etməklə, Azerbaycana xas olan strategiya və taktikanı seçir. Yapon təsərrüfat strukturu, onun xarici ticarətdən asılılığı, idxal hesabına sənayesinin yüksək inkişafını təmin etmək zərurəti (neft, qaz, əlvan metal və s.) Azərbaycanla iqtisadi əməkdaşlıq etmək zərurətini yaradır. Bununla əlaqədar yapon hökuməti və transmilli korporasiyalan Azərbaycan bazarlarında ABŞ, İngiltərə, Almaniya, İtaliya, Türkiyə və s.

kimi ölkələrlə rəqabətə girərək, Azərbaycanda yeni iqtisadi diplomatiya formasını işJəyir və tətbiq edir.

Azərbaycan hökuməti də Yaponiyanın inkişaf etməkdə olan ölkələrlə böyük təcrübəsini nəzərə alaraq, Yaponiya ilə iqtisadi və texniki əməkdaşlığın münasib formalarını axtanr. Bununla əlaqədar olaraq Yaponiya ilə yeni əməkdaşlığın formalaşması müasir mərhələdə xüsusi aktuallıq kəsb edir.

Yaponiya iqtisadi qüdrətinə görə dünyada üçüncü hesab edilir. Dünya ümumdaxili məhsulunun (ÜDM) 7 % - ə yaxım onun payma düşür. Bu onun əhalisinin sayma görə (126 mln. nəfər) deyil, yüksək inkişaf səviyyəsi ilə izah edilir. 2000-ci ildə Yaponiyada adambaşına düşən ÜDM (yenin dollara nisbətində alıcılıq qabiliyyəti paritetləri üzrə) 23400 dollar təşkil etmiş və Yaponiya bu göstərici üzrə yalnız İsveçrə, ABŞ, Lüksemburq, Sinqapur və Norveçdən geri qalmışdır.’

Yaponiyada sahibkarlığmın təşkil edilməsinin xüsusiyyəti korporativ fəaliyyətin yüksək forması hesab edilir və bu təcrübədən korporativ inişafm başlanğıc mərhələsində yer tutmuş Azərbaycan istifadə edə bilər. Yaponiyada səhmdar cəmiyyətlərin ümumi sayı 800 mindən artıqdır, o cümlədən 2,4 min şirkət öz səhmlərini dünyamn fond birjalarmda katirovkalaşdırır.

Ən iri korporativ yapon şirkətləri arasmda texnoloji əsaslarla həm şaquli inteqrasiya edən şirkətlər mövcuddur. Maşınqayırma sahəsində, həm də konqlomerat formasında üfiqi inteqrasiyaları «Mitsibusi dzyukoqe», «Kamatsu», elektrotexnika sahəsində «Xitati», «Toshiba», «Soni», avtomobil sahəsində «Toyota», «Nissan» kimi ən

**' А.С. Булатов "Мировая экономика". М., 2001.**

iri korporasiyalann xaricdə 300-400 filiallan vardır. Onlar az və ya çox dərəcədə daimi ixracatçıçılar və sifarişlərin icraçılan rolunu yerinə yetirirlər və mülkiyyət münasibətlərində əsas şirkətlə əlaqəsi olmayan subpodratçılann şəbəkələrini tamamlayırlar. Bu qruplardan bir çoxu xaricdə inkişaf etmiş şəbəkələrə malik və Yaponiyada əsas mərkəzə malik yapon TMK hesab edilirlər.

Yapon korporasiyalannm maliyyə strukturu şirkətin xüsusi kapitalmm aşağı payı ilə (30 % - dən az) və bank kreditlərindən yüksək səviyyədə asılılığı ilə xarakterizə edilir. İkinci dünya müharibəsindən sonra yalnız banklar ölkələrin sənayelərinin sürətli inkişafını maliyyələşdirməyə görə məsuliyyət daşıyırdılar və bu da Azərbaycan sənayesinin inkişafı üçün faydalı təcrübə ola bilər.

Yaponiyada «Tokio-Mitsubusi», «Sumitomo», «Fud-zi», «Asaxi» və s. kimi müxtəlif ölkələrdə öz filiallarını açmaq hüququna malik 9 iri kommersiya bankı vardır. Yalnız öz prefekturalarında şöbələrə malik olan 129 regional banklar da fəaliyyət göstərir. 13 bank dövlətə məxsusdur: ixrac-idxal bankı, yaponiya inkişaf bankı, yaşayış binalarınm tikintisi üçün maliyyə korporasiyası, xarici iqtisadi əməkdaşlıq fondu (OESF), xarici ticarətin inkişafı üzrə yapon təşkilatı (Djetro) və s.

«İqtisadi-möcüzəyə» toxunaraq qeyd etmək lazımdır ki, müharibədən sonrakı Yaponiyamn iqtisadi artım tempi 50-i ilərdə böyük əhəmiyyət kəsb edərək (UDM- nin orta illik artımı 14,9 % təşkil etmişdir) uzunmüddətli azalan trendi göstərmişdir: 60-cı illərdə - 11,3 %; 70-ci illərdə - 4,5 %; 80-cı illərdə - 3,8 %; 90-cı illərdə - 1,8 azal-

**' Булатов А.С.Мировая экономика, М.,200I г, səh.500;Ç.M.Abbasov "Пакистано-Японские отношения, 1950-1970", М, 1975.**

maqla olan artım tempinin arxasmda Yaponiyanm iqtisadi inkişaf mərhələlərinin əvəzlənməsi durur. İqtisadçı yaponşunasiar aşağıdakı mərhələləri ayırırlar: müharibədən sonrakı ilk illərin islahatlan (1946-1952-ci illər), yüksək templər dövrü (1955-1973-cü illər), xammal, yanacaq resurslarının qiymətinin artımına, iqtisadiyyatın beynəlmiləlloşdirilməsinə (1974-1989-cu illər) və 90-cı illərin struktur böhramna adaptasiya dövrü.

İkinci dünya münaribəsindən sonra Yaponiya ölkədə dərin institutsional islahatlar seriyasmı həyata keçirdi. Bu islahatlar olmadan Yaponiyanın «İqtisadi möcüzəsi» baş tuta bilməzdi. Elə həmin dövrdə Yaponiya daha inkişaf etmiş ölkələrdən texniki cəhətcə geriliyini dəf etdi və xammal-yanacaq resurslarmm kütləvi emalı, hazır məhsullarm kütləvi şəkildə standartlara uyğun buraxılışı üzrə texnologiyalara yiyələndi. 60-cı illərdə hərbi müəssisələrin və yeni sənaye tikintilərinin bazası əsasında elektrik məişət cihazları və radioqəbuledicilər istehsal- lan yaradıldı. Avtomobil, neflkimya, sintetik liflər və qət- ran, elektronika və s. istehsallan da müharibədən sonrakı illərdə yaradılmışdır. *

Yaponiyanın sahə strukturlarmın yenidən qurulmasının başlıca istiqamətləri yeni texnika əsasında sənayenin emal sahələrinin universal yığımımn yaradılması idi. Belə istiqamətlər aşağıdakı amillərin diktəsi ilə müəyyən edilirdi: ucuz, yaxşı öyrədilmiş və mobil işçi qüvvəsi; özünün, xammal və yanacağmın olması; yeni texnologiyaların əldə edilən olması; sərmayə qoyulması üçün maliyyələş-

**‘ Аббасов Ч.М. Пакистано-Японские отношения, 1950-1970, М, 1975, soh.9^.**

mənin kifayət qədər daxili yığım mənbələrinin və mexanizminin olması.

70-ci ilərdə Yaponiya sənayesi daha çox elm sahələrinə yönəlməyə başladı. Onun lideri isə elektron maşınqayırma və müasir rabitə vasitələri istehsalı oldu. Onların inkişafımn formalaşması üçün yüksək texnologiyalar sahəsində iri firmalar tərəfindən yerinə yetirilən elmi-tədqiqat işlərinə maliyyə və təşkilatı yardım göstərilməsi üçün silsilə dövlət proqramlan heyata keçirildi.

Bütövlükdə, yapon hökuməti tərəfindən dəqiq islahatların həyata keçirilməsi sayəsində Yaponiya «İqtisadi möcüzəsinə» nail olundu.

Dünya ticarət dövriyyəsində Yaponiyanın payı 7,3 % təşkil edir. Dünya qızıl valyuta ehtiyatlannın 12,8%-i Yaponiyaya məxsusdur.

Dünya ticarətinə ölkələrin cəlb edilməsi dərəcəsi haqqında söz açdıqda onlarm iqtisadiyyatlannm ixrac və idxal kvotalanna görə mühakimə edirlər. 2001-ci ildə Yaponiyanm ixrac kvotası ÜDM-in 10,5 %, son daxili istehlakda isə idxalın ildə ABŞ kimi ölkənin xarici ticarət kvotasına yaxın idi YUNKTAD-m məlumatına görə 90-cı illərin sonlannda Yaponiyanm xaricdəki birbaişa investisiyalarının həcmi 285 mlrd, dollar təşkil etmişdir. 126 mln.nəfərin yaşadığı Yaponiya əhalisinin sayma görə dünyada 7-ci yeri tutur 0997-ci ildə əhalinin siyahıya aimmasma görə). Ərazinin əksər hissəsi dağlarla əhatə olunduğundan və torpaqdan istifadə edilməsi çətinləşdiyindən, əhali praktik olaraq ərazinin 10 % - dən də az hissəsində yaşayır. Ona görə də Yaponiya əhalinin ən çox sıx yaşadığı ölkədir. Bir kvadrat kilometrə orta hesabla 327 nəfər düşür.

Yaponiyanın prezidenti yoxdur, lakin demokratik quruluşlu inkişaf etmiş ölkələrdə olduğu kimi, milli hökumətin ali orqanı 2 palatadan ibarət olan parlament hesab edilir. Hökumətin başçısı və baş nazir öz üzvlərindən ibarət olan parlament tərəfindən seçilir. Baş nazir parlamentdə əksəriyyət təşkil edən partiyamn lideridir. Baş nazir qanunvericilik layihələrini parlament sessiyasına nəzərdən keçirilmək üçün təqdim edir, ölkənin daxili və xarici siyasəti haqqmda məruzə edir, hökumət rəhbərlərinin fəaliyyətinə görə cavab verir.

Milli hökumət bütün Yaponiyaya aid olan məsələlərə görə cavab verir. Ancaq ölkə 47 prefektura bölünmüşdür və onlardan hər biri kəndləri və şəhərləri idarə edən öz hökumətlərinə malikdir. Lakin Yaponiya çoxəsrlik monarxiya təmayüllüdür və həm də dünyada ən qədim ölkə hesab edilir.

İndiki imperator taxta 1989-cu ildə çıxımşdır. 1947-ci ildə müasir konstitusiya qəbul ediləndən sonra Yaponiyanın həyatında imperatorun rolu siyasi deyil, simvolik xarakter daşıyır. Yaponlar bütün dünya ölkələri ilə, o cümlədən Azərbaycanla dostluq münasibətləri qurmağa can atırlar. Azərbaycan və Yaponiya arasında iqtisadi, mədəni əlaqələr qurulur və inkişaf edir. Müxtəlif istiqamətlər üzrə nümayəndələr mübadilə aparırlar (iqtisadiyyat, mədəniyət, idman, sərgilərin təşkili, mütəxəssislərin hazırlanması və s.). Yaponiyamn strukturu və məşğulluq növləri Azerbaycan iqtisadiyyatmm inkişafının gələcək modeli ola bilər.

Yaponiyada məşğulluğu 3 tipə bölmək olar: birincisi (kənd təsərrüfatı və balıqçılıq), ikincisi (istehsal), üçüncüsü (xidmət, ticarət və xidmət sferası). Yaponiyada məşğulluğun bu tip təsərrüfatlar üzrə nisbəti təqribən 1:3:6-

dır. Azərbaycanda bu münasibətlər təqribən 3:4:6-dır. Yaponiyada ərazinin yalnız 11 %-i kənd təsərrüfatı üçün yararlıdır. Eyni zamanda Azerbaycan 11 iqlim zonalanndan 9-na və dünyada iri toıpaq-kənd təsərrüfatı məkanma malikdir.

Yaponiya hidravlik, atom, günəş və istilik stansiyalarının köməyəi İlə müəyyən miqdarda enerji hasil edir. Yaponiyanın texniki nailiyyətləri və təcrübəsi Azərbaycanın iqlim xüsusiyyətlərini nəzərə almaqla onun energetika po- tensialımn inkişafı üçün olduqca faydalı ola bilər.

Bütün dünyada Yaponiya xammal idxalına görə hazır məhsulun ixracı ile ödənişləri heyata keçirir. Azərbaycan neftinə görə isə Yaponiya Bakı-Tbilisi-Ceyhan neft kəmərləri üçün boru, texnika və diger avadanlıqlar göndərir.

Yaponiya ada dövləti olduğundan onu okean və dənizlər əhatə edir. Burada balıqçılıq sahəsi geniş inkişaf etmişdir onlann bu təcrübəsi və Azerbaycanm balıqçılıq sənayesinin və idxalımn inkişafı üçün faydalı ola bilər. Baxmayaraq ki, Yaponiyada balıqçılıq sahəsi inkişaf etmişdir və hər il ölkədə istehsala edilən balığın 10 % idxal etməyə məcburdur.

Yaponiyada velosipeddən başlamış ən sürətli qatarla-radək təsəvvür ediləcək dərəcədə istənilən nəqliyyat növləri mövcuddur. Bu planda Bakı şəhərinin yol sistemlərinin yenidən qurulması üzrə yapon təcrübəsi vaxtında və yerinə düşmüş hesab edilə bilər.

Bütövlükdə Yaponiyanın təbii resurslardan açıldığı (neft, qaz, filiz və s.) Azərbaycan-Yaponiya əməkdaşlığının inkişaf perspektivləri üçün böyük ümidlər verir.

## 3.2. Azərbaycan-Yaponiya iqtisadi əməkdaşlığı

Müasir mərhələdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf strategiyasında Yaponiya vacib yer tutur.

Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan iqtisadi islahatları həyata keçirmək üçün bir sıra beynəlxalq təşkilatlardan və donor-ölkələrdən təmənnasız yardımlar almağa başladı. Bununla belə, ABŞ, İngiltərə və Türkiyə kimi donor-ölkələr üçün Azərbaycan bazarında öz mövqelərini möhkəmlətmək və Azərbaycan hökumətinin etibarını qazanmaq nəsib oldu.

Yaponiya hökuməti artıq 90-cı illərin ortalarından başlayaraq bir qədər gecikməklə Azərbaycanm xammal resurslarına yapon şirkətlərinin əllərinin çatmasını təmin edən və yapon əmtəələrinin satışımn əlverişli tranzit bazanna çevirən daha möhkəm mövqelər qazanmaq məqsədi ilə münasib əməkdaşlıq formaları axtarmaq məcburiyyətində qaldı.

Azərbaycan Avropa, Yaxm Şərq, Mərkəzi və Cənub Şərqi Asiyanın ən iri satış bazarlannm kəsişdiyi yerdə yerləşdiyindən, böyük İpək Yolu, «TRASEKA» və «FİBER», Azərbaycandan keçməklə Şanxay-Franfiırt na Maynı birləşdirən Trans-Asiya-Avropa optik kabel marşrutları üzrə yükdaşmmalarmm təmin edilməsində aparıcı yeri tutduğundan Yaponiya şirkətləri üçün böyük marağa səbəb olmuşdur.

Yaponiya tərəfdən öz təkliflərini «Sumitomo korporeyşn» təqdim etmişdir. TAE layihəsi üzrə iddiaya «Simens» (Almaniya), «Alkatel-telekom» (Fransa) kimi dünya miqyaslı şirkətlərlə yanaşı Danimarkanın və İranın böyük telekommunikasiya şirkətləri də qoşuldular.

26 fevral 1998-ci ildə Yaponiya Azərbaycanla iqtisadi əməkdaşlığın əsasını qoydu. Həmin tarixdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ve Yaponiyanın baş naziri Ryuntaro Xaşimito «Azərbaycan Respublikası ilə Yaponiya arasmda ticarət və iqtisadi sahələrdə əməkdaşlıq haqqında birgə bəyannamə» imzaladılar.

Birgə bəyannamənin bazası əsasında Yapon-Azərbaycan və Azərbaycan-Yapon komissiyalan yaradıldı. Onların məqsədi Azerbaycan və Yaponiya dövlətləri və xüsusi təşkilatlan arasında iqtisadi əlaqələrin qurulması və inkişaf etdirilməsinə dövlət yardımlarının göstərilməsidir.

Qeyd etmək lazımdır ki, Azəbaycan hökuməti milli iqtisadiyyatm mövcud vəziyyətini və onun inkişaf pespektivlərini qiymətləndirərək, bu iqtisadi komissiyaların yaradılmasmı alqışladı. Əməkdaşlığın ilk nəticəsi kimi Yaponiya hökuməti ilə birgə işlənmiş Azərbaycana iqtisadi və texniki yardım Proqramım aid etmək olar.

Bu zaman dövlətin və Yaponiya transmilli korporasiyalarının əsas, deklarasiya edilmiş məqsədləri Azərbaycanla əməkdaşlıq sahələrində hər iki tərəf üçün əlverişli ticarətin və yardımlar şəkilində borcların, kommersiya kreditlərinin və qrantlann təqdim edilməsidir. Hökumət və yapon şirkətləri Azərbaycan sənayesinin inkişaf kursunu və bununla əlaqədar bütövlükdə Azərbaycanın iqtisadiyyatı üçün, o cümlədən neftqaz sənayesinin inkişafına, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft kəmərlərinin tikintisinə lazım olan sənaye avadanlıqlarına və texnikaya artan tələbatı nəzərə alırlar.

Bununla əlaqədar yapon hökuməti milli iqtisadiyyatm strukturlanmn modernləşməsi, buraxılan məhsulların unifıkasiyası, onlann keyfiyyətinin yaxşılaşdırılması işində yardım edilməsi haqqında təşəbbüslə çıxış edərək, təklif

lərlə Azerbaycan hökumətinin qarşısına çıxır. Buna misal kimi 70-ci illərin sonlarmda yapon şirkətləri tərəlındən tikilmiş, mənəvi cəhətcə köhnəlmiş Bakı kondisionerlər zavodunu göstermək olar. Belə vəziyyət «Çinar» soyuducular zavodunda da müşahidə edilir. Yaponiya məqsədyönlü şəkildə özünün sənaye avadanlıqlaımı, yeni texnologiyasını və uzunmüddətli istifadə üçün nəzərdə tutulmuş əmtəələri satm almaqdan ötrü yeni kreditlərini və bordan təqdim edir. Yeni kreditləri və borcları başqa inkişaf etmiş ölkələrin bordan ilə müqayisədə faizlərinin və ixrac etdikləri avadanlıqların (yüksək keyfiyyətli) dəyərlərinin aşağı olması səbəbindən daha yaxşı reallaşa bilir. Azərbaycana yapon yardımlannm və yena kreditlərinin verilməsindən qısa müddət keçməsinə baxmayaraq, bütün bunlar ölkə iqtisadiyyatma böyük töhvə və ümumdünya daxili məhsullarma əlaqə kimi qiymətləndirilir. Belə ki, iqtisadi keçid dövrü yaşamış bütün ölkələr üçün maliyyə yardımlannm göstərilməsi onlann maliyyə resurslanmn tamamlanmasında başlıca mənbələrdən biridir. Bu planda Azərbaycanda istisnalıq təşkil etmir. Y aponiyanm təmənnasız yardımlanndan fərqli olaraq, Amerika və İngiltərə şirkətləri birbaşa və portfel investisiyalanm heyata keçirmək üçün kommersiya əsasmda borclar və kreditlər təqdim etməyi münasib bilirlər.

Yapon vəsaitlərinin uğurlu surətdə reallaşması ona gətirdi ki, Azərbaycan hökuməti sahə təyinatı yapon kreditlərinə və borclanna üstünlük verdilər və bu da kənd təsərrüfatında və sənayedə kiçik və orta müəssisələrə yardıma təkan oldu.

1997- ci ilin aprelində Yaponiyanın səfiri cənab Toke- xiro Toqonun Azərbaycana ilk səfəri zamam 300 mln yen

dəyərində (2,5 mln. dollar) Yaponiyadan mini dəyirmanın, cəm istehsalı üçün avadanlıqların, səki plitələrinin istehsalı üçün avadanlıqlann alınması və 350 mln.yen (3 mln. dollar) məbləğində azərbaycan fermerlərinə verilmək üçün 15 kombayn, 25 traktor, 25 toxumsəpən maşının yapon hökuməti tərəfindən qrant kimi təqdim edilməsinə dair tərəflər nota mübadiləsi apardılar. Eyni zamanda Yaponiya Fiziatriya İnstitutunun müasir avadanlıqlarla təchiz edilməsi üçün Azərbaycana 2 mln.dollar humanitar yardım təqdim etdi.

1998- cı ilin fevralında yapon hökuməti 25 kombayn, 13 traktor və 13 toxumsepmə maşınların alınması üçün nəzərdə tutulan 400 mln.yen (3,5 mln. ABŞ dollar) məbləğdə kənd təsərrüfatı texnikalarının alınmasına qrantlar ayırdı.

Bütövlükdə yapon hökuməti qrantlar təqdim edir, borc və kreditlərin buraxılmasını sanksiyalaşdınr, texniki yardımlar göstərir və bütün bunlar Azərbaycana xüsusi kapitalların da daxil olmasına təsir edərək, onlarm Azərbaycan müəssisələrində səhmçi kimi iştiraklarım təmin edir. Qeyd etmək lazımdır ki, Azərbaycan bazarlannda hətta öz tərəfdaşları ilə, xüsusilə ABŞ, İngiltərə, Almaniya, Rusiya ilə qaçılmaz kəskin münasibətlər yarandıqda belə, yaponlar geri çəkilmirlər. Misal üçün 2003-cü ilin aprelində Rusiyanın «Lukoyl» neft şirkəti keçirilən tender nəticəsində Azəri-Çıraq-Günəşli azərbaycan neft yatağının mənimsənilməsi üzrə layihədən 10 % payını 1,354 mlrd. ABŞ dollarına Yaponiyanın «İnpex Soutvest Caspian Sea» şirkətinə satdı. Layihə üzrə məhsulların bölüşdürülməsi haqqmda razılaşmaya uyğun olaraq, satılan pay 10 % təşkil edirdi. Tenderdə 4 şirkət iddialı idi: britaniyanın BP, norveçin Statoil, Fransa-Belçikanın Total və Trao.

Tenderin yekununda Yaponiyanın «İnpex» şirkəti qalib gəldik

Başqa bir misal kimi Qafqaz üzrə alman eksperti, Bonn və Myünster universitetlərinin privat-dosenti Yeva Mariya Auxun Azərbaycan bazanna alman şirkətlərinin ləngiməsi, prioritetlərinin üst-üstə düşməməsi haqqında kəşfini göstərmək olar.

Yeva Mariya Aux demişdir: «Avropa Qafqazda zəif oyunçudur» (o ilk növbədə Almaniyam nəzərdə tuturdu, qeyd müəllifindir). Alman iqtisadiyyatmm zəif iştiak etdiyi Bakı-Ceyhan neft kəmərlərinin tikintisini yada salmaq kifayətdir. ABŞ-dan və Yaponiyadan çoxmiliyonlu investisiyalar fondunda Almaniya hələ ümid edir ki, inkişaf etmiş infrastrukturlar kimi sahələrdə daha iri sifarişlər əldə edə biləcək.

KFW bankınm və ya texniki əməkdaşlıq alman cəmiyyətinin (GTZ) ayn-ayn layihələri nə qədər uğurlu olsalar da belə, nə Avropa İllifaqı, nə də Almaniya regionda əhəmiyyəti "oyunçular" hesab edilmirlər (Zaqafqaziyada, BTC tikintisi ile əlaqədar nəzərdə tutulur, qeyd müəllifindir^). Yeva Mariya Aux diqqəti Azərbaycan bazarında gec peyda olan, lakin Azərbaycanda kifayət qədər əminliklə möhkəmlənən yapon şirkətlərinə yönəldir.

Bütövlükdə, xanım Y.Auxun fikirləri ilə razılaşmaq olar. Yaponiya işgüzar dairələrinin xammal və energetika resurslanna maksimal dərəcədə yiyələnməyə can atması əlbəttə ki, onların ilk növbədə iqtisadiyyatın aşağıdakı əsas sahələrinin inkişafına maraq göstərilməsində özünü bürüzə verir: neft energetikası, kimya sənayesi, gəmiqa-

**' «Новое время» 3-4 aprel 2004.**

**^ Германия на Кавказе. "Новое время", 23 aprel 2004.**

yırma, metallurgiya, kənd təsərrüfatı, balıqçılıq və balıq təsərrüfatı. Bu işdə yapon şirkətlərinə yapon hökuməti yardım edir.

Yapon şirkətləri üçün Azərbaycanın iqtisadiyyatında həlledici rolu neft sənayesi oynayır.

12 dekabr 1994-cü ildə imzalanmış razılaşmamn bazası əsasında «Azəri-Cıraq-Günəşli» neftqaz resurslarınm mənimsənilməsi müqaviləsində «ttocu» yapon konsersu- mu 3,9 % payla iştirak edir: «Əşrəfi Dan Ulduzu» (razılaşma 14 dekabr 1996-ci ildə imzalamb) müqaviləsində «İtocu» konsersumu-20 %; «Kürdaşlı» müqaviləsində «Missuri korporeyşn» - yapon şirkəti-15 % payla ; «Yanan Tova» müqaviləsində «Capeks», «İmpeks»-12,5 % «İtoçu»-7,5 %, «Qaykoku»-7,5 % payla iştirak edirlər. Yapon şirkətləri 50 % ümumi payla həm də «Kürdaşı», «Atəşgah» və «Muğan-Dəniz» perspektivli strukturların işlənməsi və pay bölgüsü üzrə razılaşmalarda iştirak edirlər.'

«Nicimen korporeyşn» və «Cnoda korporeyşn» yapon şirkətləri tərəfindən Azərbaycan Respublikasımn Dövlət neft şirkəti üçün istehsal birliklərində (İB) texnoloji qurğuların modemləşdirilməsinin baş planı işlənmişdir ki, bunun sayəsində ARDNŞ dünya bazarma çıxacaq rəqabətə davamlı məhsullarm istehsalmı təmin edə bilər.

Dünyada məşhur olan Yaponiyamn transmilli korporasiyalan Azərbaycanın kimya sənayesinin inkişafına birbaşa maraq göstərir. Onların yüksək maraqlan bununla izah edilir ki, birinci, kimya sənayesinin inkişafmm əsasını Azərbaycan zəngin olan təbii neft-qaz sərvətləri

**’ Число нефтяных котрактов достигло одинадцати. "Зеркало", №22, июнь 1998 п Правительство Азербайджана признало рсалности национальной э1сономики. "Банки и бизнес”. 4 ноября 2000г.**

təşkil edir, ikincisi isə Azərbaycanın müasir kimya və neft,kimya sənayeləri istehsalın, məhsulların və onların əldə edilməsi metodlarının çoxlu sayda müxtəlifliyi ilə təqdim olunur. Bununla əlaqədar yapon tərəfi belə hesab edir ki, bu sahəyə yapon texnologiyaları və kifayət qədər investisiya qoyularsa, həmin sahələr maddi cəhətcə tutumlu, yüksəkmənfəətli olar və onun məhsullan yaxm perspektivdə Yaponiya tərəfindən idxal edilə bilər. Azərbaycana gəldikdə isə kimya və neftkimya sənayelərinin inkişafı texniki tərəqqinin sonrakı inkişafı üçün əmək məhsuldarlığmın yüksəldilməsi və yalnız əhalinin geniş istehlak əmtəələrinə artmaqda olan tələbatını tam təmin etməklə deyil, həm də iqtisadiyyatın ixrac potensialmm yüksəldilməsi üçün əsas şərt hesab edilir.

Respublikanın kimya və neftkimya sənayeləri özünün spesifik xüsusiyyətlərinə görə əsasən Sumqayıt şəhərində formalaşmışdır. Onun inkişafınm əsası Bakı şəhərinin neftqaçıxarma və neftemal sənayelərinin resursları sayəsində qoyulmuşdur. Sumqayıt neftkimya kompleksində əsas istehsal fondlarmın 85 % yaxım cəmləşmişdir və «Azərkimya» dövlət konsernində birləşən müəssisələr sahələrin əmtəə mehsullarınm ümumi həcminin 80 % - dən çoxunu emal edirlər. Sahələrdə aşağıda göstərilən vacib məhsullar emal edilir: yüksəktəzyiqli polietilen, koustik soda, sulfanol məhlulu, alkilbenzol, sintetik yuyucu vasitələr, kükürd turşusu, fosfat kürələri, kauçuklar və lateks- lər, avtomotoşinlər, transporter lentləri, yastı və pazabən- zər remenlər, bir istiqamətli lifli şüşələr və şüşə parçalar, «Ç» markalı kristal yod və yodlu kalium, hazır dərman vasitələri, ampulalarda dərmanlar, sarğı vasitələri və s.

1998- ci ilin fevralmda Azərbaycan Respublikasınm prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri zamanı ilk dəfə olaraq yapon şirkətlərinin diqqəti Azərbay- canm kimya sənayesinin inkişafına yönəldildi. Həmin dövrdə

məti arasmda Sumqayıt yüksək təzyiqli buxar generatoru qurğusunun və «Etilen-propilen» zavodunda elektroenerji istehsalımn tikintilərinin maliyyələşməsi haqqında razılaşma imzalandı. **EP-300** q zavodunun yenidən qurulması üçün **3** il müddətinə 2,5 % illik güzəştlə **13** il müddətinə **9,150** mlrd, yen və ya 80 mln. ABŞ dolları məbləğində kredit aynidı. Burada layihə doyəri-86,5 mln. ABŞ dolları təşkil edir.

**EP-300** zavodunun yenidən qurulması «Niçimen Korporeyşn» və «Çieda Korporeyşn» yapon korporasiyaları tərəfindən həyata keçirilir.

Hazırda «Azərkimya» Dövlət şirkəti yapon şirkətləri **ilə** **3** istiqamətdə birgə iş aparır: «Nisşo-İvai korporeyşn» **və** «Cİ-CI-Sİ» yapon şirkətlərinin iştirak etdikləri polipropıien, kaustik soda istehsalı və «Etilen-propilen» zavodunun yenidən qurulması.

Heydər Əliyevin Yaponiyaya səfəri zamanı «Mitsui-xMitsubishi Heavy Industries» konsorsiumu ilə «Şimab> HES-in birinci fazasının yenidən qurulmasına dair dəyəri 165 mln. ABŞ dolları təşkil edən razılaşma da imzalanmışdır. «Şimal» HES-in ikinci fazasının yenidən qurulmasının dəyəri 160 mln. ABŞ dollan təşkil edir. 150 mvt gücə malik «Şimal» HES-in ümumi layihə dəyəri 325 mln. ABŞ dollan təşkil edir. Bu layihənin tam maliyyələşdirilməsini Yaponiyanın Beynəbcalq İqtisadi əməkdaşlıq fondu öz üzərinə götürmüşdür. Həmin Fond 10 illik güzəştli müddətlə 0,75% 40 il müddətinə kredit təqdim etmişdir. «Şimal» HES-in yenidən qurulmasma 1998-ci ilin dekabrında başlanımş və 2002-ci ildə tamamlanmışdu.

Bu layihədə həm də Qaradağ - «Şimal» HES qaz kəmərinin tikintisi də nəzərdə tutulmuşdur. Eyni zamanda, yapon konsorsiumu «Mitsui Co LTD» «Azəreneıji»nin rəhbərliyi ilə respublikanın 8 elektrostansiyasının və 5 hidroelektrostansiyasının maliyyələşdirilməsi üzrə danışıqlar aparır.

Məlum olduğu kimi Azərbaycan məhdud həcmdə su resurslarma malikdir. Ölkənin il ərzində əldə etdiyi sularm 70%-ə yaxını başlanğıcım respublikadan kənarda götürür. Eyni zamanda kənd təsərrüfatı respublikanm makroiqtisadiyyatmda ən vacib sahələrdəndir. Bununla əlaqədar Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Yaponiya Fondu 3 mərhələdə Azərbaycanda su resurslarmm inkişafında Baş sxemlərin tədqiqinin və işlənməsinin həyata keçirilməsinə başladılar. Layihənin ümumi dəyəri 300 mln. dollardır. Yaponiya şirkəti «Mitsui Co LTD» Azərbaycan hökumətindən su resurslarmm inkişafının «İkinci sxemləri» layihəsində iştirak etmək üçün razılıq aldı. Bundan başqa ölkənin şimal regionlannm sənaye müəssisələrini və kənd təsərrüfatım, Abşeron yanmadasmı, Bakı və Sumqayıtın yaşayış məntəqələrini həm içməli, həm suvarma, həm də texniki sularla təmin edən Samur-Abşeron suvarma sistemlərinin yenidən qurulması layihəsinin vacibliyini nəzərə alaraq Azərbaycan hökuməti yapon şirkətlərinə hökumət zəmanəti verməyə hazır olduğunu bildirir. Layihənin ümumi dəyəri 820 mln.dollardır‘.

Qeyd etmək lazımdır ki, Azərbaycan hökuməti tərəfindən dövlət zəmanəti milli maraqlar baxımından vacib layihələrə verilir. Bunlara daxildir: iqtisadiyyatın infrastruJkturlarma, səhiyyə, ekologiyaya və Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş «1998-2003-cü illər üçün orta müddətli investisiya proqramlanna» uyğun sahələr. Bu proqram ümumi dəyəri 2219,5 mln. ABŞ dolları təşkil edən 49 investisiya layihəsini əhatə edir və onun gerçəkləşməsində Yaponiya hökuməti və şirkətləri iştirak edir.

Maliyyələşdirmək üçün fəaliyyətdə olan 38 layihədən (6 layihədə yapon şirkətləri iştirak edir) 735,8 mln. ABŞ

**' Правительство A3q)6a4ZPKaHa признало реальности национальной отрасли «Банки и бизнес», 4 noyabr 2000.**

dolları məbləğində (və ya 54,1 %) olan 10 layihə respublikanın yanacaq-energetika komplekslərinin yenidənqurma layihələrini təşkil edir (bax, cədvəl 1). Xarici sərmayələrin iştirakı ilə qalan layihələr iqtisadiyyatın aşağıdakı sahələri üzrə bölüşdürülür:

| | | |
|---|---|---|
| **Nəqliyyat** | **- 9 layihə** | **233.4 mln.dollar məbləğində** |
| **Kimya kompleksi** | **- 2 layihə** | **224.5 mln.dollar məbləğində** |
| **Kənd təsərrüfatı və meliorasiya** | **5 layihə** | **82.3 mln.dollar məbləğində** |
| **Kommunal təsərrüfat** | **1 layihə** | **84.0 mln.dollar məbləğində** |
| **Səhiyyə** | **- 2 layihə** | **49.0 mln.dollar məbləğində** |
| **Mədəniyyət** | **1 layihə** | 7.5 **mln.dollar məbləğində** |
| **Yeyinti sənayesi** | **- 1 layihə** | **12.5 mln.dollar məbləğində** |
| **Ekologiya** | **- 4 layihə** | **20.0 mln dollar məbləğində** |
| **İşğal edilmiş ərazilərin bərpası** | **1 layihə** | **20.4 mln.dollar məbləğində** |
| **Təhsil** | **I layihə** | **5.0 mln.dollar məbləğində** |

*Cədvəl L*

1998-2003-cü illər üçün xarici investorlar tərəfindən maliyyələşdirilən orta müddətli proqram layihələri

| N? | Layihənin adı | Maliyyələşmə mənbələri | Layihənin ! məbləği 1 (mln.ABŞ dolları) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | Pilot fermer təsərnifatlarınm yaradılması üzrə layihələrin tətbiqi mərkəzi | Omumdünya Bankı (BİA)‘ | 23,3 |
| 2 | Baş Mil-Muğan kollektoru | İslam İnkişaf Bankı | 9,6 |
| 3 | Qaz sistemlərinin bərpası | Omumdünya Bankı (BİA) | 20,2 |
| 4 | Mingəçevir energetika layihəsi | Avropa inkişaf və yenidənqurma Bankı və İslam inkişaf Bankı | 34,2 |
| 5 | Yenikənd energetika layihəsi | Avropa İnkişaf və Yenidənqurma Bankı (AİYB) | 53,2 |
| 6 | Ələt-Qazıməmməd yollarmm yenidən qurulması | İslam və Küveyt bankları | 30,5 |
| 7 | «Azəravtonəqliyyab> dövlət konserni^ -106 yeni «Mersedes Bens» 0403 avtobuslannm alınması; 50 yeni yük avtoqatarlannm alınması | Eksimbank Yaponiya | 25.0<br>10,4 |
| 8 | Binə Bakı Hava Limanında Aerovağzal kompleksi | Türkiyə Eksimbankı; Britaniya Banklar qrupu | 44,1 |
| 9 | «Şimal» lEES-in yenidən qurulmzısı | Yapon Beynəlxalq iqtisadi əməkdaşlıq Fondu | 170,0 |

' Beзməlxalq inkişaf Assosiasiyası
’ Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyində yaradılmışdır.

**Codvəl İ-in ardi-**

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 10 | Tosərrüfat layihəsinin digər layonlarda yayılması (fermer təsərrüfatının kreditləşmosi) | Umumdünya Bankı (BJA) | 30,0 |
| 11 | Kənd rayonlarının inkişaf layihəsi | İslam inkişaf Bankı | 9,6 |
| 12 | Samur-Abşeron suvarma sistemlərinin yenidənqurulması, Xanlar kanalının tikintisi | İslam İnkişaf Bankı | 9.8 |
| 13 | Bakı şəhərində Binə hava limanına təxirəsalınmaz yardım (1-ci faza) | Almaniya kredit- maliyyə bankı | 7,0 |
| 14 | Bakı şəhərində Binə hava limanına təxirəsalınmaz yardım (2-ci faza) | Almaniya kredit- maliyyə bankı | 10,0 |
| 15 | Aeronaviqasiya sistemi | Avropa İnkişaf və Yenidənqurma Bakı (AİYB) | 13,7 |
| 16 | J3öyük Bakı su təchizatı sistemlərinin yenidənqurulması | (Jmumdünya Bankı- 61 mln. dollar. AİYB-23 mln. dollar. | 84,0 |
| 17 | Azad edilmiş ərazilərin bərpası və yenidənqurulması- nm layihəsi | Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) | 20,0 |
| 18 | Yüksəktəzyiqli buxar generatoru qurğusunun və «Etilen-propilen» zavodunda clektıoeneıji istehsalının tikintisi | Yaponiyanın: «Eksimbank» - 85%; «Niçimen» şirkəti- 15% | 86,5 |
| 19 | Bakı şəhəri bölüşdürücü energetika şəbəkələrinin yenidənqurulması və modernləşdiıməsi | Almaniya Kredit maliyyə Bankı | 18,0 |
| 20 | Qaztrubin qurğularının tikilməsi yolu ilə Bakı İBS-İ- in yenidənqurulması | Almaniya Bankı | 56,5 |
| 21 | Abşeronda neftlə çirklənmiş torpaq lann təmizlənməsi | Ümumdünya Bankı | 9,4 |
| 22 1 t 1 ____ | Tullantılardan civənin ayniraası, zərərli tullantıların bastırılması | | 4,6 |

**Cədvəl 1-in ardı.**

| ] | 2 | 3 | 4 |
|---|---|---|---|
| 23 | Neftçala şəhorində ağ balıq balıqayıncı zavodun tikintisi | | 5,0 |
| 24 | Ətraf mühitin idarəetmə sistemlərinin institusional raöhkəmlondirilmosi və monitorinq | | 1,0 |
| 25 | Tarixi və mədəni abidələrin bərpası | | 7,5 |
| 26 | Təhsil islahatian layihəsi | – | 5,0 |
| 27 | Qarabağ-«Şimal» HES qaz kəmərinin tikintisi | «Mitsui» Yaponiya | 120,0 |
| 28 | Beynəlxalq dəniz limanının yenidən qurulması və inkişafı | Avropa inkişaf və yenidənqurma Bankı (AİYB) | 30,0 |
| 29 | Qazıməmmod-Kürdəmir yolunun yenidənqurulması | | 60,0 |
| 30 | «Sintczkauçuk» zavodunda polipropilen istehsalı | «Teknimont» şirkəti | 138,0 |
| 31 | Donor qanı üçün bankların yaradılması | «Buinq» fransız furması | 14,9 |
| 32 | «Bahar» yatağında kompressor stansiyası | Yaponiya şirkətləri; «İtoçu», «Niçmen» | 80,0 |
| 33 | «Neft daşlarında» qaztrubin elektrostansiyası | Yapon şirkətləri: «İtoçu», «Niçmen» | 54,0 |
| 34 | Sumqayıt İES-1 -in yenidənqurulması | Almaniya şirkəti «Siemens» | 130,0 |
| 35 | Uşaq qidaları fabriki | İslam inkişaf Bankı | 12,5 |
| 36 | Sərnişin vaqonlanmn təmiri üzrə Bakı hərbi deposunun yenidənqurulması | Avropa inkişaf və yenidənqurma Bankı (AİYB) | 10,0 |
| 37 | Bakı-Gəncə-Böyük Kəsik demir yol xəttinin yeidonqurulması | AİYB, Qrant «TRASEKA» | 28,1 |
| 38 | Bakı şəhərində elmi- tədqiqat ofloltnologiya institutunun yeni kompleksinin tikintisi | Transiz firması «Buinq» | 35,0 |

«1998-2003-cü illər üçün orta müddətli dövlət proqrami»nda yapon hökuməti və şirkətləri 5 layihəyə investisiya qoymuşlar.

Bu gün Yaponiya Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə kompleks yanaşmanı həyata keçirir. Bu yanaşmanın xüsusiyyəti yapon hökumətini ayırdığı qrantlarda özünü daha qabarıq biruzə verir. 2,4 mlrd, yen (20 mln ABŞ dolları) məbləğində aynimış qrantın 1,5 mlrd, yen (13,5 mln ABŞ dolları) Respublika Kənd Təsərrüfatı Nazirliyi üçün ayrılaraq, Yaponiyadan 319 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 86 ədəd taxılsəpən maşm, 72 ədəd traktor və s. texnikalarm gətirilməsinə sərf edilmişdir. Eyni zamanda kənd təsərrüfatımn istehsal sektorunda yapon hökumətinin köməyi ilə 200 iş yeri açılmış və kənd təsərrüfatı məhsullannın yığımında 2000-dən çox ailə çalışmışlar.

Bundan başqa, yapon hökuməti Azərbaycana 300 mln.yen (2,7 mln. ABŞ dollar) məbləğində «Layihəsiz qrant» təqdim etmişdir. Onun köməyi ilə 5 layihə gerçəkləşdirilmişdir. Plastik qapı və pəncərələr istehsal edən Naxçıvan zavodu; 30 qramlıq şüşə taralan istehsal edən Keşlə zavodu və yeni model soyuducularm yaradılması üzrə ixtisaslaşan Bakı «Çinar» zavodu bu qəbildəndir.

1999- cu ildə Yaponiya hökuməti 5 № li Bakı doğum evinə, 2№-li Bakı uşaq xəstəxanasına 507 mln.yen (4,8 mln. ABŞ dollar) məbləğində, 49,3 mln. yen (450 min. ABŞ dollar) məbləğində idman kompleksinin inkişafına, 2001-ci ildə isə şəhərin magistral yollanmn yenidən qurulmasına 5 mln. ABŞ dolları məbləğində qrantlar təqdim etmişdir.

Azərbaycan və Yaponiya arasında ticarət mübadiləsinin inkişafının ümumi yekunlanm xarakterizə edən statistik məlumatların təhlili göstərir ki, Azərbaycan-Yaponiya

ticarət strukturundakı fəaliyyət göstərən başlıca tendensiyalar, Azərbaycanın digər inkişaf etmiş Avropa ölkələri ile xarici ticarətin inkişafmdakı tendensiyalarla eynidir. Azərbaycan bazarmda Yaponiya ixracatçıları öz mövqelərini möhkəmlətmək üçün yalnız ilk addımlanm atırlar və bu səbəbdən ümumi xarici ticarət dövriyyəsində onların payı hələlik azlıq təşkil edir.

Bütövlükdə 1994-2003-cü illərdə Azərbaycanın Yaponiya ilə xarici ticarət dövriyyəsi 12,6 mln. ABŞ dollar, 2003-cü üdə isə Azərbaycamn xarici ticarət dövriyyesin- dəki payı 2,6 % təşkil etmişdir. Azərbaycanm Yaponiyadan etdiyi idxal-istehsal-texniki təyinatlı məhsullar- dır:borular, maşın və avadanlıqlar, ehtiyat hissələri, radio və televizorlar üçün aparatlar, kinotexnika və elektrotexniki sənaye məhsulları.

Azərbaycan-Yaponiya iqtisadi-ticarət münasibətlərinin inkişafı gələcəkdə Yaponiya investisiyalanmn, yeni texnika və texnologiyalannm Azərbaycana axmasına təkan verməklə yanaşı, həm də aqrar-sənaye kompleksinin, yüngül, neft-kimya sənayelərinin, maşınqayırma müəssisələrinin, metallurgiyanm və s. sahələrin modernləşməsinə gətirib çıxara bilər.

### 3.3. Yaponiya ilə texniki əməkdaşlığın xüsusiyyətləri və əsas istiqamətləri

Texniki yardım formasında kapital ixracı yapon hökuməti və transmilli korporasiyalar üçün xüsusi əhəmiyyət kəsb edir. Yaponiya və bütövlükdə sənayesi inkişaf etmiş ölkələr iqtisadi geriliyi aradan qaldırmaq, elmi-texniki in- qilablarm müasir prosesləri ilə ünsiyyətdə olmaq üçün gənc müstəqil dövlətlərə qayğı göstərir və bu yolla başlı

ca problem olan iqtisadi müstəqilliyə nail olmaq məsələlərini uğurla həll etməyə çalışırlar. Ancaq texniki yardımların alınması milli respublikalar tərəfindən donor-ölkələrin cəlb edilməsi üçün xüsusi təqdimlərlə müşayət edilir.

O cümlədən Azərbaycan təbii sərvətlərinin və yeni sənaye sahələrinin istismannda bilavasitə iştirak etmək üçün öz bazarlarında güzəştli yollar açır.

Digər tərəfdən, Azərbaycan texniki yardımlara xüsusilə maraqlıdır. Ona görə ki, iqtisadi geriliyi tez zamanda aradan qaldırmaq üçün bunun yeganə ciddi çıxış yolu olduğunu düşünür. Respublikanın yeni bazar münasibətlərinə keçməsi şəraitində köhnə təşkilati struktur, köhnəlmiş texnologiya və konsepsiyalar müasir tələblərə cavab vermir. Bunun nəticəsində, iqtisadiyyatın bütün sektorlarında, xüsusilə makroiqtisadi sahələrdə və idarəetmədə dərin radikal iqtisadi yenidənqurma və islahatlann apanlma- sında, əmək və iqtisadi potensialın səfərbər edilməsində beynəlxalq texniki yardımlara kəskin zərurət yaranır.

Bununla əlaqədar respublikanın investisiya siyasəti problemləri arasında müxtəlif beynəlxalq təşkilatlardan, donor ölkələrdən texniki yardım xətti ilə vəsaitlərin alınması hökumətin proqramlannda təsbit olunur. Münasib ölkələr sırasında Cənub-Şərqi Asiyanın inkişaf etməkdə olan ölkələri ilə texniki əməkdaşlıqda böyük təcrübəyə malik olan Yaponiya seçilir. Yaponiya ilə əməkdaşlıqda son illərin təcrübəsi belə zərurət yaradır ki, bazar münasibətlərinin formalaşması şəraitində iqtisadi islahatlann aparılmasını daha da sürətləndirməyə imkan verən texniki yardımların alınması üçün Azərbaycan yeni perspektivli proqram hazırlamalıdır. Azərbaycan texniki yardımları beynəlxalq əməkdaşlıq Yapon Agentliyinin (JICA) təsiri ilə yapon konsaltinq şirkətlərindən alır. Yaponiya ilə yanaşı Azərbaycan texniki yardım sahəsində BMT-in inkişaf Proqramı üzrə Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam İnkişaf Bankı, TACIS Proqramı üzrə Avropa İttifaqı

komissiyası, TİKA (Türkiyə), Avropa İnkişaf və Yenidənqunna Bankı, texniki əməkdaşlıq Alman Cəmiyyəti (GTZ), İngiltərənin transmilli korporasiyaları və s. ölkələrlə qurumlarla sıx əməkdaşlıq edir. Texniki yardım təqdim etmiş əksər donor ölkələrin Azərbaycanda nümayəndəlikləri vardır.

Yaponiyanın, beynəlxalq təşkilatların və digər donor ölkələrin göstərdikləri texniki yardımları, Azərbaycan müxtəlif formalarda alır: Öncədən müəyyən edilmiş məqsədlərə uyğun istifadə edilən borclar: kreditlər və qrantlar şəkilində. Texniki yardımlarla əlaqədar şərtlər hər bir konkret hal üçün danışıqlarla razılaşdırılır. Bundan başqa, bu və ya digər donor tərəfdən irəli sürülən və məcburi xarakter daşıyan xüsusi şərtlər də mövcuddur.

Belə ki, Yaponiya hökuməti tərəfindən maliyyələşdirilən, «inkişafa rəsmi texniki yardım» yapon proqramları eqidası altında Azərbaycan mütəxəssisləri 1994-2001-cı illərdə (50 nəfərdən çox) Tokio; Sapporo və Kioto şəhərlərində müəssisənin idarə edilməsi, makroiqtisadiyyat, siyasət və səhiyyə sahələrində təlim məşğələləri keçmişlər.

Həmin proqrama uyğun olaraq, yapon hökumətinin təklifi ilə Azərbaycan mütəxəssisləri aşağıdakı tematikalarda təhsillərini davam etdirirlər: müəssisənin idarə edilməsi; makroiqtisadiyyat; bazar iqtisadiyyatı şəraitində dövlət siyasəti; gömrük siyasəti; fiskal siyasət və s.

Azərbaycan mütəxəssisləri digər donor ölkələrin proqramları üzrə də hazırlanırlar. Azərbaycan mütəxəssisləri aşağıdakı tədbirlərdə ya iştirak etmiş ya da təhsillərini davam etdirirlər:

- kooperasiyalar üzrə Türkiyə Agentliyinin maliyyələşdirdiyi «Təhlil və layihələrin qiyməti» seminarında, Ankara şəhəri;

- Avstraliya hökuməti tərəfindən həyata keçirilən, «Bazarın idarə edilməsi və maliyyə menecmenti» mövzusu üzrə təlim məşğələsi;
- İslam İnkişaf Bankı tərəfindən maliyyələşən və Türkiyənin iqtisadi mərkəzlərində keçirilən, statistika, büdcə siyasəti və layihələrin təhlili sahələrinə dair seminarlarda;
- «Xarici investisiyalann təhlili və cəlb edilməsi» mövzusuna dair Britaniya hökuməti tərəfindən təşkil edilmiş kurslarda;
- BMT-in İnkişaf Proqramı tərəfindən maliyyələşdirilən və Türkiyədə keçirilən sığorta, sement istehsalı və statistika üçotu sahələrində təlim məşğələləri.

Avropa İttifaqının Texniki Yardım Proqramına (TACİS) uyğun oiraq, keçmiş Xalq Təsərrüfatının idarəedilməsi İnstitutunda (Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində) iqtisadiyyatın müxtəlif sahələri üçün mütəxəssislərin hazırlanması üzrə Dövlət İdarəetmə ali məktəbi təşkil edildi, menecerlər, pedaqoqlar, elmi-əməkdaşlar, iş istehsalçıları, rabitə üzrə ekspertlər, dünya standartlanna səviyyəsində məktəblər üçün tədris proqramları tərtib etməyi bacaranlar və s. sahə üzrə 26 mütəxəssis hazırlandı. Elə orada da kadrlann hazırlanması, kursların keçirilməsi, tədris materiallarının buraxılışı, elmi-tədqiqatlar, seminar və disskusiyalar, Avropa İttifaqı ölkələrinə tədris səfərləri təşkil edildi. TACİS proqramlan çərçivəsində «Bankakademiya» alman firması tərəfindən bank qulluqçularmm hazırlanması üzrə kurslar aparılmışdır. TACİS proqramı üzrə uzunmüddətli perspektivdə idarəetmə potensialının gücləndirilməsi üçün, Azərbaycanda iqtisadi inkişaf prosesinə uyğunlaşa bilən və bazar iqtisadiyyatının tələblərinə cavab verə bilən layihə nəzərdən keçirilmişdir. Layihə həm dövlətin (hazırlıq və yenidenhazır- hq Dövlət İqtisad Universitetində həyata keçiriləcək), həm də xüsusi sektorun (təhsil və yenidən hazırlıq Qərb

Universitetində həyata keçiriləcək) inkişafına təsir göstərəcək.

Qeyd etmək lazımdır ki, TAÇİS proqrammın əhatə etdiyi praktik olaraq iqtisadiyyatın bütün sektorlannda (energetika, nəqliyyat, kommunikasiyalar, kənd təsərrüfatı, statistika, gömrük və s.) layihə büdcəsinin 10%-ə yaxını avdanlıqlara və müxtəlif formalarda mütəxəssislərin təhsil alınası üçün nəzərdə tutulmuşdur (seminarlar, kurslar, o cümlədən dillərin öyrənilməsi və s.). Layihənin özünün gerçəkləşməsinə xərclər 80-90 % təşkil edir və bu da texniki yardım alanlann narazılığına səbəb olur.

Azərbaycanda mütəxəssislərin hazırlanması proqramında İngiltərənin transmilli neft korporasiyası BP də iştirak edir. Onun köməyi ilə Sanqaçal terminalı ərazisində BP və onun tərəfdaşlannm layihələri çərçivəsində tikilmiş Xəzər texniki hazırlıq mərkəzi açılmışdır. Burada məqsəd layihələrin həyata keçirilməsində fəalliyyət göstərən milli kadrlann texniki və peşəkarlıqlarının təkmil- ləşdirilməsini təmin etməkdən ibarətdir. *

Tikintisi 12 mln. ABŞ dollara başa gəlmiş, 24 tədris otağmdan ibarət olan mərkəz il ərzində 400 əməliyyatçı və qazma işçilərinin hazırlanmasım təmin edə bilər. Bunun üçün mərkəzdə dispetçerlə qazmanı öyrədən model sənayesində geniş istifadə edilən, xüsusi avadanlıqlarla təchiz edilmiş sex və s. vardır.

Mərkəzə texniki hazırhq və tədris üzrə ixtisaslaşmış TTE-Retrofac şirkəti rəhbərlik edir. Əməliyyatlar üzrə direktor Endi Bakuortun qeyd etdiyi kimi, BP ilə əməkdaşlıqda şirkət mütəxəssislərin hazırlanmasmm təmin edilməsinə hazırdır və yaxın 3 il ərzində mərkəz BP-in layihələri üçün 1000 nəfər texniki mütəxəssislər hazırlayacaq.

**1 *Xəzər* texniki hazırlıq mərkəzi. «Эхо», 20 may 2004r.**

Azərbaycanda iqtisadi islahatlar prosesində texniki yardımlar yalnız mütəxəssislərin hazırlanması üçün deyil, həm də iqtisadiyyatın inkişaf istiqamətləri üzrə də obyektiv zərurət yaradır: Bu layihələrə aşağıdakılar daxildir: Bakı şəhərinin elektrik enerjilərinin paylanması sisteminin yenidən qurulması, paytaxtm ekoloji monitorinqinin aparılması, şəhərin nəqliyyat sistemlərinin yaxşılaşdırılması, rəqəmli kartlann yaradılması (bunun sayəsində texniki yardım olmaqdadır). Bundan başqa, Yaponiyanın Xarici ticarət və Sənaye Nazirliyinin Fondunun iştirakı ilə Qaradağ Qaz emalı Zavodunun yenidənqurulması, kaustik soda istehsalı üzrə zavodun tikintisi, dəniz neft yataqlarında qazma şlemlərinin təmizlənməsi layihələri üzrə texniki-iqtisadi əsaslarının (TEO) işlənməsinə başlanmışdır.*

Azərbaycan iqtisadiyyatm inkişaf etdirilməsi məqsədi ilə qrantlar formasında texniki yardımları digər sənayecə inkişaf etmiş dövlətlərdən, o cümlədən ABŞ-dan da alır. Belə ki, ABŞ Ticarət və İnkişaf Agentliyi ilə (Trade Deveorment Agency USA) Azərbaycan hökuməti arasında 1,91 mln. ABŞ dollan məbləğində Azərbaycan Dövlət Neft Fondunun institusional inkişafmm təkmilləşdirilməsi üçün qrant razılaşması imzalanmışdır. Qrant valyuta ehtiyatlarınm və risk qiymətlərinin fonda yerləşdirilməsinin təkmilləşdirilməsinə, həm do xarici menecerlərin və onların fəaliyyətlərinin monitorinqinin seçim kriteriyalannın müəyyən edilməsinə, aktivlərin qeydə alınması və uçotunun proqramlı təminatının alınmasına istifadə ediləcək.

Texniki yardımlar həm də beynəlxalq standartlar və qarşılıqlı hesabatlann təmin edilməsi, əməkdaşların peşə hazırlıqlarının yüksəldilməsi üzrə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) struktur bölmələrinin öhdəliklərinin məhdudlaşmasına istiqamətləndiriləcək.

**’ Правительство Азербайджана признало реальности национальной экономики. «Банки и Бизнес» 4 ноября 2000г**

cək. Razılaşma imzalanan zaman ABŞ-in Azərbaycandakı səfiri Rino Hamiş qeyd etmişdir ki, ABŞ Azərbaycanın iqtisadi inkişafınm möhkəmlənməsində maraqlıdır və bu məqsədlə hər il maliyyə yardımlarının həcminin (2004-cü ildə bu yardım 73 mln. ABŞ dolları təşkil etmişdir) artırılması planlaşdırılır. Bilavasitə TDA-nin (Trade Develop- ment Agency) yardımlanna gəldikdə isə, səfir Azərbaycanda turizmin inkişafı üzrə master-planın işlənməsinə 0,3 mln. ABŞ dollar ayrılması haqqında razılaşmanı xatırlatdı. O əmin olduğunu bildirdi ki, yaxın gələcəkdə ölkənin Ümumdünya ticarət təşkilatına daxil olunmasına hazırlıqda Azərbaycanın İqtisadi inkişaf Nazirliyinə TDA-ın texniki yardım göstərməsi haqqmda danışıqlara nail olu- nacaqdır‘.

Yapon hökumətinin texniki yardımlannm xüsusiyyəti ondan ibarətdir ki, o mövcud sosial-iqtisadi probleınlərin həllinə yönəldilmişdir. Yaponiya ilə genişmiqyaslı əməkdaşlıq bir sıra JBİC qrantlan çərçivəsində həyata keçirilir və aşağıdakı sferalara istiqamətləndirilir: səhiyyə, idman, sənaye və kənd təsərrüfat məhsullarmm emalına yönəldilir. 1998-2000-ci illərdə həmin vəsait sayəsində Azərbaycana 1,130 mlrd, yen dəyərində kənd təsərrüfatı texnikası gətirilmişdir. Yenə də həmin məqsədlə Yaponiya 380 mln. yen həcmində daha bir qrant aynlmışdu:.^ Beləliklə texniki yardun layihələri iqtisadiyyatm müxtəlif sahələrində Azərbaycan-yapon dövlətlərarası iqtisadi tərəfdaşhğmda ilk addımlar oldu. Yerli bazarda məqsədyönlü və təmənnasız texniki yardımlarla həm də TACİS proqranu üzrə Avropa İttifaqı, islam inkişaf Bankı və TİKA (Türkiyə) çıxış edirlər.

**’ Грантовое соглашение *между* ТДА и нефтяном фондом Азербайджана. **Зркало", 20 мая 2004 г.**

**“ Правительство Аз^[)байджаяа тфизнало реальности национальной экономики «Банки и Бизнес», 4 ноября 2001 г.**

İsİam inkişaf bankı bir neçə obyktlerin ilkin sənedləşdiriİməsini, qaçqınların yerləşdirilməsi layihələrinin işlənməsinə qrant timsalında 3,0 mln. ABŞ dolları ayırdı. Avropa İttifaqının TACİS proqramı üzrə respublika iqtisadiyyatı qrant şəkilində 7 mln. ABŞ dollan əldə etdi və hazırda Azərbaycana daha 23 mln. ABŞ dolları təqdim edilməsi məsələsi nəzərdən keçirilir.

Texniki yardım çərçivəsində bütün borc və qrantlar üçün başlıca problem ondan ibarətdir ki, donor-ölkələr tərəfindən ayrılmış vəsaitlərin 80-90 %-i beynəlxalq məsləhətçilərin cəlb edilməsinə yönəldilir. Kadrların yenidən hazırlanmasına və avadanlıqlann əldə edilməsinə yalnız 10-20 % aynlır.

Bununla əlaqədar Azərbaycan hökuməti daima donor ölkələrin diqqətinə bu münasibətlərə yenidən baxılması imkanlanm çatdıraraq, respublikanın müasir kompyuter texnikası, kommunikasiya sistemləri ilə təchiz edilməsinə, texniki kadrların hazırlanmasına daha çox diqqət yetirilməsini xahiş edir.

Bütövlükdə Yaponiyanın Azərbaycana göstərdiyi texniki yardımlann həcmini digər donor-ölkələrlə və beynəlxalq təşkilatlarla müqayisə etməklə müəyyən etmək olar.

1 yanvar 2003-cü il tarixində olan məlumata görə Azərbaycan iqtsadiyyatının müxtəlif sahə seqmentləri üçün Yaponiya 86,5 mln. ABŞ dollar məbləğində texniki yardım təqdim etmişdir. Azərbaycanda fəaliyyət göstərən donorlar sırasında Dünya Bankını qeyd etmək lazımdır. Dünya Bankı xətti ilə ümumi dəyəri 157,4 mln. ABŞ dolları olan 16 layihə maliyyələşdirilir. Bu vəsaitlərdən 24,7 mln. ABŞ dolları (o cümlədən 1,6 mln. ABŞ dollar təmənnasız) respublikanın müxtəlif nazirlik və idarələrinə verilir. Neft sənayesinə Texniki Yardım (20,8 mln. ABŞ dollar), Bakı şəhərinin təchizatı (1 mln. ABŞ dollan), nəqliyyat missiyalı sistemlərin və qazın paylanması (0,8 mln. ABŞ dollan) layihələri daha iri həcmli hesab edilir.

İsİam İnkişaf Bankı və Küveyt Fondu tərəfindən göstərilən təmənnasız texniki yardımların ümumi həcmi 2,5 mln. ABŞ dollar təşkil edir və iqtisşdiyyatm müxtəlif sahələri üçün texniki-iqtsadi əsaslandırılmış inevstisiya layihələrinin işlənməsinə yönəldilmişdir. Bununla yanaşı islam İnkişaf bankı Azərbaycana N^l-Muğan kollektorunun yenidənqurulması layihəsi üçün 0,7 mln. ABŞ dollan məbləğində texniki yardım təqdim etmişdir. İslam İnkişaf Bankı və Küveyt Fondu ile əməkdaşlıq tamamilə məqbuldur və texniki yardım formasında təmənnasız vəsaitlərin cəlb edilməsi Azərbaycanda iqtisadi islahatların uğurla həyata keçirilməsində və bazar münasibətlərinin bərqərar olmasında böyük rol oynayır.

Azərbaycan Avropa inkişaf və Yenidənqurma Ban-kmdan daha sərt şərtlərlə texniki yardım alır. Yenikənd HES-in tikinti layihəsinin maliyyələşdirilməsi üçün 53,4 mln. ABŞ dollan məbləğində kredit razılaşması imzalanmışdır. Bu layihənin tərkibinə 2 mln. ABŞ dollar məbləğində texniki yardım da nəzərdə tutulmuşdur.

Digər donor ölkələrin fəaliyyəti müqayisə edildikdə az miqyaslıdır və əsasən Azərbaycana kadrlarm hazırlanması və yenidən hazırlanması sahələrində yardımlarla nəzərə çarpır, bununla müxtəlif seminarlamn, kursların, tanışlıq səfərlərinin və Azərbaycana qısa müddətə məsləhətçi misalında yüksək ixtisaslı mütəxəssislərin göndərilməsi və s. təşkil edilməsi yolu ilə həyata keçirilir. Eyni zamanda bu yardımların xüsusi əhəmiyyətini nəzərə almaqla Azərbaycan bütün donor ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlığ genişləndirməyə can atır. Belə ki, «İqtisadi gerilik zonası»ndan çıxmağm yeganə yolu səna- yeləşdirmə kursunun götürülməsidir.

## Nəticə

Sovet İttifaqı dağıldığı andan ve bazar iqtisadiyyatına transformasiya dövrünün Azərbaycan iqtisadiyyatının müasir vəziyyətinin və inkişaf perspektivlərinin tədqiqi və təhlili göstərir ki, on illərlə mövcud olmuş təsərrüfatm plan-direktiv mexanizmlərinin tədricən bazar iqtisadi sisteminə iqtisadi islahatlar yolu ilə keçirilməsini təmin etmək kimi vacib məqsədləri qarşısına qoymuş hökumət təsnifatlı prioritetlər əsasında xarici iqtisadi siyasətin cari və perspektiv məsələlərini müəyyən etdi. Onlara bunlar daxildir:

- demokratik prinsiplər əsasında qanunvericilik bazalarının təkmilləşdirilməsi-demokratik və bazar yenidənqurmasının, xüsusi mülkiyyətin və investorlar üçün ölkənin açıqlıq legitimliyini möhkəmləndirən suveren Azərbaycamn konstitusiyası;
- əhəmiyyətli təbii-iqtisadi resurslarm fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb edilməsi üçün qüvvələrin səfərbər edilməsi, o cümlədən Xəzər şelfinin karbohidrat ehtiyatlan daxil olmaqla böyük enegi resursların; geosiyasi potensial, o cümlədən ölkənin tranzit-kommunikasiyası imkanları; xüsusi mülkiyyətə verilmiş torpaq resursları; insan potensialının fəallaşması və s;
- iqtisadi mexanizmlərin tamqiymətli bazar mühitinin yaradılmasına yönəldilməsi;
- xüsusi və qarışıq mülkiyyətin inkişafı; maliyyə-bank sistemlərinin yenidənqurulması;
- iqtisadiyyatı idarəetmənin dövlət sistemlərinin yenidənqurulması yolu ilə iqtisadi fəaliyyətə dövlət müdaxiləsinin məhdudlaşdırılması, bu sistemlərin daha effektiv idarəetmə formasma yönəldilməsi;

- dövlətsizləşdirmə, torpaq islahatı və özəlləşdirmə yolu ilə iqtisadiyyatda dövlət sektorunun payımn azaldılması;
- ölkənin açıqlığının və onun dünya təsərrüfat sisteminə səmərəli surətdə daxil olmasının təmin edilməsi. Ölkədə normal investisiya mühitinin yaradılması və tekmilləşdilməsi, ölkənin beynəlxalq təşkilatlarla və donor ölkələrlə qarşılıqlı əlaqələrinin daha da fəallaşması nəzərdə tutulur.

İqtisadiyyatın idarəetmə mexanizminin təkmilləşdirilməsi və dövlətin makroiqtisadi siyasətinin işlənməsi, həmçinin milli büdcə, bank işi, pul siyasəti, statistika sferalarında islahatların davam etdirilməsi, Azərbaycan iqtisadiyyatına beynəlxalq iqtisadi və maliyyə təşkilatları, donor ölkələr tərəfindən texniki yardımlann davam etdirilməsi zərurətini şərtləndirir və bu istiqamətdə yapon hökumətinə həlledici yerlərdən biri ayrılır.

İnflyasiyam müəyyən edən səbəblərdən biri hesab edilən valyuta resurslan inkişaf etməkdə olan ölkələrdə olduğu kimi beynəlxalq təşkilatlarm və donor ölkələrin texniki yardımlan sonrakı ödəmələr planında gərək çətinliklər yaratmasın.

Azərbaycan beynəlxalq təşkilatlardan, donor ölkələrdən, o cümlədən yapon hökumətindən qrant şəkilində texniki yardımlar alır. Harada ki, bunun mümkünlüyü təsəvvür edilmir, onda borclarla örtülən texniki yardımlann dəyər qiymətinə diqqət yetirmək lazımdır. Bununla yanaşı, respublika mümkün qədər aşağı faizlə kreditlərin alınmasına nail olmalıdır. Vacib olanlardan biri də odur ki, Azərbaycana texniki yardımlar göstərən beynəlxalq təşki- latlann və donor ölkələrin diqqətləri ona cəlb edilsin ki, layihələrin maksimal effektliyinin təmin edilməsi üçün, texniki yardımlar bir dəfə göndərilməklə, onlann təlcrar- lanmasına ehtiyac qalmasın və ya digər müxtəlif donor təşkilatlar tərəfindən bu yerinə yetirilməsin.

Beynəlxalq təşkilatlar və donor ölkələr tərəfindən təqdim edilən texniki yardımlar respublika iqtisadiyyatının mərhələli inkişafına məqsədyönlü şəkildə təsir göstərməlidir, o cümlədən:

- həm yeni istehsal güclərinin, həm də mövcud dövlət iqtisadi strukturlarında islahatların yaradılması üçün prioritet investisiya layihələrinin müəyyən edilməsi;
- dövlət büdcə siyasətində, statistik hesabatlarda, xəzinə sistemində islahatlara və maliyyə menecmentinin inteqrasiya edilmiş sistemlərinin yaradılmasına təsir göstermək, maliyyə sektorunun tam kompyüterləşməsinə nail olmaq;
- vergi siyasəti, büdcə, toxunulmaz əmlaka yiyələnmək, özəl sektorun stimullaşdırılması, xarici sərmayənin cəlb edilməsi, özəlləşdirmə və s. kimi sahələrdə Ölkəni və onun iqtisadiyyatını bazar münasibətlərinin dayanıqlı inkişafına yönəltmək məqsədi ilə hökumət tərəfindən yeni qanunlar və normativ aktların işlənməsinə və tətbiq edilməsinə təsir göstərmək;
- təhsil, səhiyyə, energetika, nəqliyyat, telekommuni kasiya, kənd təsərrüfatı və ətraf mühit sahələrində apancı beynəlxalq ekspertlər tərəfindən məsləhətlərin alınmasına təsir etmək; ■
- milli strategiyaların müəyyən edilməsinə tösir göstərmək, ölkə iqtisadiyyatının bütün sahələri üzrə tədqiqatlar aparmaq;
- bir sıra prioritet istiqamətli obyektlərin texniki-iqtisadi əsaslandıılmış tikintisinin və yenidən qurulma- sımn işlənməsinə, həmçinin respublika iqtisadi zo- nalarmın inkişaf proqramlanmn işlənməsi və həyata keçirilməsinə təsir göstərmək;
- sosial siyasətin, o cümlədən məşğulluq, maarif, əmək haqqı sistemlərinin təkmilləşdirilməsi proq-

ramlannin işlənməsinin həyata keçirilməsinə təsir göstərmək;

- infrastrukturların, ekologiyanın və ətraf mühitin mühafizəsi proqramlannın işlənməsinə təsir etmək.

Mütəxəssislərin hazırlanması və yenidən hazırlanma-smda donor-ölkələr tərəfindən Azerbaycana texniki yardım edilməsi proqramına Yaponiya hölоıməti böyük əhəmiyyət verir. "Beynəlxalq əməkdaşlıq" yapon Agentliyi tərəfindən (JİCA) hazırlanmış təhsil proqramı vasitəsi ilə Azərbaycan sənayecə inkişaf etmiş Yaponiyamn böyük təcrübələrindən məqsədyönlü və effektiv surətdə istifadə edərək, Azərbaycanda bazar münasibətlərinin formalaş- masma və inkişafına qiymətsiz töhfələr bəxş edir. JİCA proqramları çərçivəsində hazırlanmış mütəxəssislərdən istifadə istiqamətlərində bu təcrübəni daha da təkmilləşdirmək lazımdır. Bunun üçün isə, JİCA-da hazırlanmış mütəxəssislərin klubunu yaratmaq məqsədəuyğundur.

Belə klubun yaradılmasım zaman və Yaponiya-Azərbaycan qarşılıqlı maraqlan diktə edir. Bakı da yaradılacaq STCA mütəxəssislər klubu milli kadrlarm hazırlanmasında və yenidən hazırlanmasmda böyük kömək göstərməklə onların gələcəkdə peşəkarlıqlanmn artmasına, alınmış biliklərin respublikada yayılmasına və onlardan istifadə edilməsinə imkan verəcəkdir. Bundan başqa, Azərbaycan bazarında yapon şirkətlərinə kömək göstərmək məqsədi ilə klub öz mütəxəssislərini cəlb edə bilər, həmçinin yapon məsləhətçilərinin köməyi ile kurs və seminarlar təşkil etməklə tədrisin səviyyəsinin yüksəlməsinə nail olunar.

Respublikada belə mütəxəssislər klubu iqtisadiyyatın müxtəlif sahələrində mütəxəssislərin hazırlanmasında və seçim proqramlarının yerinə yetirilməsi sahəsində hökumətimizə böyük kömək göstərə bilər.

## Bölmə II. Dünya iqtisadiyyatına inteqrasiya prosessində Azərbaycanın iqtisadi resurslarının rolu

Milli iqtisadiyyatın və dünya təsərrüfatının tünksiyalaşması iqtisadi resurslara (istehsal amillərinə)-təbii, əmək, kapital, sahibkarlıq və elmə əsaslanır. Bu zaman hər bir ölkə dünya təsərrüfatı əlaqələrində onun iqtisadiyyatınm daha çox malik olduğu iqtisadi resurslarından istifadə edir. Azərbaycan zəngin iqtisadi resurslara malikdir və onun dünya təsərrüfatındakı yeri onun öz resurs potensialından hansı dərəcədə səmərəli istifadə etməsindən asılıdır.

Təbii resurslar əvvəlki kimi Azərbaycanın dünya təsərrüfatında yerini müəyyən edən, onun iqtisadi inkişafının ən vacib amillərindən biri olaraq qalmalıdır. Hazırki dövrdə Avropanın inkişaf etmiş ölkələrində, ABŞ-da və Yaponiyada təbii resurs amilinin əhəmiyəti dəyişmişdir. Məsələ onda deyildir ki, elmi-texniki tərəqqi istehsalın yanacaq-xammal bazasım sürətlə tamamlayaraq, dövriyyəyə əvəzedici sintetik materiallar və s. çıxanr. Yaponiya və Avropa ölkələri təbii resurslar olmadan beynəlxalq rəqabətin jniksək səviyyəsinə nail olmaq metodu ilə müvəffəqiyyətlə inkişaf edirlər. Azərbaycan isə zəngin təbii sərvətlərə malik olduğu halda mənfi nəticələrə malikdir. Dünya təsərrüfatına asılılıqla inkişaf etdirərək, öz təsərrüfatını birtərəfli inkişaf etdirərək, insan amili, innovasiya fəaliyyəti, istehsalın intensivləşdirilməsi və s. kimi digər resursların səfərbəyliyini saxlayaraq, özünə xammal ölkəsi imicini qazandırır.

Resurs potensialından xarici-iqtisadi və dünya təsərrüfat əlaqələrində istifadə etməklə Azərbaycan iqtisadiyya

tın, respublikanın sosial inkişafının qaldınltnası və dünya təsərrüfatında özünün layiqli yerini tutmaq vəzifələrini qarşısına məqsəd qoymuşdur.

Azərbaycanın zəngin təbii-xammal bazası hesab edilən neft və qaz yataqları, dəmir filizi, tikinti və digər materiallar, su və torpaq resursları Azərbaycamn SSRİ tərkibində olan kifayət qədər inkişaf etmiş sənaye və aqrar potensialının yaradılmasına səbəb olmuşdur. Ümumi milli məhsulun 55 % - i sənaye sferaİalarında yaradılırdı.

Hal-hazırda respublikanın mineral-xammal bazasının vəziyyəti və perspektivləri əsasında yüksək rentabelli emal müəssisələri yaradılır və intensiv inkişaf edir.

Azərbaycan müəsəqillik əldə etdikdən sonra sənaye-ləşdirmə yolunu tutaraq, obyektiv şəkildə özünün təbii resurslarının istehlakmm artıniması, təsərrüfatın resurs və material tutumunun aşağı salınması istiqamətində işlər aparır və bu da yaxın gələcəkdə hazır məhsulun ixracının artırılmasma gətirib çıxara bilər.

İqtisadiyyatın iqtisadi resurslan içərisində Azərbaycanın əmək resursları vacib yerlərdən birini tutur və hal-hazırda o, respublikanın demoqrafik xüsusiyyətlərindən birbaşa asılıdır.

Siyasi islahatlan fəal şəkildə apanidığı şəraitdə respublika iqtisadiyyatınm vacib tərkib hissəsi maliyyə resursları hesab edilir.

Azərbaycanın maliyyə resurslarının əsas tərkib hissəsi, 1994-2003-cü illərdə ölkəyə xaricdən daxil olan beynəlxalq təşkilatlann və donor ölkələrin kreditləri, bordan və qrantlan hesab edilir. Xaricdən daxil olan maliyyələr respublikada borclarm yaranmasma gətirib çıxarır. Hazırda xarici borcların miqdarı 1925 mln. ABŞ dollanna çatmışdır. Borc miqdanmn artması ona gətirib çıxara bilər ki, ölkə çətin vəziyyətə düşərək, xaricdən aldığı yeni borcla

rı, kreditləri və ssudalan əvvəlki borcların ödənilməsinə sərf edə bilər. Belə hallar inkişaf etməkdə olan ölkələrdə təsadüf olunur və Azərbaycam da bu təhlükə gözləyir.

SSRİ dağıldıqdan sonra dərin inteqrasiya etmiş təsərrüfat, ticarət və maliyyə əlaqələrinin qırılması sənayenin bütün sahələrində mənfi halların yaradılmasına səbəb oldu. Respublika təbii ki, belə halda yaranmış problemlərin öhdəsindən təkbaşına gələ bilməzdi. Beynəlxalq təşkilatların, dünya ictimaiyyətinin köməyi olmadan dünya təsərrüfatı sistemində öz yerini müəyyən etmək, baza sahələrinin struktur yenidənqurmasını, ixrac potensialının artınl- masını, işğal edilmiş ərazilərdə müharibənin tamamilə dağıtdığı iqtisadiyyatın bərpasım həyata keçirmək qeyri- mümkündür. Belə vəziyyətdə Azərbaycan hökumətinin qarşısında duran strateji məsələ, dünya təsərrüfat əlaqələrində öz iqtisadiyyatını hansı təbii resursların bazası əsasında inkişaf etdirilməsini nəzərdə tutan konsepsiyanın işlənməsindən ibarət idi.

Məsələn, neft-qaz sahəsi maliyyə sərmayəsinin və texniki yardımların iştirakı ilə dünya bazannda qeyri-məhdud tələblə istifadə edilən, rəqabətə davamlı məhsul-lann istehsalı ilə, kimya sənayesinin inkişafına şərait yarada bilər və s.

Proqram konsepsiyasının reallaşması üçün hökumət özünün qlobal məqsədini-iqtisadiyyatın yenidənqurulma-smın gerçəkləşməsini guman edir: məşhur neft «Sindrom»lanndan qaçmaqla neft və qazın sənayedən maksimal keçidinin təmin edilməsi və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə xarici sərmayənin iştirakı nəticəsində eneıji resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi.

Azərbaycan iqtisadiyyatınm müasir vəziyyəti xarici investorlar və onlann prioritet istiqamətləri üçün yaxşı

perspektivlər vəd edir. Energetika sistemlərinin yenidən qurulması, sənayenin, kənd təsərrüfatı potensialının, həmçini iqtisadiyyatın infrastrukturlarının köklü surətdə modernləşməsi üçün olduqca vacibdir.

Ancaq nəzərə olmaq lazımdır ki, iqtisadiyyatın resurs potensialından şüurlu surətdə istifadə edilməsi məsələsi Azərbaycan üçün yalnız iqtisadi müstəqillik eldə edildikdən sonra mümkün oldu və bütün bunlar perspektivdə dünya təsərmfat əlaqələrində milli inkişafm əsasını təşkil edə bilər.

# Fəsil IV. Azərbaycan iqtisadiyyatının resurs potensialı ilə təminatı və onun xüsusiyyətləri

## 4.1. Azərbaycanın təbii-resurs potensialı

«BP» ingilis neft şirkətinin hesablamalarına görə Azərbaycanm neft ehtiyatlan indiki çıxarma tempi ilə 67 il davam edəcək. İranda uyğun olaraq-67 il, Küveytdə- 128 il. Səudiyyə Ərəbstanmda-85 il, Rusiyada-20 il, Türkmənistanda-12 İL Azərbaycan Respublikasınm Yanacaq və energetika naziri bildirmişdir ki, Azərbaycanm təsdiq edilmiş karbohidrogen ehtiyatlan-neft-6 mlrd, ton, qaz-4 5 trln.m^ qədər qiymətləndirilir. Daha sonra o qeyd etmişdir ki, yalnız «Azəri-Çıraq-Günəşli» yatağında 730 mln.ton neft, «Şahdəniz» yatağında isə-1 trln. m^ qaz ehtiyatlan vardır.'

Neftin tarixi öz başlanğıcmı XIX əsrin 2-ci yansmdan götüraıüşdür. Ancaq qeyd etmək lazımdır ki, yalnız neft sayəsində XX əsr köklü surətdə dəyişmişdir. Dünyanın neft stategiyası 3 böyük problem fonunda formalaşır:

Birinci kapitalizmin və müasir biznesin qalxması və inkişafı. Ən qədim neft şirkətlərindən biri olan-«Standart Oyl» buna misaldır.

İkinci problem neft bilavasitə milli strategiya, dünya siyasəti və əlbəttə ki, hakimiyyətlə bağlıdır. 2-ci dünya müharibəsində Hitlerin qüvvələri Qafqaz neft yataqlanm tutmağa istiqamətlənmişdi. Suveyş böhram da 1956-ci

**' Сколько нефти в А'.^ербайджане, «Деловой Азербайджан» № 28, 17.12.03.**

ildə neftlə bağlı idi. 90-ci illərdə İraqın Küveytə girməsinə səbəb də neft olmuşdur.

Üçüncü problem dünya karbohidrogenlər cəmiyyətinə çevrilmişdir, biz isə antropoloqlarm dili ilə desək, «Karbohidrogen adamlarıq»*

Daniel Ergin yazmışdır: «Neft sənayesi yeni bazar əldə etmişdir və yeni sivilizasiya doğurmuşduD>. Lakin, indi bizim həyat mərkəzi hesab etməyə adət etdiyimiz nefti ətraf mühiti korlayan, ozon qatım məhv edən, indiki və gələcək nəslin həyatı üçün təhlükə yaradan "günahkar" hesab edirlər. Azərbaycanda XX əsrdə Abşeronun və Xəzər dənizinin çirklənməsi baş verdi, ona görə də neft sənayesi ilə müasir mərhələdə paralel olaraq, ekologiyanın mühafizəsinə də böyük həcmdə xərclər tələb olunur.

Məsələn, 2003-cü ilin aprelində LUKoyl «Azəri-Çıraq-Günəşli» layihəsindəki payını 1,354 mlrd, dollara yapon şirkəti İNRJEX-ə satdı, indi isə «Ziğ» və «Hövsan» layihələrindən çıxmaq imkanlarını nəzərdən keçirir. LUKoyl bunu o səbəbdən edir ki, ümumi məbləği 250-300 mln. ABŞ dollar olan investisiyadan 100 mln. ABŞ dollar məbləğini ekoloji problemlərin həll edilməsinə sərf etmək lazımdır.^

Xəzər dənizi-5 sahilyam ölkənin müxtəlif iqtisadi və etnosiyası maraqlarının kəsişdiyi ərazidir. Milli və beynəlxalq neft-qaz korporasiyalarınm Xəzər dənizində təbii resurslardan istifadəni genişləndirdikcə, bu ətraf mühitin vəziyyətində neqativ halların da artmasına gətirib çıxanı*.

Bununla belə, insanlar avtomobillərdən, digər nəqliyyat növlərindən, isti otaqlardan və s. imtina etməyə hazır

*

laşmır. Bu gün nefl-həyat tərzinin məzmunu, ən geniş yayılmış eneqi mənbəyidir. Ona görə də neft dünya iqtisadiyyatında vacib rol oynayır və hər bir dövlətin bütövlükdə daxili və xarici siyasətini müəyyən edir. Bu səpkidə müxtəlif neft regionlarında sərt rəqabət aparan ayn-ayrı dövlətlərin maraqlan toqquşur. Buna bənzər rəqabət Xəzər regionunda neft uğrunda da gedir.

Orta Şərq və Xəzər hövzəsi regionları müqayisə edildikdə, Xəzər regionu karbohidrogen ehtiyatlarına görə dünyanın ikinci regionu hesab edilir ( bax, cədvəl 2).

Xəzər regionun neft-qaz ehtiyatlan*.

*Cədvəli.*

| Regionlar | Karbohidrogen ehtiyatlan mlrd.barel | Qeyd |
|---|---|---|
| **Orta Şərq** | **700** | |
| **Xəzər hövzəsi** | **200** | **Azərbaycan, Türkmənistan, Rusiya, Özbəkistan 200 mlrd, ton neft və kondensat daxil edir.** |

Xəzər regionu ölkələrinin neft ehtiyatları haqqında məlumat ve proqnozlan“ müqayisə etdikdə, Azərbaycan Qazaxstandan sonra bu göstəricilər üzrə ikinci yeri tutur (bax, cədvəl 3). Azərbaycanın geosiyasi vəziyyətini nəzərə aldıqda isə, o Xəzər regionunda neft ixrac edən ölkələr arasında ilk sıralardadır. Neft ehtiyatlan hiqqmda olan

**' ABŞ dcpartamentinin hesablamalarına göro ~ BMT-nin metodologiyalarına uyğun olaraq, dünya tocrübosindo ehtiyatların təsnifatda aşağıdakı kimi səciyyələndirilir: kəşfiyyat məlumatları, yeni geoloji kəşfiyyat işçiləri tərəfindən sübut edilən; texnikanın müasir inkişaf səviyyəsində üzə çıxarılmış həqiqi məlumatlar; proqnoz və ya geoloji (elmi proqnozlar və hipotezlər əsasında yerin dərinliklərində güman edilən miqdar)**

məlumatlar Bakı-Tblisi-Ceyhan marşrutunun tikintisinin xeyrinə düzəlişlər edilməsinə səbəb olmuşdu.

Xəzər regionu ölkələri i^rə neft ehtiyatları.*

*Cədvəl 3.*

| Ölkələr | Kəşfiyyt məlumatları - 1 mlrd.barel | Proqnoz-2 mlrd barel | Ümumi 1 +2 mlrd, barel | |
|---|---|---|---|---|
| **Azərbaycan** | **3.6-12.5** | **27** | **31-40** | **OGT B TS** |
| **Qazaxstaıi** | **10-17,6** | **85** | **95-103** | |
| **Türkmənistan** | **1,7** | **32** | **34** | |
| **Rusiya** | **0.3** | **5** | **5** | |
| **İran** | **0,1** | **12** | **12** | |
| **Özbəkistan^** | **0.3** | **1** | **1** | |

Azərbaycan torpağmın dərinliklərində neft və qazla yanaşı müxtəlif geoloji-sənaye tipli əlvan və qara filiz, nadir metallar, brom-yodlu, terminal, mineral yeraltı sular, kimya və metallurgiya sənayeləri üçün qeyri-filiz xammallar, müxtəlif növ tikinti materiallan və s. böyük miqdarda ehtiyatlar aşkar edilmişdir.

Hazırda respublikanın dövlət balansmda 450-dən çox filiz və qeyri-filiz faydalı qazıntı yataqları qeydə alınmışdır ki, onlardan 100-dən çox yataq artıq sənaye tərəfindən mənimsənilmişdir.^

Mineral-xammal bazalanmn vəziyyəti və perspektivləri onun əsasında yüksək rentabelli dağ-mədən və emal müəssisələrinin yaradılmasını və intensiv inkişaf etdirilməsini təmin edir.

Tara metallurgiyanın xammal bazası yüksək keyfiyətli kobalt tərkibli dəmir-maqnit filizləri, bentonit gil və s. təşkil edir.

**' ABŞ departamenlinin hesablamalarına görə**

**" Özbəkistan bilavasitə Xəzər dənizi sahilində yerləşməsə də, onu Xəzər regionunda nəzərdən keçirirlər.**

**^ Geology and mineral resources of Azerbaijan, Nyu York, 2000.**

Asan zənginləşən filiz ehtiyatlan Daşkəsən yatağında cəmlənmişdir. Onun bazası əsasında layihə gücü üdə 1800 min ton filiz çıxarmağa imkan verən dağ-zənginləş- dirici kombinat fəaliyyət göstərir. Daşkəsən yatağımn sənaye ehtiyyatlan həmin kombinatı xammalla 80-90 il müddətində təmin edə bilər.

Rayonda həmçini Şimal-Daşkəsən kobalt yataqları yerləşmişdir. Respublika ərazisində marqans və xromit filizi yataqlan da mövcuddur. Belə təbii imkanlara malik olması göstərir ki, Azərbaycan SSRİ dağılandan sonra, öz xammal və yanacağmm istehlakıuun artınimasma çalışaraq, senayeloşdirme yolunu tutmuş və ola bilər ki, perspektivdə hazır sənaye məhsullannm və yarımfabrikat- larm ixracının artınimasma nail olsun.

Qara metallurgiya üçün əsas komponentlərdən biri hesab edilən, 100 mln. tondan artıq miqdarda olan yüksək keyfiyyətli nadir sənaye ehtiyyatı hesab edilən bentonit gil ehtiyyatlan Qazax rayonunda cəmlənmişdir. Bu yatağın strukturlanna bənzər olan Mərkəzi və Şimal Qobustanm hüdudlarında yeni bentonit gil yataqlarının aşkar edilməsi həmin ehtiyatlann əhəmiyyətli perspektivlərindən xəbər verir. *

Qara metallurgiyanın mineral-xammal bazasmm tərkibinə həm də flyüs-əhəng daxildir. Daşkəsən rayonunda onun təsdiq edilmiş sənaye ehtiyyatlan 50 mln.ton miqdarında hesab edilir.

Yuxarıda göstərilən yataqlann ehtiyatlannm bazası əsasında Daşkəsən rayonunda xarici sərmayələrin iştirakı ilə kobanlaşdırmış və flüsləşdirilmiş dəmir filizi konsent- ratları istehsalı üzrə yüksək rentabelli müəssisənin yaradılması üçün zəmin vardır.

**‘ Geology and mineral resources of Azerbaijan, Nyu York, 2000.**

Qara metallurgiyada Naxçıvan Muxtar Respublikasının Nehrəm yatağındakı dolomit ehtiyyatlarından da geniş istifadə etmək mümkündür. Kəşfiyyat məlumatlarına əsasən yataqda 14 mln. ton miqdarmda sənaye ehtiyyatlan vardır.

Respublikanın xammal potensiahnda kəşfiyyat məlumatlarına əsasən öz miqdarına görə əlvan metallurgiyanın mineral-xammal bazası xüsusi yer tutur. Onun əsasını alüminium, yarımmetal, mis, molibden,kobalt, civə və digər filizlər təşkil edir.

Lakin, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, təbii milli sərvətlərə yiyələnmə məsələsini geoloji kəşfiyyat işlərinin həcmini artırmaqla həll etmək lazım deyil. Çünki, hazır məhsulun material-enerji tutumunun aşağı salınması, filiz xammalmın, yanacağın və enerjinin xərclərinin nisbətən azalmasına gətirib çıxarır.

Azərbaycanda aluminium istehsalı Daşkəsən rayonundakı alunit yatağmdakı sənaye ehtiyyatlanmn bazasma əsaslanır. Bu yatağın böyük ehtiyyatlan Gəncə alüminium zavodunu 40 ildən artıq bir müddətə xammala təmin etmək iqtidarmdadır.

Kiçik Qafqazın Şimal-Şərqində sənaye təyinatlı mis-porfir filizi olan Qaradağ yatağı aşkar edilmişdir. Onun ehtiyyatlan uzun müddət ərzində mis kunorosunun və misin buraxılışı üzrə gələcəkdə istehsalı təmin edə bilər.

Qaradağ rayonunda və Naxçıvan muxtar Respublikasının Ordubad rayonunda bir sıra perspektivli, intensiv geoloji kəşfiyyat işlərinin obyekti olan mis-porfir filizi yataqları aşkar edilmişdir.

Balakən-Zaqatala rayonlarında tərkibində 2,37 % mis olan 350 tondan artıq ehtiyyatlara malik mis-kolçedan yataqları aşkar edilmiş və qiymətləndirilmişdir. ‘

Yarımmetal filizinin sənaye ehtiyatlarının 90 % - dən çoxu respublikanın şimal-qərb rayonları Balakəri və Zaqataladan və Naxçıvan Muxtar Respublikasında cəmlənmişdir.

Filizçay Avropada ən iri yataqlardan biri hesab edilir. Yatağın əsas qiymətli komponentləri mis, sink, qalay, gümüş, kükürd, qızıl, kobalt, kadmium, selen, tellur hesab edilir.

Fizizçay yatağmın sənaye ehtiyatlan bazasında 50 ildən artıq müddət ərzində xammalla təmin edilə bilən yüksəkrentabelli dağ-metallurgiya kompleksinin yaradılması mümkündür.

Ordubad rayonunda böyük ehtiyatlara malik olunduğu proqnozlaşdınlan yeni surma yatağı aşkar edilmişdir.

Aparılmış geoloji kəşfiyyat işləri nəticəsində respublikanın 7 rayonunda sənaye üçün qızıl filizi yataqlan hazırlanmışdır.

Kimya sənayesinin inkişafı üçün Azərbaycan əksər mineral-xammal növlərinə malikdir. Yalnız iki yatağın ehtiyatları bazasında Yeni-Neftçala brom-yod və Bakı yod zavodu tikihniş və fəaliyyət göstərməkdədir.

Naxçıvan Muxtar respublikasında və Zəngilan rayonunda kalsiumlanmış soda istehsadı üçün əsas komponent ehtiyatlan tapılmışdır. Nehrəm yatağında baş duz ehtiyatı- 736 mln. ton, Zəngilan yatağında kimyəvi əhəng -130 mln. ton. Nehrəm yatağında dolomit ehtiyatlan -140 mln. ton hesab edilir. Bu yataqlar Naxçıvan Muxtar Respublikasında kalsiumlaşdırılmış soda, xörək duzu, metallurgiya

**‘ Geology and mineral resources of Azerbaijan, Nyu York, 2000; Ç.M. Xolifəzado. CnaepımiBbic laııcxcH, M., 1963.**

mamiyası və s. istehsalların yaradılması üçün imkan yaradır. Həmin məhsullar Azərbaycanın özünün istehlak tələbatını ödəməklə yanaşı, ixrac da edilə bilər.*

Tikinti materialları sənayesi uzun müddət xammal resursları ilə təmin edilə bilər. 240-dan çox müxtəlif növ qeyri-filiz xammalları və tikinti materialları yataqları mövcuddur.

Sahələrin xammal bazaları aşağıdakı istehsallar üçün təqdini edilir: sement-əhəng, merqel, gil, üzlük materialları, mərmər, tuf, keramzit, kərpiç və s.

Respublikanın müxtəlif regionlarında əlvan şüşə istehsalında istifadə edilən vulkanik kül və s. mineral xammal yataqları aşkar edilmişdir. Xanlar, Şəmkir, Daşkəsən və Naxçıvan Muxtar Respublikasında forfor məmulatlanmn istehsalı üçün lazım olan xammal yataqlan aşkar edilmişdir.

Qeyri-ənənəvi mineral xammallar arasında Aydağ se-olit yatağı xüsusi yertutur. Ondan qazlarm qurudulmasın- da, benzolun tərkibindən buxarm, təbii qazdan isə suyun ayrılmasında, neft-kimya proseslərində katalizator kimi, suyun və neftin təmizlənməsində, yuyucu vasitələrin istehsalında ve s. geniş istifadə edilir. Yataq böyük sənaye ehtiyyatlarına malikdir.

Azərbaycan Respublikası termal, mineral və yeraltı su ehtiyyatları ilə zəngindir.

Respublikamn Şimal-Şərqində sutka ərzində 12,5 min kub metr həcmli və 54® C temperaturdakı terminal su eh-tiyyatlan yatağında kəşfiyyat işləri tamamlanmaq üzrədir. Həmin yatağın bazası əsasında respublikanm əsrarəngiz təbii gözəlliyə malik olan regionda sanatoriya - kurort və sağlamlıq kompleksinin tikilməsi üçün imkanlar mövcuddur.

**' Geology and mineral resources of Azerbaijan, New York, 2000**

Respublikada sanatoriya-kurort, müalicəvi və sağlamlıq komplekslərinin fəaliyyətdə olanlarmın genişləndirilməsi və yenilərinin tikilməsi üçün sutka ərzində 17 min kub.m. mineral su ilə təchiz etməyə malik olan 32 yataq vardır. Həmin resurslardan səmərəli istifadənin yüksəldilməsi yalnız enerjiyə qənaət texnologiyaları əsasmda mümkündür.

Beləliklə, Azərbaycanın mineral-xammal bazası böyük midarda faydalı qazntılar və sənaye ehtiyyatları ilə xarakterizə edilir və bütün bunlar mineral xammallann çıxarılması və emalında, rəqabət qabilİ3^ətli məhsullann buraxılmasında müasir yeni texnologiyalar tətbiq etməklə fəaliyyət göstərən müəssisələrin gücünün artırılmasına və yüksək rentabelli yeni müəssisələrin yaradılmasına imkan verir.

Bununla əlaqədar xarici investisiyaların dağ-mədən sənayesinə cəlb edilməsi və xarici tərəfdaşlarla qarşılıqlı əməkdaşlıq üçün real prespektivlər açılır.

## 4,2, Əmək resurslan və SSRİ dağılandan sonra Azərbaycanın problemləri

Hal-hazırda Azərbaycanda əmək resurslanmn tərkibinə əmək qabiliyyətli yaşlı əhali (qadınlar 15-dən 57 yaşadək, kişilər 15-62 yaşadək) və təqaüd yaşlarında işləyən şəxslər daxildir. Buraya əmək qabiliyyəti olmayan şəxslər (əlillər) daxil deyildir.

İqtisadi fəal əhali sırasına bütün məşğul şəxslər və işsizlər, həmçinin məsuliyyətdə və analıq məzuniyyətində olan qadınlar daxildir.

İqtisadi qeyri-fəai əhali sırasına istehsalatdan aynl-maqla təhsil alan tələbələr, ev təsərrüfatı işləri ilə məşğul olan şəxslər daxildir.

Azərbaycanın əmək resurslarının strukturu Cənubi Qafqaz ölkələrinin uyğun göstəriciləri ilə müqayisədə daha artıq dərəcədə məskunlaşan, 90-ci illərdə baş vermiş struktur dəyişiklik tendensiyalarının demoqratik xüsusiyyətlərindən birbaşa asılıdır (bax.cedvəl 4).

*Cədvəl 4.*

Cənubi Qafqaz ölkələri üzrə əmək resurslanmn

| **ölkələr** | **Bütün əmək ehtiyatlan (min.nofər)** | | **Artıra %** | **"Sİ M(D СГЛ c2** | **. 9 "m (D5ЙЁрœ *-■ S u.** | **İqtsadiyyat sahələrində məşğuldurlar** | |
|---|---|---|---|---|---|---|---|
| | **1998** | **2000** | **2001 1998** | **2000** | | **2000** | **%** |
| **Azərbaycan** | **4438** | **4686** | **5,5** | **3748** | **80,0** | **3705** | **79,1** |
| **Ermənistan** | **2251** | **2357** | **4.7** | **1447** | **61,4** | **1278** | **54,2** |
| **Gürcüstan** | **3109** | **3043** | **2.1** | **1850** | **60,8** | **1749** | **57,5** |

2000- ci ildə Azərbaycanın əmək resursları 1998-ci illə müqayisədə-5,5 %, uyğun olaraq Ermenistanda-4,7 % artmış, Gürcüstanda isə-2,1 % azalması müşahidə edilmişdir.

2000-ci ildə əmək resurslarına münasibiti üzrə iqtisadi fəal əhali Azərbaycanm payına-80%, Ermənistanın-61,4 %, Gürcüstanda-60,8 % düşmüşdür.

Uyğun ildə ümumi əmək resurslarına münasibət üzrə iqtisadi sahələrdə çahşanlarm payı, Azərbaycanda-79,1 %, Ermənistanda-54,2 %, Gürcüstanda-57,5 % təşkil etmişdir. Əhalisinin sayına görə Azərbaycan Zaqafqaziyada birinci yeri tutur.

Respublikada köklü azərbaycan əhalisi (türklər) ilə yanaşı (4709.min nəfər, bütün əhalinin 78,1 % - i təşkil

**’ Статистичесжий Ежегодник Южно-Кавказских стран, 2002-2003, Б., 2003 üzrə hesablanmışdır.**

edir) ruslar, ləzgilər, avarlar, talışlar, kürdlər, çeçenlər, gürcülər yaşayırlar.

Postsosialist ölkəsi olan Azərbaycan hələ keçmişdən yüksək inkişaf etmiş sənaye və mexanikləşdirilmiş çoxsahəli kənd təsərrüfatı ilə tanmırdı. Hazırda Azərbaycanın təsərrüfatında neft-qaz xəttləri, neft emalı, kimya, maşınqayırma, dağ-mədən və əlvan metallurgiya en vacib yerləri tutmuşdur.

Respublikanm ümumi ictimai məhsulunun həcmindən 2/3 hissəsi sənayenin, 1/6 hissəsi kənd təsərrüfatımn, 1/10 hissəsi tikintinin, yerdə qalan hissə isə ticarətin və digər qeyri-istehsal sahələrinin payına düşür.

Müxtəlif təbii resurslara və geniş iqtisadi potensiala malik olan Azərbaycanda təhsil, əhali sayınm artımı və emək resurslarından istifadə böyük əhəmiyyət kəsb edir.

Son 20 il ərzində Azərbaycan əhalisinin böyük hissəsini əmək qabiliyyətli əhali təşkil edir, 90-cı illərdən başlayaraq isə artıq əhalinin 55 % - i əmək qabiliyyətli hesab olunur. Azərbaycanda 4 768 300-ə yaxın əmək qabiliyyətli vətəndaş yaşayır. Onlardan 3 700 000-i (77,7 %) daimi iş yerlərinə malikdilər. Onlardan 2 461 000 nəfər xüsusi sektora cəlb olunmuşlar və bu da dövlət sektorunda- kından 2 dəfə çoxdur.

Əmək qabiliyyətli əhalinin cins və yaş saylarmm dəyişməsinə təsir edən amillərdən biri əmək qabliyyətli əhalinin miqrasiyası hesab edilir. Uzun illər boyu mərkəzləşdirilmiş dövlət üsul-idarəsi əhalinin plansız şəkildə miqrasiyasına gətirib çıxardı və nəticədə əmək qabiliyyətli kişi əhalisinin müəyyən hissəsi iş tapmayaraq Azərbaycam tərk edərək başqa ölkələrə üz tutdular. Bunun əvəzində isə Rusiyadan Azərbaycana əsasən qadınlardan ibarət iş qüvvəsi axdı. İş yerlərinin planlaşmasmdakı qeyri-uyğunsuzluq ucbatından

Azərbaycanda tam işsizlik və qismən işsizlik, yəni iş gününü tam başa vurmamaq kimi hallar ortaya çıxdı. Keçmişdə xalq təsərrüfatı sahələrinin planlaşdmimasında buraxılmış bir çox səhvlər əmək resurslarından istifadəyə mənfi təsir göstərmişdir. Bundan başqa, hüquqi bazanın olmaması da əmək resurslarından istifadəyə neqativ təsir göstərir.

Hazuda əmək resurslanndan istifadənin normativ və hüquqi bazasmm yaradılmasına və onların tədricən həyata keçirilməsinə böyük diqqət yetirilir. Mütəxəssislərin hesablamalanna görə Azərbaycanda hazırda 1 mln-a yaxın işsiz vardır ki, bu da əmək qabiliyyətli əhalinin 27 %-ni təşkil edir.

Azərbaycanın yeni iqtisadi siyasətinin başlıca vəzifələrindən biri işsizlərin saymın aşağı salınmasıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin statistikası göstərir ki, 2001-ci ildə Azərbaycanda işsizlərin sayı artmış, əhalinin işlə təmin edilməsi isə azalmışdır. Keçən il qeydə alınmış işsizlərin sayı təqribən 2 min nəfər artaraq, 5,1 min nəfərə çatmışdır. Həmin göstərici əmək qabiliyyətli əhalinin ümumi sayı ilə müqayisədə böyük deyil və yalnız rəsmi məlumatları əks etdirir. Eyni zamanda keçən illər ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 1,9 min nəfər işsiz işlə təmin edilmişdir. Lakin, boş iş yerləri axtanb tapmaq asan başa gəlməmişdir, belə ki, 2002-ci ildə əvvəlki illərlə müqayisədə 1,24 min nəfər az işlə təmin edilmişdir. Haqqı ödənilən ictimai işlərdə artım müşahidə edilmişdir. O sahələrə vetəndaşlarm cəlb edilməsi 15 % artaraq, 3,3 min nəfər təşkil etmişdiı .^

**^ 2003-2005-ci illərdə Kasıblığın azaldılması, iqtisadi inkişaf üzrə Dövlət Proqramı. B., 2001.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi daxilində struktur islahatların apanlma- sı planlaşdırılır. İslahatların gedişində əmək bazarının öyrənilməsi, işsizlik səviyyəsinin aşkar edilməsi və məşğulluq vəziyyətinin təhlilinin apanlması nəzərdə tutulur.

Əhalinin üç yaş qrupuna bölünməsi əmək potensialının həcmini tam ölçüdə əks etdirmir. Belə ki, əmək qabiliyyəti yaş həddindən aşağı olan şəxslərin bir hissəsi istehsalatda çalışır və onlar da sözsüz ki, əmək resurslarına daxildirlər.

Təqaüdçülərin də məlum hissəsi iqtisadiyyatda çalışaraq əmək resursların sayını artırır. Əmək qabiliyyəti yaşında olan əhalinin sayı əmək resurslarmın sayı ilə bərabərlik təşkil etmir.

Azərbaycan suveren, müstəqil dövlətdir, lakin kasıblıq bu gün əvvəlkindən artıq dərəcədə hiss edilir. Azərbaycan Respublikasının Konstitusiyasında, qəbul edilmiş 5 qanunda və Prezidentin 40-dan çox Fərman və Sərəncamlarında əhalinin müxtəlif kateqoriyalanmn sosial müdafiəsi məsələlərinə toxunulmuşdur.

Zaqafqaziyanın əmək resurslarımn dinamikasını Azərbaycanın və Gürcüstanın timsalında nəzərdən keçirmək olar.

Cədvəl 5-dən görünür ki, Azərbaycanda iqtisadi fəal olan əhalinin sayı Gürcüstamn iqtisadi fəal əhalisinin sayından 19,2 % artıqdır. Eyni zamanda Azərbaycanda istehsaldan ayrılmaqla təhsil alanların sayı Gürcüstandan 3,6% aşağıdır. Qeyri-fəal əhalinin sayı isə 19,2 % - dir.

2000-ci ildə Cənubi-Qafqaz ölkələrində əmək resurslannm dinamikası.^

*Cədvəl 5.*

| | 2000-ci il | | | |
|---|---|---|---|---|
| | Min nəfər | | Əmək resurslarına olan %-lə | |
| | C ce U ä' •e Q N < | C S 1 | G O >. гз •e o Ni < | 1 сл •■3 O >-• :p O |
| Bütün əmək resurslan | 4686 | 3043 | 100 | 100 |
| İqtisadi fəal əhali | 3748 | 1850 | 80,0 | 60,8 |
| İqtisadi sahələrdə məşğuldur-cəmi | 3705 | 1749 | 79,1 | 57,5 |
| 0 cümlədən hüquqi şəxslər | 912 | 559 | 19,5 | 18,4 |
| Kiçik müəssisələrdə | 306 | 126 | 6.5 | 4,1 |
| Sərbəst məşğul olan əhali | 645 | 133 | 13,8 | 4,4 |
| Din xadimləri | 35 | 3 | 0,8 | 0,1 |
| Digər məşğul əhali | 328 | 20 | 7 | 0,7 |
| İşsizlər - cəmi | 44 | 101 | 0,9 | 3,3 |

Azərbaycanda sərbəst məşğul olan əhalinin sayı Gürcüstandan 9,4 % çoxdur,

Azərbaycan iqtisadiyyatmda çalışanlann sayımn artınlması tendensiyası vardır. Əgər 1999-cı ildə iqtisadiyyatda çalışanların ümumi sayı 3703 min. nəfər idisə, 2000-ci ildə bu rəqəm artaraq, 3705 min. nəfər təşkil etmişdir (bax, cədvəl 6).

Məşğulluq xidmətləri üzrə qeydə alınmış işsizlərin sayı 43 min nəfər təşkil etmişdir.

**‘ Статистический Ежегодник Южно-Кавказских стран, Bakı, 2003.**

Əmək resurslarının formalaşması üçün əsas, məlum olduğu kimi əhalinin ümumi sayı hesab edilir. Ona görə də əhalinin saymın dinamikası və onun strukturu, say dinamikasına, əmək resurslanmn yol tərkibinə böyük təsir göstərir. Əmək qabiliyyətli əhalinin kəmiyyət və keyfiyyət aspektlərinin öyrənilməsində nəzərə alman amillər, bütün əhalinin göstərilən əlamətləri kimi çıxış edir.

Cənub-Qafqaz respublikalarmm iqtisadiyyatında çalışanlarm sayı.*

*Cədvəl 6,*

| | 1999 | | 2000 | |
|---|---|---|---|---|
| | C<br>m<br>u<br>-e<br>Ф<br>N<br>< | C<br>ed<br>O<br>(-1<br>O | C<br>ed<br>O<br>^4<br>ed<br>•e<br>Ф<br>N<br>< | S<br>B<br>ка<br>O<br>»-I<br>:Э<br>O |
| **İqtisadiyyatda çalışanların ümumi sayı** | **37 03** | **1738** | **3705** | **1748** |
| **Kişilər** | **1937** | **885** | **1938** | **934** |
| **Qadınlar** | **1766** | **848** | **1767** | **814** |
| **İşsizlər** | – | **277** | – | **212** |
| **İlin sonunda məşğulluq xidmətləri tərəfindən qeydə alınıb** | **45** | **105** | **43** | **117** |
| **Kişilər** | **20** | **46** | **19** | **56** |
| **Qadınlar** | **25** | **57** | **24** | **61** |
| **16-29 yaş arasındakı gənclər** | **17** | **34** | **18** | **39** |

Hazırda əmək qabiliyyəti yaşından kiçik olanların sayı 34,5 min nəfər, böyük olanların sayı isə-29,7 min nəfər hesab edilir. Bu göstəricilərin 1990-ci il islahatlarmadək

^ **Статистический Ежегодник Южно-Кавказских стран, Bakı, 2003.**

olan göstəriciləri ilə müqayisə etdikdə məlum olur ki, əmək qabiliyyəti yaşından Iciçik və əmək qabiliyyəti yaşında olanlarm sayında azalma müşahidə edilmişdir.

Lakm, kasıblıq ən vacib problemlərdən biri olaraq qalmaqdadır. Ona görə də iqtisadiyyatın səmərəliliyinin artırılması, onun dinamik artımı gələcəkdə Azərbaycanda kasıblığın səviyyəsinin azalmasma imkan verəcəkdir.

Bunula əlaqədar olaraq, qeyd etmək lazımdır ki, iqtisadi artımla həyat səviyyəsinin yaxşılaşdırılması arasında üzvi və qırılmaz əlaqələr mövcuddur. Əgər respublikada əsas maİCTOiqtisadi göstəricilər real olaraq artırsa, onda əhalinin həyat səviyyəsi də artmalıdır. Böyük İsveç alimi Kari Qunnar Mürdalın (1898-1987) fikiincə, əgər artım əhalinin əksər hissəsinin vəziyyətinin yaxşılaşdınıması ilə müşayət edilmirsə, inkişaf böyük hərflə nəzərdən keçirilmirsə, bu əhalinin əksər hissəsini kənarda saxlayaraq, onların hesabına həyata keçirilir^

1996- cı ilin əvvəlindən indiyədək respubikada əsas texniki-iqtisadi göstəricilər ilbəil artmışdır. Bu isə, öz növbəsində əhalinin pul gəlirlərinin artımına təsir göstərməyə bilməzdir. Belə ki, əgər 1995-ci ildə ev təsərrüfatı ilə məşğul olan əhalinin adambaşma düşən pul gəlirləri- 59860 idisə, 2000-ci ildə bu rəqəm-151458 manat, 2002- ci ildə isə-179106, 8 manat təşkil etmişdir. Qeyd edək ki, respublikanın şəhərlərində əhalinin pul gəlirləri kənd yerlərinə nisbətən daha sürətlə artmışdır. Respublikanın Şəhərlərində əhalinin pul gəlirləri 2002-ci ildə 2001-ci illə müqayisədə 121,5 %, kənd yerlərində isə 102,8 % artmışdır.^

**^ Вопрсгсы экономики № 6,2000, səh. 133**

**“ 2003-2005-ci illərdə Kasıblığın azaldılması, iqtisadi inkişaf üzrə Dövlət Proqramı, Bakı, 2001.**

Qeyd etmək lazımdır ki, kasıblığın səviyyəsi, həddləri və sayı dövlət tərəfindən rəsmən müəyyən edilən, onun imkanları ilə təyin edilən sərhədlərdən asılıdır. Kasıblığın səviyyəsi və cizgiləri 2003 -2005-ci illərdə kasıblığın azadılması və iqtisadi inkişaf üzrə dövlət proqrammda nəzərdən keçirilmişdir. Bu proqrama uyğun olaraq, kasıblıq səviyyəsi aylıq gəlirin 120 min manat və ya 25,8 ABŞ dolları olması ile müəyyən edilmişdir. Ev təsərrüfatının məcmu gəlirlərində 2002-ci ildə bir nəferə düşən gəlir il ərzində-325, 9 min manat, ev təsərrüfatlarmda 6 nəfər və ondan artıq olduqda isə, gəlirlərin səviyyəsi-157 min manat təşkil etmişdir.

Gördüyümüz kimi, ev təsərrüfatlarında məcmu gəlirlərin orta səviyyəsi əhalinin kasıblıq səviyyəsini ötüb keçir. Lakin, bu bütövlükdə orta hesabla götürülür. Ancaq, ev təserrüfatmdan adambaşına düşən gəlirin məcmu orta hesab səviyyəsini təhlil etsək, onda biz təzadlı məlumatlar əldə etmiş olarıq:

- bir nəfərlə-325,9 min manat;
- ailənin iki üzvü ilə-127,3 min manat;
- ailənin üç üzvü ilə-72,8 min manat;
- ailənin dörd üzvü ilə-47,7 min manat;
- ailənin beş üzvü ile-37,2 min manat;
- ailənin altı üzvü ilə-26,2 min manat;

Bu və digər məlumatlar nəticəsində hər bir gəlir qruplan üzrə ev təsərrüfatlannda ailə üzvlərinin ümumi sayı hesablanmışdır.^

Birinci qrupda adambaşına orta aylıq gəliri 325,9 min manat, bir nəfərdən ibarət 130,6 min manat təşkU edən ev təsərrüfatları daxil edilmişdir;

**‘ Проблема бедности а Азербавджане. «Новое время» 28 noyabr 2003.**

İkinci qrupa (2 nəfərdən ibarət ailələr) adambaşına orta aylıq gəlirləri 127,3 min manat olan 138,7 min ev təsərrüfatları daxil edilmişdir;

Üçüncü qrupa (3 nəfərdən ibarət ailələr) adambaşına orta aylıq gəlirləri 72,8 min manat olan 213,6 min ev tə-sərrüfatlan daxil edilmişdir. Həmin ev təsərrüfatlarında 640.8 nəfər yaşayır;

Dördüncü qrupa (4 nəfərdən ibarət ailələr) adambaşına orta aylıq gəlirləri 72,8 min manat olan 138,7 min ev təsərrüfatları daxil edilmişdir. Həmin ev təsərrüfatlarmda 640.8 min nəfər yaşayır;

Beşinci qrupa (5 nəfərdən ibarət ailələr) adambaşına orta aylıq gəlirləri 37,2 min manat olan 346,3 min ev təsərrüfatları daxil edilmişdir. Həmin ev təsərrüfatlannda 1731,5 min nəfər yaşayır;

Altıncı qrupa (6 nəfərdən ibarət ailələr) adambaşına orta aylıq gəlirləri 26,2 min manat olan 508 min ev təsər- rüfatlan differensiasiya uçotu ilə daxil edilmişdir. Həmin ev təsərrüfatlannda 3654 min nəfər yaşayır.^ 4-dən 6-ya və daha çox adamlardan ibarət ailələrə gəldikdə isə, burada gəlirlərin səviyyəsi kasıblıq həddindən aşağı səviyyədədir.

Göstərilmiş məlumatlardan göründüyü kimi, 3 nəfərdən ibarət olan ailələrdə kasıblıq ayaq açır.

Adambaşına orta aylıq gəlirləri 36,2 manat təşkil edən altıncı qrupdakı adamlann vəziyyəti xususi ilə ağırdır. Bu aralıq səviyyədən 4,6 dəfə aşağıdır. Özü də bu qrupda kasıblıq həddindən aşağı səviyyədə olan daha çox-3654 min nəfər əhali yaşayır. Bu ölkə əhalisinin ümumi sayının 44,5%-ni təşkil edir.

Əgər bütün gəlir qruplarını və onlarm saylanm cəmləsək, onda orta aylıq gəlirləri aralıq minimumundan, yəni

**' Проблема бедности в Азербайджане.«Новое время», 28 noyabr 2003.**

120 min manatdan aşağı olan 7426,7 min nəfər alınar. Bu bütün əhalinin 90,5 %-ni təşkil edir.

Qeyd edək ki, proqramda təsdiq edilmiş aralıq minimumu çox aşağıdır- bir aya 25,8 dollar və ya günə 0,86 dollar hesab edilmişdir. Ancaq BMT-nin qiymətləndirməsinə görə həyat səviyyəsi bir gün üçün bir dollar olarsa, onda bu dilənçilik kimi, bir günə 1 dollardan 2 dollara qədər olduqda isə, bu-kasıblıq kimi xarakterizə edilir.

Ümumdünya məşhur iqtisadçıları K.R.Makkonneli və S.l. Bryunun fikrincə, kasıblıq - yeməyə, paltara, yaşayış mənzillərinə və nəqliyyata olan əsas tələbatın təmin edilməsi üçün ayrı-ayn adamlarm və ya ailənin vəsaitlərə malik ola bilmədiyi bir vəziyyətdir.^

Qeyd etmək lazımdar ki, kasıblığın dərinləşməsi adambaşına düşən orta gəlirlə aralıq minimumun həcmi arasındakı fərqlə müəyyən edilir. Aralıq minimumun həcmi istehlak səbətinin dəyər qiyməti kimi təqdim edilir (qida məhsullarının minimal yığımı, insan sağlamlığınm qorunması və onun həyat fəaliyyətinin təmin edilməsi, məcburi ödəmələr və üzvlük haqqının ödənilməsi üçün zəruri olan qeyri-ərzaq əmtəələri və xidmətlər).

Respublika müstəqillik əldə etdikdən sonra 14 oktyabr 1992-ci ildə «Minimal istehlak büdcəsi haqqında» Azərbaycan Respublikasının qanunu qəbul edildi. Qanuna aralıq minimumunun əsasını təşkil edən qida məhsullarının və digər qeyri-ərzaq əmtəələrinin kəmiyyət və keyfiyyət yığımı daxil edilmişdir.

Həmin istehlak büdcəsində 51 adda qida məhsulları və bir neçə onlarla adda qeyri-istehlak əmtəələri hesablanmışdır. Qida məhsulunun energetik qiyməti, hələ o vaxtlar SSRİ-nin tərkibində olan Elmlər Akademiyasının Qida İnstitutu tərəfindən müəyyən edilmiş norma üzrə

**K.P.MaKKOHHCJL C.JI.BpK). ƏKOHOMHKC, İnfra, M.2003.**

3000-ə qarşı, sutka ərzində 2480 kilokalori hesabından götürülür.

Azərbaycanda kasıblığın azaldılması üzrə qəbul edilmiş proqramda istehlak səbətinə insanın normal həyat fə- alİ₃^əti üçün ən zəruri olan minimal normalarda ərzaq məhsulları daxil edilmişdir. Onlara gün ərzində 2200 kilokalori hesabından 39 çeşiddə əmtəə qrupları daxil edilmişdir.

Əyani olması üçün, kasıblığın azadılması üzrə dövlət proqramında qəbul və daxil edilmiş 2001-ci il üçün ərzaq səbətini nəzərdən keçirək.

Onlara 13 böyüdülmüş ərzaq əmtəələri daxil edilmişdir. O özündə 10 ilə əvvəl ərzaq səbətinə daxil edilmiş, demək olar kı, bütün ərzaq məhsullarını daxil etmişdir. Ancaq əvvəlki səbətdəki normalar indikindən qat-qat yüksək idi.

Məsələn, əvvəlki istehlak səbətində kartofun illik istehlak norması-50 kq, yenidə isə - 40 kq; uyğun olaraq, tərəvəz-106 və 78 kq; meyvə-54 və 50 kq; ət və ət məh-sullan-38 və 25 kq; süd və süd məhsullan-321 və 177; balıqlar-12,5 kq və 9,7; yumurta-211 və 120 ədəd; şəkər-22 və 17 kq və s.

Göründüyü kimi, yeni istehlak səbəti köhnə ile müqayisədə bütün ərzaq əmtəələri üzrə adambaşına düşən istehlak məhsulları normalan aşağıdır. Xüsusilə bu insan orqanizmi üçün yüksək energetik qiymətə (kalori) malik olan tərəvəz, ət və ət məhsullan, süd, balıq, yumurta və s. qoyulmuş normalara aiddir. Yeni istehlak səbətində həmin ərzaq əmtəələrinin noması orta hesabla 5-dən 28 kq- dək azaldılmışdır. Lakin, çörək və çörək məhsullannın istehlak normaları on illər boyu dəyişməz qalmışdır-il ərzində adambaşına-127 kq. Qeyd etmək lazımdır ki, Azərbaycan çörəyin istehlakma görə dünyada birinci yeri tutur.

ABŞ - da və Böyük Britaniyada əhalinin adambaşına düşən çörək istehlakı il ərzinde-87 kq, Avstraliyada-89 kq, Almaniyada-78 kq, Avstriyada-74 kq, Kanadada-77 kq, Fransada-82 kq təşkil edir. Beynəlxalq təcrübədə bir sıra başqa müqayisəli amillər mövcuddur. Belə ki, bu və ya digər ölkələrin amillərini müəyyən etmək üçün məsələn, Azərbaycamn dünya iqtisadi sistemində hansı qrup ölkələrə daxil olduğunu müəyyən etmək lazımdır. Milli valyuta ilə onların alıcılıq qabiliyyəti arasında münasibətləri göstərən, yəni müəyyən əmtəələr yığımının və xidmətlərin hər bir ölkə üzrə qiymətlərinin uçotu ilə, alıcılıq qabiliyyətinin paritet hesabının BMT metodologiyası mövcuddur. Alıcılıq qabiliyyəti paritetləri üzrə müxtəlif ölkələrin Ümumi Daxil Məhsulunun həcminin müəyyən edilməsinə yönəldilmiş BMT metodologiyalarına uyğun olaraq, həmin ölkələrin valyutalarına 600-800 əsas istehlak əmtəələri və xidmətlər, 200-300 əsas investisiya əmtəələri və 10-20 tipik tikinti obyektlərini götürürlər. Bundan sonra həmin yığımm tədqiq edilən ölkələrin milli valyutası və ABŞ dolları ilə neçəyə olduğu müəyyənləşdirilir. Alıcılıq qabiliyyəti paritetləri əsasında bu və ya digər ölkələri milli valyutalannın alıcılıq qabiliyyətləri müəyyən edilir.^

Azərbaycan beynəlxalq əmək bazarın 80-90-cı illərdə çıxmışdır. Azərbaycanın əmək qabiliyyətli miqrantlarmın əksər hissəsi Rusiyadadır. Qeyri-rəsmi məlumatlara görə onların sayı 2 mln.nəfərdən çoxdur.

2002-ci ildə keçirilmiş Ümumrusiya əhalinm siyahıya alınmasına uyğun olaraq, Rusiyada əzərbaycanlılann sayı 1989-cu ildə 340 min, 2002-ci ildə isə xeyli artaraq 620 min təşkil etmişdir. Həmin siyahıyaalmaya əsasən Rusiyada yəhudilərin və almanların sayı azalmış, azərbaycanlıların və ermənilərin sayı artmışdır. Emiqrasiya və təbii

’ **A.C.BуjıaТОВ** «МНрОВаВ ЗК0Н0МНіса», **М.,2001. soh. 50.**

köçənlər hesabına Rusiyada yəhudilərin sayı 1989-cu ildəki 540 min nəfərdən, 2002-ci ildə 230 min nəfərdək azalmışdır. Uyğun olaraq, həmin dövrdə almanlar 840 mindən 600 minədək azalmışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə həmin dövrdə ermənilərin sayı 530 mindən - 1 mln. 130 min nəfərədək artmışdır.*

İstehsal edilmiş məhsullann dəyərləri hesablanarkən bu rəqəm 24 mlrd, dolIaradək artır. Bu zaman qeyd etmək lazımdır ki, Rusiyaya gedən Azərbaycanlılar üçün məşğulluğun bir çox formaları mövcuddur və bu da yerli əhalini təmin etmir. Məsələn, azərbaycanlıların fəal çalışdıq-lan topdan və pərakəndə satış ticarəti, tikinti və s.

90-cı illərdə Azərbaycanm əməkçi əhalisinin miqrasiyası yaxın-uzaq xarici ölkələri: Türkiyəni, Almaniyanı, Avstriyam, Polşanı, Hollandiyanı, ABŞ, Yaxın və Orta Şərq ölkələrini əhatə etdi.

Şübhəsizdir ki, yoxsulluqla mübarizə məsələləri ilə əlaqədar vətəndaşlann problemlərinin həllində miqrasiya böyük rol oynayır. Ancaq bu məsələ daha dərin köklərə malikdir. Miqrasiya prosesində dövlət müxtəlif məsələləri həll edir və «Kasıblıq-əmek haqqı-iş yerləri» sxemi aşağı ixtisas səviyyəsinə malik olan miqrant üçün tətbiq edilə bilər. Eyni zamanda bu məsələ ilə əlaqədar bir sıra elementlər içərisində Azərbaycan diasporlarmın xarici ölkələrdə mövqelərinin hansı formada möhkəmləndirilməsi və hətta Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri də nəzərdə keçirilməlidir. Yeni təcrübə göstərir ki, peşəkarlıq eldə etmək və ya onu artırmaq məqsədi ilə yaxın və ya uzaq ölkələrə emiqrasiya etmiş adamların bir hissəsi vaxtaşırı olaraq vətənə dönürlər. Azərbaycan üçün miqrasiya problemi, xüsusilə Rusiyaya miqrasiya böyük aktuallıq kəsb edir. O, həm demoqrafik, həm də sırf iqtisadi

**' Демографическая ситуация в России,«Новос время», 13 fevral 2004.**

məsələləri əhatə edir. Məsələn, iki il əwəl Rusiya telekanallarının birində çıxış edərkən, prezident V.Putin demişdir ki, Azərbaycan miqrantlan il ərzində Rusiyadan 2 mlrd.dollar çıxarırlar. Rəsmi statistika olmasa belə, bizim miqrantlann əldə etdikləri iqtisadi xeyiri təqribən hesablamaq mümkündür. Əgər V.Putin haqlıdırsa və Azərbaycan vətəndaşları doğrudan da oradan il ərzində 2 mlrd, dollar gətirirlərsə, onda ortaya sual çıxır ki, onlar nə qədər qazanırlar? Məlumdur ki, inkişaf etmiş ölkələrdə əmək haqqı istehsal edilmiş məhsulun dəyərinin 70 %-ni təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə bu göstərici 20-25% arasmda dəyişir.*

Əgər qəbul etsək ki, Azərbaycan miqrantlan öz gəlirlərinin yalnız yarısını gətirirlər, deməli onların Rusiyada il ərzində orta hesabla 4-5 mlrd, dollar qazandıqları bəlli olur. Söhbət gələcəkdə ölkənin elmi-praktiki potensialının artmlmasından gedə bilər. Rusiyada sahibkarlıq fəaliyyəti ilə məşğul olan emiqrantların da bir hissəsi hökmən geri dönəcəklər. Onlar özləri ilə kapitallanmn bir hissəsini (və ya hamısını) gətirərək, artıq Azərbaycanda bizneslə məşğul olacaqlar və bu da yerli kiçik və orta sahibkarlığın inkişafının stimullaşdınlmasma təkan verəcək. Xaricdə qalan azərbaycanlılar isə orada başqa nəsi insanlardan ibarət diaspor yaradırlar. Miqrasiya siyasətində ölkənin qəbul etdiyi qanunvericilik bazası mühüm rol oynayır. Rusiya ərazisinə gedən miqrantlar sərhəd- nəzarət məntəqəsində onlarm Rusiyada üç aylıq müddətdə olmalarına icazə verən miqrasiya kartlarını təqdim edirlər. Hökumətlər səviyyəsində Azərbaycan- Rusiya danışıqları ona gətirib çıxanr ki, artıq 2004-cü ilin payızından miqrasiyanın müddəti 3 ilədək artınlmışdır.^

**‘ Миграсия ВО благо^ «Зыкало», 12 iyun 2003.**
**“ Внешний долг Азербайджана растет, «ЭХО» 5 noyabr 2001.**

Bununla belə, əgər indi miqrasiya kartı ilə yanaşı Azərbaycanlılar onların şəxsiyyətlərini təsdiq edən uyğun sənədlərin surətlərini gəzdirməyə məcbur idilərsə, bundan sonra onlar miqrantm plastik kartlan ilə əvəz ediləcək.

SSRİ dağıldıqdan sonra MDB ölkələrinin miqrasiya siyasəti ilə beynəlxalq təşkilatlar da maraqlanmağa başladılar. Beynəlxalq emək təşkilatınm Cenevrədəki 91-ci sessiyasmda «Layilqi əmək» qlobal Proqramında gerçəkləşdirilən ölkələr sırasma Azerbaycanm daxil edilməsi məsələsi müzakirə edildi, həmçini dünya əmək bazarmda əhalinin məşğulluq və sosial müdafiəsində dövlətlərin iştirak miqyaslarının təhlili apanldı.^

## 4.3. Azərbaycanın sahibkarhq və mnovasiya potensialı və onların inkişaf xüsusiyyətləri

SSRİ dağıldıqdan sonra, Azerbaycanda sahibkarlıq üçün zəmin yaradan resurslar vacib iqtisadi amilə çevirilir. Hal-hazırda Azərbaycanda sahibkarlığm inkişafına təkan verən bir sıra dövlət, ictimai və özəl strukturlar fəaliyyət göstərir. Bundan başqa, Azərbaycanda sahibkarlığı dəstəkləyən bir çox xarici fondlar mövcuddur. Buna misal kimi Almaniya-Azerbaycan sahibkarlığa dəstək fondunu göstərmək olar. Həmin Fondda (yəni AAF-da) Azerbaycanda kiçik və orta sahibkarlığın dəstəklənməsi və inkişafı üçün 5,1 mln. yevro yığılmışdır.

Bütövlükdə qeyd etmək lazımdır ki, məsləhətçilər, banklar və s. strukturlar tərəfindən sahibkarlara xidmət misalmda onlara kreditlərin verilməsi strukturlannm təkmilləşdirilməsi üçün rəsmi, ictimai və özəl strukturlar tərəfindən qəbul edilmiş bütün tədbirlər Azərbaycanda sa-

**‘ Внешний долг Азербайджана растет, «ЭХО» 5 noyabr 2001**

hibkarlığın inkişafına təkan verməlidir. Tarixən sahibkarlıq fəaliyyəti sahibkarın sərəncamında olan iqtisadi resursların həcmi ilə müəyyən edilir. Bəzən belə sahibkarlıq formasını klassik forma adlandırırlar. XX yüzilliyin 70-ci illərində Qərb ölkələrində və onların iqtisadiyyatında köklü dəyişikliklər baş verdi və nəticədə innovasiya sahibkarlığı yarandı. Sahibkarlığın belə forması öncəkilər- dən onunla fərqlənir ki, burada elm və texnika geniş inkişafa malikdir. Təsərrüfat proseslərində yeni texnologiyalar hərtərəfli şəkildə tətbiq edilir, məhsulun keyfiyyət tərəfmə xüsusi diqqət yetirilir və s. Deməli, sahibkarlığın belə forması yalnız iqtisadi resursların həcminə əsaslanmaqla kifayətlənmir, həm də burada istehsala, bölgüyə, mübadiləyə və istehlaka kompleks münasibətlər ön plana çəkilir.

Belə zənn edilir ki, bazar münasibətlərinə keçid prosesində iımovasiya sahibkarlığının inkişafı üçün münasib şəraitin yaradılması vacibdir. İnnovasiya sahibkarlığı sahibkarlığın xüsusi norması hesab edilmir. Burada xüsusi, kollektiv, dövlət, kiçik sahibkarlıq, iri sahibkarlıq və s. kimi innovasiya sahibkarlığmı da təşkil etmək olar.

Belə prosesi qanunauyğun hesab etmək olar, əks halda dünya təsərrüfatının müasir inkişaf mərhələsi innovasiya sahibkarlığı olmadan keçinə bilməz. İnnovasiya sahibkarlığı eyni zamanda həmin ölkənin iqtisadi yüksəlişinə təkan verir. Hansı ölkələr ki, innovasiya sahibkarlığından istifadə etmir və ya onu təqlid edir, sözsüz ki, iflasa məhkumdur .

Bəzən iqtisadi ədəbiyyatda vencur (riskli) sahibkarlıq terminindən istifadə edilir. Qeyd edək ki, innovasiya sahibkarlağı ilə əlaqədar, başqa iqtisadi forma-vencur kapitalı baş verdi. Məlumdur ki, innovasiya vencur kapitalının rolu əvəzsizdir. Məsələ, ondadır ki, istənilən elmi kəşfin

nəticəsini qabaqcadan görmək mümkün deyil. Ona görə də belə elmi kəşflərin layihələrinin maliyyələşdirilməsi risk tələb edir. Deməli, innovasiya proseslərinin son nəticəsini, onun bazar tərəfindən necə qarşılanacağını qabaqcadan müəyyən etmək çox çətindir.

Vençur sahibkarlığı müəyyən təşkilatı formalara malikdir. Həmin formalar içərisində kiçik innovasiya firmalarının və daxili vençur korporasiya şöbələrinin adlarını çəkmək olar. Kiçik innovasiya firmaları və daxili vençur korporasiya şöbələri iri deyil, kiçik sərmayələr tələb etdiyindən onların maliyyələşdirilməsi çətinlik yaratmır. Əgər hiss edilərsə ki, pul vəsaitləri kifayət etmir, onda innovasiya sahibkarlığının həyata keçirilməsində vençur firmalar yardım üçün özəl maliyyə korporasiyalanna müraciət edirlər. Vençur firmaların maliyyələşdirilməsindən öncə maliyyə şirkətləri onların layihələrini ekspertizaya göndərir.

Ekspert komissiyası müsbət rəy verdikdən sonra maliyyə şirkətləri həmin vençur firmaları maliyyələşdirir. Bu yolla maliyyə şirkətləri vençur firmalann mənfəətlərinə ortaq olurlar.

Yuxarıda adlan çəkilmiş vençur firmalardan başqa, daxili cəmiyyətlər də mövcuddur. Daxili vençur firmaları 60-70 ci illərdə geniş yayılmışdır və onlar korporasiyalara məxsus mülkiyyət münasibətlərinin təkmilləşmiş formalarımn nəticəsi hesab edilir. Daxili vençurlar iri korporasiyalann nəzdində yardılır və həmin şirkətlərin innovasiya fəaliyyətlərini təmin edir. Daxili vençurlar elmi-tədqiqat işləri apanr, daha mükəmməl texnika və texnologiyaların axtanimasında olur, istehsal üçün perspektiv planlar işləyir, bazarlar üçün daha keyfiyyətli və dayamqh məhsullar istehsal edirlər. Onların məqsədi-eksperimentlərin həyata

keçirilməsi, səhvlərin aradan qaldırılması, zəruri resursların əldə edilməsi, fəal sistemlərin maddi stimullaşdınlma- Si və s.-dən ibarətdir. Daxili vençurlarm belə təşkil edilməsi, daxili mühitə münasibətdə və yeniliklərə qarşı ani surətdə reaksiya verilməsində onlara dayanıqlılıq verir.

Bəzən daxili vençurlar korporasiyalarm tərkibindən çıxaraq, sərbəst fəaliyyət göstərirlər. Belə şəraitdə, daxili vençurlar korporasiyalarla tərəfdaşlıqda vençur fondları yaradırlar və birgə fəaliyyət göstərirlər.

80-cı illərdən başlayaraq Qərb ölkələrində kollektiv innovasiya sahibkarlığı geniş yayılmışdır. Burada söhbət müəssisələrin kollektiv riskləri, elmi-texniki konsorsiumlar, elmi-istehsal birlikləri və s. haqqında olur. Məsələn, hazırda ABŞ-da 60 belə konsorsium və onların filialları fəaliyyət göstərir. ABŞ-dan başqa, məsələn. Böyük Britaniya, Almaniya və Hollandiyada universitetlərdə elmi-texniki mərkəzlər yaradılmışdır ki, korporasiyalar onları «Sənaye-texnoloji mərkəzlər» adlandınrlar. Bu da öz növbəsində kollektiv innovasiya sahibkarlığının yeni bir fonnasıdır.

Qısa olaraq desək, innovasiya sahibkarlağa yeni ideyalar, yeni kəşflər, yeni layihələrin reallaşdırılması ilə məşğul olmaq və s. axtanşmdadır. Lakin, bu proseslərin əsasında insan amili durur, insan yeni idealar verir, müasirlik nöqteyi-nəzərindən elmi-axtanşlara can atır. Bununla əlaqədar uyğun kadrların hazırlanması, onlarm təkmilləşdirilməsi və s. Azərbaycan Respublikası üçün də aktualdar. Ancaq innovasiya sahibkarlığının və onun müxtəlif formalarının inkişaf etdirilməsi prosesində Azərbaycanın qarşılaşdığı əsas problemlərdən biri maliyyə-kredit məsələsidir. Xarici ölkələrin (ABŞ, Almaniya, Cənubi Koreya

Yaponiya) təcrübəsi göstərir ki, innovasiya sahibkarlığı dövlət tərəfindən maliyyələşdirilir. Bununla əlaqədar, Azərbayçandş^ innpyasiya sahibkarlığının yaradılması və inkişaf etdirilməsi respublika hökuınətinin məqsədyönlü fəaliyyəti olmadan qeyri-mümkündür.

## 4.4.Maliyyə resurslarının daxil olunması və Azərbaycanın xarici borcları

Maliyyə resurslan - dünyanın daha da qloballaşdınl- mış iqtisadi resurslarıdır, belə ki, onlar inkişaf etməkdə olan ölkələrə və SSRİ dağıldıqdan sonra, iqtisadi keçid ölkələrinə kreditlər, boclar və qrantlar formasmda maliyyə yardımı göstərən dünyanın ən iri beynəlxalq maliyyə mərkəzlərində və donor-ölkələrdə cəmlənirlər.

Azərbaycan faktiki olaraq, 1994-cü ildən başlayaraq beynəlxalq maliyyə-kredit təşkilatlanndan yardımlar alır. Həmin dövrdən AR Maliyyə Nazirliyinin 1 yanvar 2003- cü il təşkilatları və bir sıra dohör-ölkələrin Bankları ilə dövlətin zəmanəti altında 1937,8 mlrd, dollar məbləğində kredit razılaşmalan imzalanmışdır. Həmin məbləğdən 1259 mlrd, dolları nazirliklər, dövlət konsernləri və respublikanın şirkətləri tərəfindən alınmışdır. Keçən dÖvr ərzində 96 mln. dollar və ya bir faizdən de az hissə qaytarılmışdır.

Maliyyə yardımlanmn, xüsusilə de xaricdən kommersiya şərtləri ilə alınmış borclar, kreditlər və ssudalann haqqları hökmən ödənilməlidir. Xarici borc və ya Ölkələrin xarici borcları bu şəkildə yaranır. Milli iqtisadiyyat üçün xarici borlann ağırlığı müxtəlif göstəricilərlə, o cümlədən xarici borcun məbləğinin borclu ölkənin ümumi daxili məhsuluna münasibəti ilə

müəyyən edirlər. Azərbaycanın 1 yanvar 2003-cü il tarixə olan xarici borcu ümumi daxili məhsulun 23,2 % təşkil etmişdir.’ Ukraynada bu nisbət 11%, Rusiyada 38% təşkil edir. Nisbətin 80 %-i ötməsi təhlükəli hesab edilir.^ Xarici borcun ağırlığı həm də xarici bocun xidmət məbləğinin bu ölkədən ixrac edilmiş əmtəələrin və xidmətlərin həcminə nisbəti ilə müəyyən edilir. Həmin müqayisə göstəricilərinə əsasən Azərbaycan uzun müddət ixracdan eldə etdiyi bütün gəlirləri xarici borcların ödənilməsinə yönəltməlidir. Həmin göstərici Azərbaycanın özünün ixrac daxil olunmalarının hansı hissəsinin xarici borca xidmətə sərf edildiyini adətən rəsmi şəkildə əks etdirir. Dünya təcrübəsində 200 % (2 il) təhlükəli hesab edilir.^

1994-2003 cü illər ərzində struktur yenidənqurmaya kreditlər şəkilində Azərbaycana xaricdən daxil olunmuş maliyyə vəsaitləri aşağıdakılardan ibarət olmuşdur:

- kredit - CT<J) (beynəlxalq Valyuta Fondu) - 88,9 mln.dol;
- kredit-Stend-bay-90,0 mln.dol.(BVF);
- reabilitasiya krediti-61,0 mln.dol. (Beynəlxalq İnkişaf Assosiasiyası);
- kredit SAK-70,0 mln.dol (BİA);
- institusional kredit-18,0 mln.dol. (BİA);
- kredit **ESAF-129,2** mln.dol.(BVF);
- kredit EFF-78,0 mln.dol. (BVF);
- kredit SSFF-78,0 mln.dol (BVF),

1994-2003 cü illər ərzində yekundə Azərbaycana struktur yenidənqurma üçün 588,8 mln.dollar ayrılmışdır.

**Financy news, 8 may 2003**
**“ А.С.Булатов, «Мировая Экономика». М., 2001, soh.218. ^**
**Yeno orada**

*Cədvəl* 7

tərəfindən Azərbaycana təqdim İlmiş kreditlər.’

| № | I^yihonin adı | Kreditin məbləği | Kreditin faizi | Qaytanlm İŞ borcun məbləği | Borc qalığı | Kreditləri alanlar |
|---|---|---|---|---|---|---|
| 1 | Beynəlxalq Valyuta Fondu fBVF) | 46,25 | 3-4,5 | 68,6 | 3699 | Azərb.Respub. Milli bankı |
| 2 | Umumdünya Bankı (ÜB) | 157,1 | 0,75 | 0,0 | 150,3 | Maliyyə Nazirliyi |
| 3 | İnvestisiya layihələrinə beynəlxalq maliyyə-kredit təşkilatlannın güzəştli kreditləri | 24,00 | 0,75 | 0,0 | 77,9 | Müxtəlif nazirliklər Azərb.Respub. dövlət şirkətləri |
| 4 | İslam inkişaf bankı vo Küveyt Fondu | 59,3 | Faizsiz | 0,0 | lU | Melorasiya komitələri və «Azəravtoyol» |
| 5 | Almaniya Bakı (KFV) | 58,5 | 0,75 | 0,0 | 31,7 | «Azal» və «Azərenerü» |
| 6 | Kənd təsərrüfatmın inkişaf fondu | 18,0 | 0,75 | 0,0 | 3,3 | «Agentlik» |
| 7 | Yaponiya Beynolxalq əməkdaşlıq Bankı | 426,5 | 0,75-2,5 | 0,0 | 120,4 | «Azərkimya» vo «Azər- cneıji» dövlət konsernləri |
| 8 | Avropa Yemdənqurma və inkişaf Bankı (AYİB) | 148,0 | Libort 1% | 15,6 | 84,6 | «Azal» və «Azər-dəmiryol» |
| 9 | Türidyənin Eksimbankı | 94,0 | Libor+ 3% | 3,6 | 90,4 | «Azal» |
| 10 | Britaniya banklar qrupu | 16,1 | 7,27% | 5,8 | 10,3 | «Azal» |
| 11 | İslam inkişaf Bankı (İİB) | 12,5 | 8% | 0,0 | 4,3 | Migəçevir HES |
| 12 | Kommersiya bankları | 216,6 | Libor+- 2,25% | 2,3 | 180,3 | «Azəıencıii» və «Azal» |
| Yekun | | 1937,8 | | 96,0 | 1162 | |

**‘ Azərbaycan Respublikası Maliyyə nazirliyinin 1 yanvar 2003-cü il tarixə olan məlunıatlan.**

Azərbaycana güzəştli faizlə (0,75) kreditlər Beynəlxalq Valyuta Fondu, Ümunadünya bankı. Beynəlxalq maliyyə-kredit təşkilatlan, Almaniya bankı KFF və Yaponiya Beynəlxalq İnkişaf Bankı tərəfindən təqdim edilmişdir. Azərbaycan İslam inkişaf bankından faizsiz kredit almışdır. Bütün bu güzəştli kreditlər iqtisadiyyatm yönəldilmişdir. Xaricdən daxil olunmuş maliyyə vəsaitlərinin iki anını ayırmaq lazımdır:

birincisi-xariei yardımların istifadə edilməsi özünün iqtisadi siyasəti ilə yardım göstərənin tövsiyyələrinin razılaşdırılması zərurəti ilə və həm də xarici borclann artması ilə əlaqədardır;

ikincisi-kommersiya şərtləri ilə xaricdən borcların alınması, iqtisadi tövsiyyələrdən az asılıdır, lakin xarici borcun həcminin artmasına gücü təsir göstərir.

Rəsmi məlumatlara əsasən, Azərbaycanm ən iri kreditoru digər ölkələrlə müqayisədə bu gün Yaponiya hesab edilir. Kreditlərin ümumi məbləğindən onun payına 426,5 mhı və ya 22 % düşür. Həmin məqsədli kreditlər «Şimal» HES, buxar generator qurğusunun (EP-300) tikintisinə və s. kimi miqyaslı layihələr üçün nəzərdə tutulmuşdur.

Azərbaycan hökumətinin hansı çətinliklərlə həmin bordan qaytarmasını düşündükdə, nəticə çıxarmaq lazımdır ki, borclar qaytarılmalıdır.' Bir az əvvəl Azərbaycana gəlmiş Türkiyənin dövlət naziri Abdulxalıq Çay Azərbaycanın ödənilməmiş borclarını yada salmışdır. Türkiyənin Eksimbankı tərəfindən verilmiş 94,0 mln. dollann Azərbaycan yalnız 3,6 mln. dollannı qaytarmışdır.

Bütövlükdə, artmaqda olan borclar ona gətirib çıxara bilər ki, yeni alınan xarici borclarm əksər hissəsi əvvəllər alınmış borcların, kreditlərin və sudalann ödənilməsinə yönəldilərək, ölkə borc dağanağına düşə bilər.

**' Внешний долг Л'}ербайджана растсгг. «ЭХО» 5 noyabr 2001.**

# Fəsil 5. Milli təbii resurslar bazası əsasında Azərbaycanın dünya bazarına çıxış imkanları

## 5.1. Yanacaq>energetika kompleksinin, kimya və neft-kimya sənayesinin prioritetləri

Zəngin təbii-xammal bazasmm-neft və qazın, alunit və dəmir filizlərinin, tikinti və digər material ehtiyyatları- nın, su və torpaq resurslarmm kifayət qədər olması Azərbaycan Respublikasında sənaye və kənd təsərrüfatı potensialının inkişafına şərait yaratmışdır.

Hal-hazırda Azərbaycanm ümumi milli məhsulunun 55%-ə yaxın sənaye sferasında yaradılır. Ölkə özünün tələbatım təmin edən, əhəmiyyətli dərəcədə ixrac potensialı olan, inkişaf etmiş neft-qaz çıxarma və kimya kompleksinə malikdir.

Sosialist Azərbaycanının sənaye potensialının beşdə bir hissəsini maşmqayırma kompleksi və onun mütərəqqi sahələri olan neft və kimya maşınqayırması, radioelektro- nika və cihazqayırma təşkil edirdi. Bu sahələrin ixrac məhsulları sırasına elektromühərriklər, kabel məhsulları, avtomexanizm vasitələri, məişət kondisionerləri, soyuducular və s. daxil idi. Ayaqqabı, trikotaj və toxuculuq məmulatları, şüşə və farfor qablar, xalçalar və s.. kimi istehsal edilmiş istehlak əmtəələrinin çeşidləri də geniş idi.

Beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının, ilk növbədə Beynəlxalq Valyuta Fondunun, Dünya inkişaf və yenidənqurma Bankının, Avropa bankının iştirakı ilə hökumət tərəfindən sənaye sahələrini, kənd təsərrüfatını, nəqliyyatı, vergi, pul, qiymət siyasətini, xarici iqtisadi əlaqələrin geniş şəkildə liberallaşmasını, iqtisadi islahatların apanidığı dövrlərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi üzrə tədbirlərin qəbul edilməsi ilə makroiqtisadi

stabiüiyə nail olunmasını əhatə edən və onlarm həyata keçirilməsini ardıcıl surətdə həyata keçirilməsini təmin edən strategiya və taktika işləndi.

Müstəqilliyin ilk illərində xüsusi sektorun inkişafı, müəssisələrin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, sonra çoxukladlı iqtisadiyyatın yaradılması üçün münasib hüquqi mühitin olmasına yönəldilmiş struktur islahatlara xüsusi əhəmiyyət verilir.

Respublikamızın digər ölkələrlə geniş surətdə qarşı> lıqh əməkdaşlığı, dünya iqtisadiyyatına ardıcıl inteqrasiyası üçün əsas yaradan mülkiyyət, özəlləşdirmə, banklar, xarici investisiyaların müdafiəsi haqqında qanun artıq Azerbaycanda qəbul edilmişdir.

Bununla belə, Azərbaycanın iqtisadiyyatı SSRİ dağıldıqdan sonra dərin inteqrasiya etmiş təsərrüfat, ticarət, maliyyə və Birlik ölkələri ilə funksiyalaşdınimış dəmir yolu kompleksinin qınıması ucbatından böyük çətinliklər dövrünü yaşayır.

Bazar iqtisadiyyatma keçid dövrünün mühüm problemlərindən biri də böyük aqrar və sənaye potensialına malik olan 20 % - dən artıq ərazilərin işğal altında olması, 1 mln.-dək qaçqınlann yerləşdirilməsi üçün böyük miqdarda maliyyə və maddi resursların ayrılması zərurətinin yaranmasıdır.

Respublika təbiidir ki, mövcud vəziyyətdə, xüsusilə baza sahələrinin struktr yenidənqurulması, ixrac potensialının yüksəldilməsi, işğal edilmiş erazilərdə müharibə nəticəsində tamamilə dağıdılmış iqtisadiyyatın bərpa edilməsində beynəlxalq təşkilatlann və Dünya ictimaiyyətinin yardımı olmadan təkbaşına bu işlərin öhdəsindən gələ bilməz.

Son 14 ildə blokada şəraitində olan, Azərbaycanla kommunikasiya, dəmir yolu, magistiral şəbəkələr, qaz və enerji təchİ7.atı əlaqələrinin flınksiyalaşmasmın mümkün

olması və s. səbəblərdən ağır vəziyyətdə olan Naxçıvan Muxtar Respublikasmın (əhalisinin sayı 300 mindən çoxdur) inkişaf etdirilməsi vacib strateji məsələlərdəndir. Həmin səbəblərə görə praktiki olaraq sənaye müəssisələrinin flmksiyalaşması mümkün olmur və əhalinin gündəlik tələbat malları ilə təminatı daha da çətinləşir.

Ona görə də Naxçıvamn özünün energetika bazalarının inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi mühüm məsələlərdən biri hesab edüir. 90-cı illərin ortala- rmda «Azərenerji» Dövlət konserni^ tərəfindən muxtar respublikamn elektroeneıjiyə olan tələbatmm 30 % - in ödənməsini nəzərdə tutan, 39 mvt gücə malik Ordubad HES-in tikintisinin texnİki-iqtisadi əsasları işlənmişdir. Buna paralel olaraq Arpaçay HES-in (12 mVt) və Vayxır HES-in (4,7 mvt) tikintiləri nəzərdən keçirilir. Bu obyektlərin ümumi dəyərləri 92 mln. ABŞ dolları məbləğində qiymətləndirilmişdir.

Bundan başqa, nəzərdə tutulmuş neft emalı zavodunun tikintisini, Naxçıvan şəhərinin əhalisinin istiliyilə təmin edilməsini nəzərdə tutan, ümumi məbləği 140 mln. ABŞ doUan təşkil edən, hərəsi 35 mVt olan 4 eneıji bloku qurğularmdan ibarət Naxçıvan istilik elektrik stansiyasımn tikintisi nəzərdə tutulmuşdur.

Abşeron sənaye qovşağımn etibarlı şəkildə eneıji ilə təmin edilməsi məqsədi üə «Azərenerji» Dövlət Konserni tərəfindən PQU tipli müasir buxarqaz eneıji bloku qurğusu ilə «Şimab> HES-in yenidənqurulması başa çatdırılımş- dır ki, buda əlavə olaraq 3,5 mlrd. kVt/saat elektrik eneqi- sinin istehsalına imkan verir.

«Azərenerji» Dövlət Konserni tərəfindən həm də Azərbaycanda istilik sistemlərinin persrektiv inkişaf proq- ramımn işlənməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar

**' Hazırda «Aəzrencji» JDövlət konserni təşkilatı yenidənqurma nəticəsində Sənaye və Energetika Nazirliyinin tərkibinə daxil edilmişdir.**

oIaraq[, Bakı şəhərinin istiliklə təmin edilməsi məqsədi ilə Bakı lES'l də iki qazan aqreqatlanmn, buxar turbinlərin və gücləri saatda 1200 ton olan sıxıcı qurğulann tikilməsi məsələsi qaldırılmışdır.

Metallurgiya sənayesi müəssisələrinin enerji ilə etibarlı şəkildə təmininin gücləndirilməsi, elektrik enerjisi itksinin azaldılması üçün ingilis firması «Britiş Kayzer tn- jenerinq» tərəfindən yeni qazan aqreqatının və buxar turbinlərin qurulması ilə Sumqayıt İES-1 in rekonstruksiyası haqmda texniki şərtlər işlənmişdir. Layihə hesablamalan İES-in gücünün 115 mVt artırılmasını və əlavə olaraq 500 mln. kVt/saat eletrik enerjisinin işlənməsinin təmin edil- cəyini göstərir.

Azərbaycanın xalq təsərrüfatının elektrik enerjisi ilə təmin edilməsi və eneqi sistemlərinin maksimum dərəcədə yüklənməsi şəraitinin yaxşılışdınimaması üçün «Azəreneqi» Dövlət Konserni tərəfindən Mingəçevir HES-in gücünün 360 mVt-dan 420 mVt-dək artıniması üçün texniki yenidənqurmanın texniki-iqtisadi əsaslan işlənmişdir və bu da elektrik enerjisinin əlavə olaraq 300 mln. kVt/saat işlənməsinə imkan verəcəkdir.

Respublika sənayesində ümumi həcmin 10 % - ə yaxınını təşkil edən kimya sənayesi əsasən özünün neft və qaz resurslanna əsaslanır.

Ancaq müəssisələrin məhsullann yalnız 30%-i son hesab edilir, qalanları isə xammal və yanmfabrikat şəkilində yenidən emal üçün MDB-in digər regionlanna daşımrdı. Sahələrin müstəqil funksiyalaşdırmasmm və son məhsulun payının artırılması məqsədi ilə polipropi- len, polietilen, benzol, etilbenzol, polivinilxlorid kimi po- limer materialların buraxılışı üzrə yeni istehsallarm yaradılması zəruridir. Bunlan nəzərə alaraq Azərbaycan müstəqilliyinin artıq ilk illərində xarici şirkətlərə özünün təbii resurslarmm bazası əsasında Sumqayıt şəhərində kimya

sənaye zavodlarının nıaliyyələşdirilməsi təklifini irəli sürdü. Çünki Azərbaycan başa düşürdü ki, kimya sənayesinə maliyyə-texniki yardımm göstərilməsi dünya baza- nnda qeyri-məhdud tələblə, istifadə edilən yüz milyonlarla dollar məbləğində rəqabət qabiliyyətli məhsulların buraxılmasına imkan verəcəkdir.

Azərbaycan tərəfindən xarici şirkətlərə Bakı şəhərindən kənarda 100 mln.dollar məbləğində, istehsal gücü 2,5 mln ədəd şin olan Bakı şin zavodunun tikintisi layihəsini də təklif etmişdir. Radial konstruksiyalarla yüngül, yük avtomobilləri və kənd təsərrüfatı maşınları üçün müasir şinlərin istehsalı nəzərdə tutulur;

- 150 mln. dollar məbləğində istehsal gücü 100 min ton olan dixloretan vinilxlorid-polivinilxloridin istehsalı üzrə kopleksin tikintisi. Polivinilxlorid isteh- salımn ümumi həcmindən 50% - i hazır məmulatların il ərzində: boru-5,0 min ton, tikinti məmulatları-
  40.0 min ton, plyonka 5,0 min ton emallan üçün nəzərdə tutulmuşdur.
- gücləri 300 ton/saat su və 140 atm-250 ton/saat buxar olan Sumqayıt EP-300 kompleksi üçün sularm istehsalı üzrə enerji blokunun tikintisi;
- məbləği 140,0 mln.dollar, il ərzində istehsal gücü 100.0 min ton olan polipropilen istehsalı. Liflərin, plyonkalann, borularm, butilkalarm, avtomobil sənayesinin, təsərrüfat mallarmm və s.-in istehsalında istifadə edilir.

Respublikamn xalq təsərrüfatı üçün yanacaq-energetika kompleksinin yenidənqurmasında yardımların və texniki əməkdaşlığın böyük əhəmiyyəti vacibdir.

İl ərzində 20 mln. tona qədər neftin emal üzrə istehsal gücünə malik olan, Azerbaycanm neft emalı kompleksinin modernləşdirilməsi və yenidən qurması üzrə konkret tədbirlər planı işlənmişdir. Ancaq buraxılan neft məhsullan-

nın ümumi həcmindən yalmz 40 %-i mühərrik növlü yanacaq, 6 -7 % - sürtkü yağlan, 10 %- digər neft məhsulları, qalan 40% - i isə mazut təşkil edir.

Bununla əlaqədar olaraq ARDNŞ tərəfindən aşağıdakı layihələrin maliyyələşdirilməsi təklif edilir:

1. «Azəmeftyanacaq» NEZ-un yenidənqurmasma və genişləndirilməsinə - 600 mln. ABŞ doUar məbləğ.
2. «Azəmeflyağ» NEZ-un yenidənqurmasma və ge-nişiəndirilməsinə-600 mln. ABŞ dollar, məbləğ.

Bu layihələrin reallaşduilması sürtkü yağlannm və müxtəlif növ mühərrik yanacaqlanmn 75-80 faizədək son məhsul kimi artmlmasma və onlarm keyfiyyətlərinin dünya standartlan səviyyəsinədək yüksəldilməsinə imkan verəcəkdir.

## 5.2. MetaUurgiya sənayesinin prioritetləri

Özünün xammal resurslan əsasında ( hazırda Azərbaycan 240 mln,tona yaxm alunit filizinə, 100 mln. tondan artıq yanmmetallara və zəngin nadir metal ehtiyatlanna malikdir) əlvan metallurgiya sahələri yaradılmışdır. Respublika 400 min tondan artıq həcmdə gil-torpaq və 55 min tondan artıq alümimumun istehsalları üzrə güclərə malikdir.

Azərbaycamn təbü sərvətləri bazasmda bu sahələrin yenidənqurması və modernləşdirilməsi üçün aşağıdakılar təklif edilir:

- «Sumqayıtəlvan metal» istehsal birliyində alüminium zavodunun istehsal gücünün il ərzində 100 min tonadək çatdınlması ilə 240 nün. dollar məbləğində elektroİLZ prosesinin yenədənqurulması;
- «Sumqayıtəlvanmetal» istehsal birliyində istehsal gücü 70 min ton və məbləği 150 mln. dollar olan anod kütlələrinin istehsalımn təşkil edilməsi. Bu la-

yihələrin texniki-iqtisadi əsaslan «Kayzer mjiniring» Britaniya firması tərəfindən işlənmişdir, lakin maliyyə mənbələrinin olmaması səbəbindən bu obyektlərin tikintisi apanlnoar;

- Gəncə gil-torpaq kombinatında iri dənəvar gil torpağm istehsalı üçün gil-toıpaq sexinin yeni dənqumlması. Bu il ərzində gü-torpaq istehsalım 250 min tonadək artınlmasma imkan verəcək. Obyektin dəyəri 70 nün. dollar təşkü edir. Texniki məsələlər «Kayzer mjiniring» firması tərəfindən işlənmişdir.
- Gəncə gü-torpaq kombinatmda suyun təmizlənməsi üçün gücü üdə 100 min.ton olan ağ şİakdan alman koaqulyant istehsalı. Obyektin dəyəri 25 mln. dollardır. Bu layihənin reallaşması hazırda valyuta ilə Ukraynadan və Rusiyadan gətirilən kaoqulyant ilə respublikanı tamamilə təmin etməyə imkan verəcək.
- Ekologiya və Təbii sərvətlər Nazirliyi respublikada mövcud olan yataqlann bazası əsasmda qızü, gümüş və digər nadir metallarm istehsalı üzrə layihələr təklif edir. Bütün kompleks işlərin məbləği 153 mln. dolara yaxm qiymətləndirilir.

İqtisadi əlaqələrin pozulması səbəbindən keçmişdə illik istehsalı 700 min ton olmuş Daşkəsən dağ-mədən kombinatmda demək olar ki, dəmir filizinin çıxarılması dayandınimışdır. Əsas buraxılan məhsul-tərkibində 60,3 % dəmir filizi olan konsentratdır. Filizin balans ehtiyatı 230 mln.ton təşkil edir.

«Metallurgiya» Dövlət konserni aşağıdakı sahə obyektlərinin maliyyələşdirilməsini təklif edir:

- Daşkəsən şəhərində il ərzində 1,2 mln. ton həcmində yüksəkkonsentrantlı dəmir filizinin alınması üçün diğ-mədən kombinatmm yenidənqurması;
- Daşkəsən dağ-mədən kombinatmda istehsal gücü il ərzində 1,0 mln. ton dəmir filizindən ahnması istehsalı üzrə fabrikin tikintisi;

- Sumqayıt şəhərində istehsal gücü il ərzində 800 min. ton olan «Azərboru» istehsal birliyində demirin birbaşa bərpası qurğusunun tikintisi;
- Sumqayıt şəhərində istehsal gücü il ərzində 1,2 mln. ton olan, «Azərboru» İB-də elektrik poladəritmə sexinin tikintisi.

Bütün bu obyektlər üzrə texniki təkliflər «Ferrostab> alman firması tərəfindən işlənmiş lakin maliyyə mənbələrinin olması səbəbindən bu prioritet layihələrin reallaşdırılması dayandınimışdır.

Respublikada özünün kiçiktonnajlı avtomobillərin, avtobusların, mühərrik və onlara aid olan ehtiyat hissələrinin istehsalma ehtiyac vardır. Hazırda bunlar valyuta hesabına digər dövlətlərdən alınır. Ona görə də aşağıdakı layihələrin reallaşdırılması üçün maliyyələşdirilmə təklif olunur:

- istehsal gücü ildə 1000 avtomobil olan Gəncə avtomobil zavodunda kiçiktonnajlı avtomobil və mikro- avtobuslarm istehsalı;
- Respublikanm maşınqayırma zavodlarmm birində avtomobil mülıərriklərinin istehsalınm və il ərzində 1000-ə qədər avtomaşın istehsal etmək üçün Bakı avtomobil zavodunda yük avtomaşınlarmm və avto- buslann istehsalımn təşkil edilməsi.

## 5.3. Emal, yüngül və yeyinti sənayelərinin prioritetləri

Daxili maliyyə resurslarmm çatışmazhğı, sənayenin yenidənqurulması gedişində müasir texnika və texnologiyalardan istifadə edilməsi zərurəti xarici investisiyalann. Azərbaycan iqtisadiyyatmm emal, yüngül və yeyinti sənayelərinə, o cümlədən «kənd təsərrüfatı maşınqayırması» sahələrinə cəlb edilməsini şərtləndirirdi;

- Mingəçevir şeherində fəaliyyətdə olan yol maşınlan zavodunda «Piab> italyan finnasınm lisenziyası əsasında orta dərəcəli traktorların istehsalı. Hazırda həmin zavodun bazası esasmda «Qoç xoldinq» türkiyə firma sımn iştirakı ilə birgə müəssisənin yaradılması haqqında damşıqlar aparılır. Bu layihənin reallaşması respublikamn kənd təsərrüfatında kəskin ehtiyac duyulan ildə 1000 ədəd müasir traktorlarm istehsal edilməsinə imkan verəcəkdir. Layihənin qiymət də-yəri-25 mln. dollardır;
- İstehsal gücü ildə 25 mln. ədəd olmaqla Bakı pod-şipnikzavodunun texniki yenidən qurması. «Azərsənayetikintimateriallan» Dövlət Konserni üzrə;
- Naxçıvan şəhərində gücü 100 mln. butulka olmaqla şüşətara zavodunun genişləndirilməsi. Layihənin qiymət deyeri-36 mln. dollar;
-Gəncə şəhərində şüşətara zavodunda texniki ava-danlıqlarm quraşdırılması ildə 350 mln. şüşə qabla-ristehsal etməyə imkan verə bilər. Layihənin deyər qiymeti-54 mln.dollar;
- Sumqayıt şəhərində şüşə zavodunun yenidən qurulması. Bu layihənin reallaşdırılması respublikanın tikinti kompleksinin kəskin şəkildə ehtiyacı olan 7,5 mln. kv.m. həcmdə şüşə lövhələrin buraxılışınm həyata keçirilməsinə imkan verə bilər;
-illik istehsalı 150 min sanitar-texniki cihazlar və 1,3 mln. kv.m. kafellər olan Bakı Asbestsement və Keramik məmulatlar Kombinatınm modemleşdirilmesi. Hazırda «Nassetti» italiyan firması ilə birgə müəssisənin yaradılması haqqmda danışıqlar apanlır.

Respublikada əsasən özünün xammal resurslanna əsaslanan çoxsahəli yüngül sənayeyə malikdir. Ancaq, buraxılan məhsulların yandan çoxunu xammallar, yarım-

fabrikatlar, və aralıq məhsullar təşkil edir. Respublikada il ərzində istehsal olunan 150-200 min. pambıq liflərindən yalnız 15-20 % - i emal edilərək, son məhsuladək çatdm- lır, nəticədə resrublika küllü-miqdarda valyuta itkisinə məruz qalır.

Aqrar sektorun bazası əsasında aşağıdakılar mümkündür:

- Respublikanm müxtəlif regionlarmda ümumi istehsal gücü ildə 56 min ton iplik olan, 8 pambıqəyirmə fabriklərinin tikintisi: Layihənin məbləği 110 mln. dollar təşkil edir. Bununla yanaşı, layihənin reallaşması 5 nün nəfərin işlə təmin edilməsinə imkan verəcəkdir;
- “ İstehsal gücü il ərzində 83,3 mln. kv.m. hazır parça verən Mingəçevir şəhərində boyaq-tamamlama fabrikinin tldntisi 50 mln. dollar məbləğində qiymətləndirilmişdir;
- İl ərzində 2,5 min ton məhsul istehsal edən tibbi pambıqlarm və sarğı məmulatlannm buraxılması üzrə Bakı şəhərində fabriklərin tikintisi. Tikintinin smeta dəyəri-30 mln. dollardır.

«Azəryeyintisənaye» Dövlət konserni tərəflndən öz xammal resursları bazasmda ətriyyat və kosmetik məmulatlarm istehsalı üçün avadanlıqlarm alınması və quraşdınlması layihəsi təklif olunur. Layihənin məbləği-25 mln. dollardır.

## 5.4. Aqrar sektorun prioritetləri

Bu sahə Azərbaycan iqtisadiyyatmda vacib rol oynayır. Onun payma ümumi milli məhsulun 40 %-i düşür və burada respublikanm ümumi işçi qüvvələrinin üçdə biri çalışır. Azərbaycamn 9 aqro-ekoloji zonalara malik olması

kənd təsərrüfatının zəngin spektrdə inkişa&ı təmin edir. Onlara daxildir: pambıq, üzüm, geniş çeşiddə meyvə və terəyə:^ tütün, çay və s. Eзmi zamanda aqrar sektorun illərlə mövcud olmuş strukturu hazırda respublika əhalisini özünün ərzaq resurslannm istehsalı ilə təmin edilməsinə imkan vermir.

SSRİ-in dağılması, həmdə valyuta vəsaitlərinin son dərəcə məhdudluğu səbəbindən, əhalinin ritmik şəkildə ərzaqla təmin edilməsində respublika böyük çətinliklərə məruz qalrmşdır.

Taxıl istehsalmm artmiması, heyvandarlığm yem bazasımn genişləndirilməsi, şəkər qamışı əkinçiliyinin əsasının qoyulması və s. üzrə aqrar sektorun stmkturlarmm təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirilir, lakin bütün buplş^ra hpytik vaxt tələb olunur.

, Aqrar sektordi^ Respublikanm böyük texniki yardımlara ehtiyacı vardır. O cümlədən:

- Naxçıvan, Salyan və Şəki şəhərlərində sutka ərzində 3750 ton ümumi emal gücünə malik olan 3 qən- nadı zavodun tikintisi. Bu layihələrin məbliği 145 mln. dollar təşkil edir. Kənd təsərrüfat nazirliyi həmin tikintilər haqqmda Çin, Pakistan, Fransız, Türkiyə və digər ölkələrin finnalarlı ilə damşıqlar apanr;
- Meliorasiya və su təsərrüfatı komitəsi uzunluğu 201,2 km, smeta dəyəri 206,6 mln. dollar olan Samur-Abşeron kanalmm yenidənqurmasına və respublikamn bütün regionlannda su anbarlan və irriqasiya tikililəri üzrə kompleks investisiya layihələrinIQ maliyyələşdirilməsmi təklif etmişdir. Bu tədbirlər əlavə olaraq əkinçilik üçün yararlı 2 sahələrin 226 min ha artmasma və ümumi tutumu 525 mln. küb m. olan su abarlarmm fəaliyyətinə imkan verir. Həmin proqramlarm reallaşması yaxm; 5. ildə pambığm-475

min.t. taxılın-375 min.t., tütünün-11,8 min.t., tərəvəz və bostan bitkilərinin-350 min.t., çay yaıpağmm-9,6 min.t., o cümlədən, süd və heyvandarlıq məhsullan-nm: ət-37 min.t., süd-322 min.t., yumurta-32 mln. ədəd və digər kənd təsərrüfatı məhsullarmm artımına imkan verəcəyi güman edilir.

Dünya Bankımn ekspertləri Abşeron yarmadasınm su ilə ritmik şəkildə təmin edilməsi üçün I və II Kür, Ceyranbatan su kəmərlərinin və su paylaşdıncı sistemlərin yenidənqurması üzrə proqram işləmişlər. Lakin, bu proqram Bakı şəhərinin əhalisinin tam şəkildə ekoloji təmiz içməli su ilə təmin edilməsi problemini həll etmir.

Qeyd etmək lazımdır ki, artıq 1970-ci illərdə III Bakı su kəmərlərinin tikintisi üzrə işlər başlanmış, lakin maliyyə vəsaitlərinin çatışmazlığı səbəbindən işlər dayandırılmışdır.

Azərbaycanda bu problemlərin aktuallığım və respublikada suya tələbatm artım tendensiyalarmı nəzərə alaraq, belə hesab edilir ki, əkinə yararlı sahələrin deyil, yalnız suyun kifayət qədər olmaması əhalinin qida məlulları ilə tam təmin edi^əməsinin əsas səbəbidir. Bununla əlaqədar, respublikada su resurslanndan səmərəli istifadəedil- məsini təmin və ilk növbədə sularm nəqli zamam onlarm itkisinin qarşısım almaq lazımdır. 164 İon uzunluğu olan Bakı su kəməri bu xəstəliyə düçar olmuşdur. Onun yenidenqurulmasım Omumdünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı maliyyələşdirir.

## 5.5. Sosial təminat obyektləri və infrastrukturlar üzrə prioritetlər

1986-cı ildən Bakı şəhərində 3 nadir səhiyyə obyektlərinin-Onkoloji və Oflolmologiya mərkəzlərinin və təcili

yardım stansiyasının tikintisinə başlanmışdır. Bu obyektlərin tikintisinə yüksək səviyyədə hazırlıq işləri apanlma- sına baxmayaraq, valyuta vəsaitlərinin təmini mənbələrinin və müasir tibb avadanlıqlanmn olmaması səbəbindən onlarm istismara verilməsi mümkün olamamışdır.

Respublikanın əhalisi üçün bu obyektlərin hədsiz zəruriliyini nəzərə alaraq, xarici investorlara aşağıdakı layihələrin maliyyələşdirilməsi təklif olunur:

- avadanlıqlarm ahnması və qurulması ile 300 çarpayalıq Onkoloji mərkəzin tikintisinin tamamlanması. Qiymət dəyəri 64,0 min. dollardır.
- 750 nəfər xidmət göstərən 314 çarpayılıq Oftolmo- loji mərkəzin tikintisinin tamalanması. Qiymət dəyəri-38,0 mln. dollardır.
- 300 çarpayılıq təcili yardım stansiyasının tikintisinin tamamlanması. Qiymət dəyəri-50,0 mln. dollar.

Bundan başqa, Xəzər dənizi sahillində Yalama- Nabran rayonunda bütün infrastrukturlan ilə sanatoriya kompleksinin tikintisinin maliyyələşdirilməsi məsələsinin nəzərdən keçirilməsi təklif edilir. Layihənin dəyəri-200 mln. dollar güman edilir.

Hazırda Azərbaycanda fəaliyyətdə olan telekommunikasiyalarm infrastnücturlan artmaqda olan müasir tələblərə cavab vermir. Xidmət keyfiyyətləri aşağı səviyyədədir. Belə ki, avadanlaqlarm əksər hissəsi 25 ildə artıq xidmət müddətində mənəvi köhnəlməyə məruz qalmışdır. Rabitə Nazirüyi* respublikanm kommunikasiya şəbəkələrinin təkmilləşdirilməsi məqsədi ilə 1996-2005-ci illər ərzində Azərbaycanın telekommunikasiyasmm inkişafınm Dövlət Proqrammın maliyyələşdirilməsim təklif etmişdir. İşlərin ümumi həcminin məbləği-350 mln. dollardır.

*** indiki İnformasiya Texnologiyaları və Rabitə Nazirliyi**

Azərbaycanın özünün tələbatının kifayət qədər təmin edilməsi üçün geniş inkişaf etmiş nəqliyyat infrastrukturlarına malikdir (dəniz, hava, dəmir yolu və avtoneqliyyat, metropoliten). Ancaq onun əksər hissəsi köhnəlmiş və hazırda respublikada mövcud nəqliyyat kommunikasiyaları- mn texniki yenidənqurulmasma kəskin zərurət vardır. Buna xəzər dənizində və Qara dəniz gəmiçiliyində vacib mövqeyə malik olan III Bakı dəniz limanım daxil etmək olar. Azərbaycanda, Qazaxstanda və Türkmənistanda energetika resurslarmm inkişaf layihələrinin həyata keçirilməsi başlanan andan və uyğun olaraq dəniz nəqliyyatının fəallaşması, xarici investisiyalarm cəlb edilməsi ilə təcili surətdə limanm yenidənqurulması və genişləndirilməsi zərurətini ortaya çıxarır.

Azərbaycanm xarici iqtisadi əlaqələrinin inkişafı beynəlxalq hava yollarm şəbəkələrinin inkişaf etdirilməsini tələb edir. Ancaq, fəaliyyətdə olan hava limanınm maddi-texniki bazası orta səviyyəli təminata malikdir. «Hava nəqliyyatı» proqramınm, o cümlədən aerovağzallann genişləndirilməsi, yük terminalmm tikintisi, təyyarə parkla-rmm idarə edilməsi və yeniləşdirilməsinin reallaşdınlma- sı üçün 887 mln. ABŞ doilanndan artıq həcmdə artıq həcmdə investisiyalar tələb olunur. Xarici iqtisadi əlaqələrin inkişafinm artması, vaxt müddətinin və maliyyə vəsaitlərinin məhdudluğu ilə əlaqədar aviaxətləıə tələbatm artması ona gətirib çıxartdı ki, respublika özünün qüvvəsi ilə bu layihəni tamamlaya bilmədi.

Azərbaycan iqtisadijo^atı üçün beynəlxalq hava limanının xüsusi vacibliyini, münasib coğrafi mövqeyini və kreditlərin qaytanimasınm səmərəliliyini nəzərə alaraq. Beynəlxalq Valyuta Fondu, Avropa inkişaf və Yenidənqurma Bankı, Almaniya İnİkişaf Fondu və Türkiyənin Ek- simbankı 60 nün. dollardan artıq məbləğdə ümumi gücü

saatda 1700 sərnişinə xidmət edən 4 terminaldan ibarət aerovağzalm tikintisini maliyyələşdirdi.

Bundan başqa, respublika tərəfindən aşağıdakı obyektlərin maliyyələşdirilməsinin nəzərdən keçirilməsi təklif olunur:

- Bakı beynəlxalq dəniz limamnm yenidənqurması (gücü 1416 pqm, məbləği-70,0 mln. dollar);
- Dəniz səviyyəsinin qalxması ilə əlaqədar, «Xəzerdəniz - gəmitəmiri» istehsal birliyinin gəmi təmiri zavodlarımn yenidənqurması (gücü 73,2 min.kv.m. məbləği-58,5 mln, dollar);
- Bakı metropolitetinin 3-cü və 4-cü növbələrinin tikintisi (gücü 14,4 km, məbləği-255 mln. dollar);
- Umumdövlət əhəmiyyətli avtomobil yollarının yenidənqurması, o cümlədən;
- Bakı-Quba-Dağıstan Muxtar Respublikası (uzunluğu 162 km, məbləği-90 mln. dollar);
- Bakı-Astara-İran (uzunluğu 263 km, məbləği 145 mln. dollar);
- Ələt-Qazıməmməd-Yevlax-Qazax-Gürcüstan (uzunluğu 431 km, məbləği-240 mln. dollar);
- Qazıməmməd-Əlibayramil-Aslandüzü (İran)-Culfa-Naxçıvan-Sədərək-Türkiyə (uzunluğu 480 km. məbləği-264 mln. dollar);
- Avtomobil yollarında körpülərin tikintisi və yenidənqurması (gücü 3960 poq.m. məbləği-32 mln. dollar);
- Bakı dairəvi avtoyolların tikintisi-(Juba Qapısı-Biləcəri-Zığ (uzunluğu 19 km, məbləği^O mln. dollar).

Respublikanın ən ciddi problemlərindən biri də yaşayış binalarınm tikintisidir. Bakı şəhərində tikintinin vüsət almasma baxmayaraq, əhalinin yaşayış mənzillərinə olan tələbatı inkişaf etmiş ölkələrin göstəricilərindən 3-4 dəfə aşağıdır. Çoxlu sayda ailələr qeyri-münasib şəraitdə, köh

nə və qəza vəziyyətində olan evlərdə, çirkli və mədən ərazilərində yaşayırlar.

Bundan başqa, Bakı şəhərində beynəlxalq standartla- nn tələblərinə cavab verən mehmanxana təsərrüfatmm inkişafına ehtiyac vardır.

Azərbaycanın dünya ictimaiyyəti ölkələri ilə beynəlxalq münasibətlərinin inkişafı, xarici diplomatlarm, sahibkarların və biznesmenlərin respublikamıza olan maraqlan onların yüksək komfortabelli otellərdə yerləşdirilməsində problemlər yaradır.

Milli tələbat aşağıdakı miqdarda və istiqamətlərdə özünü bürüzə verir:

- Bakı şəhərində ümumi məbləği 300 mln. dollar təşkil edən, 1900 yerlik 5 müasir otelin tikintisi. Azərbaycan respublikasmm Prezidenti Bakı şəhərinin merinə bu istiqamətə xüsusi diqqət yetirməsi haqqıda göstəriş vermişdir;
- Bakı şəhərində ümumi sahəsi 100 min kv.m., ümumi məbləği isə 30 mln. dollar təşkil edən nümunəvi yaşayış massivinin tikintisi;
- Yaşayış-sosial tikintiləri üçün tikinti detallanmn istehsalı üzrə respublikada 10-15 müəssisənin yaradılması. Bu məqsəd üçün 200 mln. dollar tələb olunur.

Xəzər dənizi sahilində, Bakı şəhərindən 40 km şimalda yerləşmiş iri sənaye şəhəri olan Sumqayıt hazırda eko- loji fəlakətin bir addımlığındadır. Kimya, neftkimya, qara və əlvan metallurgiya müəssisələri və digər ekoloji ziyanlı istehsallar öz çirkli sularım təmizləmədən Xəzər dənizinə axıdaraq, ətraf mühitə və əhalinin sağlamlıqlanna böyük ziyan vururlar. Hazırda fəaliyyətdə olan təmizləyici qurğular sutkada cəmi 130 min kub.m. çirkab sulannm təmizlənməsinə hesablanmışdır. Xəzər dənizinin akvato-riyasma isə hər i yaşayış massivlərinin və kommunal mü

əssisələrin tullantılan da daxil olmaqla 400 mln. kub.m. çirkab axıdılır.

Bu problemlərdən narahat olan şəhər rəhbərliyi yeni təmizləyici qurğuların layihələşdirilməsi və tikmtisi, civə və digər buxarlanmalarla əlaqədar çirklənmələrin aradan qaldırılması, zəhərli tullantılarm basdırılaraq məhv edilməsi məsələləri məsləhətlərin verilməsi haqqında «Siemens» və «İnva Konsalt» alman firmalan ilə danışıqlar apanr. Ancaq, bu işlərin reallaşması maliyyə vəsaitlərinin və resurslann olmaması səbəbindən ləngidilir.

Bu məqsədlə Sumqayat şəhərində gücü il ərzində 400 mln. kub.m. olan təmizləyici qurğunun tikintisinin maliyyələşdirilməsi imkanlannm nəzərdən keçirilməsi təklif olunur. Həmin obyektin dəyəri 80 mln. dollar məbləğində qiymətləndirilir. Yalmz Sumqayıt şəhərində deyil, həm də bütün respublikada çoxlu sayda ekoloji problemlər mövcuddui'.

## Fəsil VI. Azərbaycanın təbii potensiah və xarici investisiyalar uçun sahə prioritetləri

### 6.1.SSRİ dağıldıqdan sonra Azərbaycanın investisiya siyasətinin formalaşması

1994-cü ildən başlayaraq Azerbaycan iqtisadiyyatında nəzərə çarpacaq dərəcədə investisiya prosesləri fəallaşmağa başladı və nəticədə iqtisadiyyatm müxtəlif sahələrində xarici kapitalm axmımnda müsbət vəziyyət yarandı. Bu, bir sıra səbəblərlə, o cümlədən beynəbialq əməkdaşlıqda təcrübəmizin artması, hökumətin iqtsadi investisiya siyasətinin liberallaşdınması və mexanizmin təkmilləşdidlməsi və əlbəttə ki, respublikamn zəngin iqtisadi resursları ilə izah edilir. «Maneələrin» tədricən aradan qaldıniması yolunda münasib investisiya mühitinin yaradılmasına cəhdlərin göstərilməsi, bütövlükdə xarici investorlar tərəfindən azərbaycan bazarlannm cəlb edilməsini təmin edirdi.

Azərbaycan siyasi müstəqillik əldə etdikdən sonra, məqsədyönlü şəkildə özünün iqtisadi resursları bazası əsasında iqtisaiyyatda geriliyin aradan qaldırılması üçün hərəkətə keçmək çox zəruri idi. Hökumət tərəfindən aparılan bazar islahatlarmm beynəlxalq təşkilatlann və xarici investorlarm gözlərində diskreditasiyadan qaçmaq üçün ölkədə stabilliyin saxlanması və sosial partlayışa yol verilməməsini təmin etmək zəruri idi. 1994-cü ildən başlayaraq, Prezident Heydər Əliyevin rəhbərliyi altında respublikada ictimai-siyasi və iqtisadi stabilliyə nail olmaq mümkün oldu və bu da Azərbaycan hökumətinin xarici investisiya strategiyasım müəyyən etdt

1994-cü ildə Azərbaycanın dünya iqtisadi sisteminə və onun inkişaf strategiyasının bir hissəsinə tarixi keçidini xarakterizə edən, dünyanın ən iri neft şirkətləri ilə «Əsrin müqaviləsi» imzalandı. Bununla paralel olaraq, beynəlxalq təşkilatlarla və xarici şirkətlərlə əməkdaşlığın daha səmərəli inkişaf etdirilməsi üçün tədbirlər həyata keçirilirdi. Yekunda 1995-1996 cı illərdə iqtisadi islahatlarla əlaqədar, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən iki proqram reallaşdınldı. Bu zaman hökumət dünya təcrübəsini eldə rəhbər tutmuşdur. Dünya təcrübəsi göstərmişdir ki, ölkədə iqtisadi islahatlarm həyata keçirilməsində əməkdaşhq etmək, beynəlxalq maliyyə və iqtisadi təşkilatlarda iştirak etmək-bu stabilliyin və xarici sərmayələrin ölkəyə cəlb olunmasımn yaxşı əlamətidir.

1997- ci ildə xarici iqtisadi strategiyaya əsasən respublika hökuməti ilk dəfə olaraq Dünya Bankı ilə birgə milli potensialdan geniş şəkildə istifadə etməklə xususi sektorun inkişaf etdirilməsini, xarici investisiyalann cəlb edilməsi üçün onun dövlət zəmanəti altma götürülməsini, inf- rastrukturlarm inkişafmı və s. nəzərdə tutan «Üçillik Ortamüddətli investisiya proqramı»m (1998-2000-ci illər) işləyib hazırdı.' Bu xarici sərmayələrin iştirakı ile xüsusi sektorun inkihaf etdirilməsinə respublika hökumətinin necə münasibət göstərməsinə bir sübutdur. Birgə işlənmiş proqramın iki istiqamət üzrə xüsusiyyəti onun «Sürüşkən» xarakterli olduğunu müəyyən edir, yəni proqramm reallaşması gedişində ona Azərbaycan iqtisadiyyatınm tələbinə uyğun olaraq əlavə investisiya layihələri daxil edilə bilər. Nəticədə biz bu gün 2003-cü il

**AR dövlət sektorunda ortamüddətli investisiya proqramı, Bakı, yanvar 1998-ci il və 1 yanvar 2002-ci ilə bu proqramlann yerinə yetirilməsinin yekunları.**

də daxil olmaqla əlavələr və yeniləşmiş proqram layihəsinə malikik.

1998- ci ildən başlayaraq hökumətin ilk növbədə istinad etdiyi planlarda dövlət sektoru üzrə ortamüddətli proqramm başlanğıc dəyəri 2526,3 mln. dollar təşkil edir. Proqramda daha əhəmiyyətli təbii-iqtisadi resurslann fəal təsərrüfat dövriyyəsinə cəlb edilməsi üzrə qüvvələrin səfərbər edilməsi də daxil olmaqla elektroenergetikanm in-kişafma-595,8 mln. dollar, neft ve qaza - 361,1 mln.doll su təsərrüfatı və irriqasiya-382,2 mln. dollar, nəqliyyat sistemlərinə-345,0 mln. dollar və s. nəzərdə tutulmuşdur. Bu proqramm reallaşması üçün hökumət özünün qlobal məqsədi olan iqtisadiyyatm real şəkildə yenidənqurmasım təklif edir: rəqabət qabiliyyətinin qaldınıması və məşhur neft «sindromlarmdan» qaçmaq üçün neftin maksimal surətdə sənayedən keçməsini təmin etmək məqsədi ilə enerji resurslanndan səmərəli istifadənin )diksəldilməsini təmin etmək.

Xüsusi sektorun inkişafım nəzərdə tutan ikinci proqrama yerli və xarici xüsusi sektorların kimya ve neftkimya sənayelərində, metallurgiyada, emal, yüngül və yeyinti sənayelərində, aqrar sektorda, sosial təminat obyeMərin- də və inftastukturlarda əsas inkişaf prioritetləri daxil edilmişdir. Bu onu sübut edir İd, dövlət tərəfindən aparılan özəlləşdirmə ve antiinhisarlaşma siyasəti, bazar münasibətləri şəraitində kiçik və orta biznesin inkişafında vacib rol oynayır. Həmin məqsədlərlə 1997-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı Üə «1998-2003-cü illərdə Azərbaycan Respublikasmda kiçik və orta sahibkarlığa dövlət yardımı proqramı» təsdiq edilmişdir. O cümlədən respublikamn bazar iqtisadiyyatmda xüsusi sektorun və hüquqi mexanizmlərin qurulmasım təırün edən bir sıra qanunlar qəbul edilmişdir. Və nəhayət, xarici şirkətlərin

iştirakı ilə sahibkarlığın inkişafında Azərbaycan Prezidentinin 28 sentyabr 2002-ci il tarixində vermiş olduğu «Sahibkarhğm inkişafma müdaxilənin qarşısmm alınması haqqmda» Fərman güclü təkan oldu.

Son illər Azərbaycan hökuməti xarici sərmayələrin daxil olmasma təsir göstərməyə qabil olan, hüquqi tərəflər də daxil olmaqla, təsərrüfat mexanizmlərinin keyfiyyətinə xüsusi diqqət yetirilir.

Bununla əlaqədar olaraq. Respublikada beynəlxalq iqtisadi və maliyyə təşkilatlannm dəstəyi ilə vergi və gömrük sferalarım və xarici iqtisadi fəaliyyətin geniş surətdə liberallaşdınlmasmı əhatə edən iqtisadi islahatlarm həyata keçirilməsi üzrə ardıcıl surətdə tədbirlə apardır. Gömrük-vergi siyasətinin müsbət istiqamətdə təkmilləşdirilməsi nəticəsində 2001-ci ildən etibarən qəbul edilmiş ölkənin yeni vergi və gömrük Kodeksləri fəaliyyət göstərir.' Bu, Azərbaycanm Ümunidünya Ticarət Təşkilatma (ÜTT) daxil olması üçün maneələrin aradan qaldınimması yolunda daha bir addımdır. Bu Kodekslərin başhca ideologiyası əvvəlkilərdən fərqli olaraq investorun milli mənsubiyyətindən asılı olmayaraq iqtisadi fəaliyyətin bütün subyektləri üçün vergi ödənilməsində şəffaflığm artmimasmdan və bərabər şəraitlərin formalaşdırılmasmdan ibarətdir. Bu onu subut edir ki, artımm qiymət kriteriyasınm dəyişdiyi və islahatlann dərinləşməsinin baş verdiyi yerdə Azərbaycanın iqtisadi inkişafinda yeni mərhələ başlayır. Ha- zuda hökumət iqtisadi resurslarm və xarici investisiyala- nn bazası əsasmda makroiqtisadi stabilliyin səmərəli dinamik artıma çevrilməsi üçün qüvvələrin səfərbər edir.

I994-2003-CÜ illər ərzində respublika iqtisadiyyatına bütün maliyyələşdirmə mənbələri üzrə 16,4 mlrd, dollar

**^ Налоговый Томоженный кодексы Аз^)байджанской Республики (по состоянию на 1 января 2003 г) Баку-2003.**

həcmində investisiyalar cəlb olunmuşdur, o cümlədən xarici investisiyalann 12,6 mlrd dollanndan və ya 76,8 % dən bu dövr ərzirdə orta hesabla 68 % - i respublikamn neft sektoruna qoyulmuşdur. 2003-cü ildə bu rəqəm 86 % təşkil etmişdir. Neft sektorunda birbaşa xarici investisiyalann artıması Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin tikintisi daxil olmaqla, irimiqyash investisiya layihələrinin yaranması ilə əlaqədardır. Nəticədə neft seläoruna birbaşa investisiyalann həcmi 2001-ci ildə olan 821 mln. dollardan (ÜDM-dan 15 %) 2002-ci ildə-2810,2 mln. dollara- dək (ÜDM-dan 25 %) artmışdır.*

Xarici investisiyalan cəlb edərkən respublika hökumətinə aydın idi İd, yalnız ölkənin iqtisadi resurslarma söykənməklə, köklü surətdə modernləşməyə və struktur yenidənqurmaya nail olmaq qeyri-mümkündür. Belə ki, respublikamn daxili maliyyə və elmi-texniki resurslan kifayət qədər deyildir.

Qısa müddət ərzində Azerbaycan xarici investorlara özünün zəngin xammallara və əmək resurslarına malik olan зniksəkmənfootli bazarım tanıda bildi və bu da xaricdən investisiyalann daxil olmasma təkan verdi. Bunu neftlə yanaşı bir sıra tendensiyalarla Azerbaycamn digər iqtisadi sahələrinə birbaşa və xüsusi investisiyalann daxil olmasınm sürətlənməsi də sübut edir. Bu planda 1998- 1999 cu illər daha məhsuldar olmuşdur. Belə ki, 1998-ci ildə neft sahəsinə qoyulmuş birbaşa xarici investisiyalann ümumi həcırü-894 mln. dollar və ya 60,7 % idisə, 1999-cu ildə bu rəqəm uyğun olaraq-545 mln. dollar və ya-49,9 % təşkil etmişdir. Həmin vəziyyət 2002-ci ildə də

**^ Sosial-iqtisadiyyatın əsas göstəriciləri, 1994-2003-cü illər, Dövlət Statistika Komitəsi, Azəıbaycan Respublikası məlumatlan əsasmda hesablanmışdu*.**

təkrarlanmışdır.' Birbaşa ümumi investisiyaların neft sektorunda xüsusi çəkisinin son illər azalmasının təhlili göstərir ki, investisiyalarm artımı iqtisadiyyatm sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət və xidmətlər kimi sahələrində müşahidə edilir. Bunlarla yanaşı xarici investisiyaların xususi sahibkarlığın inkişafda da artım tendensiyası son illər müşahidə edilməkdədir.

Bütün bunlar xarici investorların nə istədiklərini dəqiq bilmələrini və onlann Azərbaycanda dəqiq formalaşdınl- mış strategiyaya malik olmalarım sübut edir. Məlum olduğu kimi onlar özləri üçün əlverişli olan investisiyalan tapırlar və hər bir yeni invesitisiya onlar üçün çoxlu sayda səmərə gətirir. Azərbaycanm investisiya mühiti ilə yaxşı tamş olmuş investorlar sonralar özlərinə münasib istehsa- sallar yaradırlar. Onlar bunu xüsusilə neft-qaz sektorunda və kimya sahələrində həyata keçirirlər. Xarici investisiya- lann cəlb edilməsində xammal təminatı nəzərə alınmaqla kadr-resurs potensialı da vacib rol oynayır.

Bu isə sənayemizin yenidənqurmasına onlarm cəlb edilməsi məqsədi ilə bir çox məşhur şirkətlərlə intensiv işlərin apanimasma əsas verir. Azərbaycanm nomativ-qanuiıvericilik bazası xarici investorlara müasir biznes formalannm geniş spektrini təklif etməyə imkan verir. Azərbaycanda bu gün artıq dünyanm bütün ölkələri ilə ticarət-iqtisadi münasibətlərin inkişaft üçün nisbətən münasib hüquqi və təşkilatı şərait yaradılmışdır. Buna sübut kimi Bakıda 1 may 2003-cü il tarixdə xarici investorlarla keçirilmiş koftansı göstərmək olar.

Lakin, baxmayaraq ki, ölkədə investisiyalarm cəlb edilməsi üçün münasib mühit mövcuddur, sərmayələrin

**^ Sosial-iqtisadiyyatın osas göstericileri, 1994-2003-cü illər, Dövlət Statistika Komitəsi, Azəıbaycan Respublikası məlumatlan əsasmda hesablanmışdır.**

qoyuluşu qeyri-harmonik baş verir. Belə ki, bütün investisiyalann 85 %-i paytaxt sənayesinin payına düşür. Bir çox regionlarm və onlann sahələri ümumiyyətlə potensial investorların diqqətlərindən kənarda qalmışdır. Məsələn, kənd təsərrüfatında biz zəif artıma (UDM-dən 3-3,5 %) malikik və bu da aqrar sektorda islahatlarm ləng aparılması və kənd infiastrukturlannm pisləşməsi ilə izah edilir.^ Bunu cənubi Qafqaz ölkələri üzrə aparılmış xarici investisiyaların daxil olunmalarmın müqayisəli təhlUi də sübut edir. 2002-ci ildə əhalinin adambaşına düşmüş xarici investisiyalar aşağıdakı kimi olmuşdur: Azərbaycanda- 275 dol., Ermənistanda-49,9 dol., Gürcüstanda-4,5 dol.^ 1992-1998-ci illərdə MDB ölkələrində Qazaxstan-365 dol. və Azərbaycan-322 dol. istisna edilməklə, onlann həcmi yerdə qalan öləkələrdə orta hesabla 100 dollardan aşağı təşkil etmişdir. Müqayisə üçün deyə bilərik ki, Macanstanda bu dövrdə xarici investisiyalar 1528 doll olmuşdur.^

İnvestisiyalarm daxil olunması üzrə dövlət tərəfindən qəbul edilmiş tədbirlər kifayət qədər deyildir, belə ki, bütövlükdə onlar neft-qaz sektorundakı təbii sərvətlərə əsasən cəmlənmişlər.

Sual yaranır, bu tendensiyam nə ilə izah etmək olar? Baxmayaraq ki, hökumət tərəfindən xarici investisiyalar üçün münasib şəraitin yaradılmasma dair qanunvericÜik aktlan qəbul edilmişdir, faktiki olaraq xarici maliyyələşmənin müıııkünsüzlüyünə səbəb Azərbaycanda hüquqi

**Sosial-iqtisadiyyatm əsas göstəriciləri 1994-2003 ci il məlumatlan əsasmda hesablanmışdır.**

**~ Статистический ежегодник Южно-Кавказских стран 2002- 2003 гг.**

**^ Abbasov Ç. Azəıbaycanın xarici-iqtisadi fəaliyyətinin liberallaşası və idxal-ixrac əməliyyatlannm qeydiyyatı prosedurasının mümkün sadələşdirilməsi, investisiya annlarmm artmasmı təmin etmiş olar. «Gömrük» 28 aprel-3 may 2000-ci fl**

tənzimlənmənin və və inzibati risklərin yolverilməz dərəcədə )diksək olmasıdu:.

tnvestisiyalarm daxil ohxıasma süni maneələrdən biri də iqtsadiyyatm normativ-hüquqi vəziyyətinə ikili yanaşma imkanlanmn mövcud olmasıdır. Bu da xarici investor- lan hələ də çox narahat edir. Əgər biz istəyiriksə investoru qeyri-neft sektoruna da cəlb edək, onda gömrük-vergi siyasətində ikili yanaşmadan imtina etmək lazımdır.

Respublika iqtisadiyyatınm qanunvericilik bazasmda xarici investorlar üçün intellektual mülkiyyət huquqlan, torpaq mübahisələri və torpaq hüquqlan ilə əlaqədar məsələlərin də çox bö)dik əhəmiyyəti vardır. Bəzi hallarda investora ona məxsus olmayan torpaqda bu və ya digər layihənin cəlbedici olmasını (yəni, zavodun, fabrikin, kənd təsərrüfatı fermasınm tikintisini) inandırmaq çox çətin olur. Azərbaycanda qanunvericilik əsasında konkret torpaq sahəsindən istifadə edilməsi üçün xarici investorlara maneəsiz olaraq 50 və ya 100 illik lisenziyalann alm- ması problemi həll edilmişdir. Lakin, onlann reallaşması prosesi kifayət qədər mürəkkəbdir.

Xarici investorlar üçün əmtəələrin və ya avadanlıqla- nn sərmayə qoyduqlan bazarlara vaxtlı-vaxtmda daşınmalarınm təmin edilməsinin də böyük əhəmiyyəti vardır. Olur ki, süni bürokratik süründürmeler ucbatından həftələrlə islər ləngidilir.

Dünya bazarında neftin qiymətinin daima dəyişməsini nəzərə alaraq, yerli neft sahələrinin inkişafının mümkün ağılagəlməz amilləri ilə əlaqədar və iqtisadiyyatın inkişafının sürətləndirilməsi məqsədi ilə respublikanın bütün təbii sərvətlərindən istifadə problemlərinin tənzimlənməsi çox vacibdir. Ona şöre do «Xarici investisiyalarm qorunması haqqında», «investisiya fəaliyyəti haqqında» və respublika Prezidentinin Fərmanı ilə «Dövlət nəzarət sis

temlərinin təkmilləşdirilməsi və çatışmazlıqların aradan qaldırılması haqqmda» azərbaycan qanunlanna uyğun olaraq, azərbaycan bazarlarmda fəaliyyət göstərən xarici investorlann müdafiəsinə nəzarət edə bilən əlavə tədbirlər və mexanizmlər hökumət tərəfindən işlənməlidir.

İdxal edilən əmtəələrə görə əlavə dəyər vergisi və gmrük rüsumlan ödənildiyindən vergi-gömrük siyasəti bütün ölkələri birləşdirir. Ancaq Azerbaycanm xarici iqtisadi fəaliyyətinin liberallaşması idxal-ixrac əməliyyatlarının tərkib prosedurlarmm sadələşdirilməsi investisiya axınlannın artınimasmı və sahələrinin genişlənməsini təmin edir.

Hələ bundan əvvəl Xəzər regionunda diplomatiya məsələləri ABŞ prezidentinin məsləhətçisi və dövlət katibi Stiven Mann Gürcüstana səfəri zamam demişdir ki, neft kəmərləri üçün gələcəkdə heç bir təhlükə yoxdur və onun təhlükəsizliyi ən yüksək səviyyədə həll ediləcəkdir.^

Bununla belə, münaqişələr aşağıdakı yerlərdə mövcuddur; birincisi, Azərbaycan və Ermənistan, Gürcüstan və Rusiya, Gürcüstan və Abxaziya, Gürcüstan və Ermənistan arasmda münaqişələrin davam etdiyi Zaqafqaziya və onun Cənub istiqamətləri regionunda, ikincisi Cənub istiqamətində marşrut İranla birləşdiyindən, Cənub-Qərb istiqaməti Azərbaycan neftinin tranzit problemlərinin həllində fəaliyyətsiz qalır; üçüncüsü, yaddan çıxarmaq lazım

**' Все заинтересованы в стабильности в Азербайджане, «Зеркало», 2 марта 2004г.**

**“ Участники проекта уверены в его безопасности, интернср-сайт «Рейтер» 2002г.**

deyildir ki, ABŞ Zaqafqaziya, regionuna terrorizmə qarşı müharibə prizmasmdan yanaşır.^

Cənub istiqamətində regionun ölkələri arasında təhlükəsizlik sahəsində münasibətlər həm ikitərfli, həm birtərəfli öhdəliklərə əsaslanır. Eyni zamanda Cənub istiqaməti regionunda Azərbaycan, Gürcüstan, Türkiyə, ÖGU- AM ölkələri, bu ölkələrlə ABŞ və NATO arasmda hərbi- siyasi razılaşmalar mövcuddur. Müxtəlif qütblü qüvvələrin iştirakı, Qafqaz ölkələri arasında münaqişələr və siyasi qeyri-stabillik, o cümlədən Rusiyanm Cənubunda - Şimali Qafqaz regionundakı münaqişələr Qərbin siyasi maraqları ilə yanaşı Cənub istiqaməti problemlərini daha da dərinləşdirir.

İran faktiki olaraq geosiyasi təcrid vəziyyətindədir və onun əsas təşəbbüskarı Vaşinqtonun olması bu yaxınlarda qəbul edilmiş antiiran energetika qanunu ilə təsdiq edilir. Azərbaycan üçün başlanğıcda cənub-qərb marşrutu (Fars körfəzinə çıxışı nəzərdə tutan) praqmatik nöqteyi-nəzərdən münasib ola bilərdi. Sonuncunu neü infirastrukturlan- nın mövcudluğu, şərq bazarlarma bilavasitə çıxışla və s. ilə izah etmək olar.

Ancaq İran marşrutuna (Bakı-Təbriz-Tehran-Avadan) qarşı ABŞ-m sərt mövqedən çıxış etməsi onun gerçəkləşməsi perspektivinin olmadığım sübut edir. İran tərəfi belə güman edir ki, BTC boru kəmərlərinin tikintisinin məqsədi və bununla əlaqədar ikitərəfli və çoxtərəfli razılaşma- lann imzalanması İram Xəzərin təbii resurslanndan məhrum etmək məqsədi güdür.

BTC layihəsi yakuz Rusiyanm maraqlarma deyil, həm də daha çox İranm maraqlanna alternativ kimi yaradılır. İranı kənarlaşdırmaqla ABŞ yalnız beynəlxalq neft bazarlarmda deyil, həm də hərbi-siyasi aspektdə Türki-

' «Новое время», 28 янвгфя 2003г.

yəni iran üçün rəqib görmək istərdi- Hələlik tramn tam təcrid edilməsi alınmır. Bu xətti hətta ABŞ-m bir çox müttəfBqləri də dəstəkləmirlər. Rusiya isə o strategiyadan çıxış edir ki, İran siyasi liderlərinin aqressiv çıxışları azalarsa, ölkəni dünya iqtisadi birliyinə ardıcıl inteqrasiyası mümkündür. İran özü də təcrid məkanına daxil olmaq istəmir. Rusiya ekspertləri belə güman edirlər ki, Türkiyədən keçməklə neft bazarlarına daxil olmaq istəyən İranı rəqib kimi kənarlaşdırmaq cəhdləri baş tutmayacaq.

Neft diplomatiyası strateji olaraq cənub istiqaməti regionlannın əsas problemlərinin həll edilməsinə şəraitin yaradılmasma yönəldilmişdir. Hərçənd ki, sülhün təmin olunması şübhə doğurur.

Rus ekspertləri güman edirlər ki, BTC layihəsi neft sferasında riskə məruz qalmış müəssisələrdən ən birincisidir. Birincisi, onlar neft boru kəmərlərinin salındığı zonalarda daima siyasi qeyri-stabilliyin mövcud olması səbəbini göstərirlər. Son vaxtlar gürcü-rus münasibətləri son dərəcə kəskinləşmiş, Qarabağ problemlərinin nizam- lanmasmda qeyri-müəyyənlik saxlanılır, Türkiyə indiyədək kürd separatçılam ilə problemləri həll edə bilməmişdir. Üstəlik onların ərazilərində türklər üçün strateji obyektlərin tikintilərinə görə şantaj etməkdə əlavə kozırlar əldə edirlər. İkincisi, Türkiyənin şimal-şərq zonalannda daima seysmik aktivliyin olmasmı da yada salmaq lazımdır. Üçüncüsü, neft kəmərlərinin tikintisinin ekoloji və sosial aspektləri nüfuzlu Britaniya qəzeti olan Guardianda şərh edilmişdir. Qəzet yazmışdır ki, BTC layihəsi koıporativ cəzasızlığm və özbaşınalığın bir nümunəsidir, «Botas» türk şirkəti ilə tikinti müqaviləsi imzalanarkən Konstitusiyadan başqa, bütün türk qanunları pozulmuşdur. Riskin ən samballı dördüncü amili isə

Azəri-Çıraq-Günəşli blokunun fəal surətdə işləməsi, onun cənub hissəsi ətrafında və Xəzərin hüquqi statusunun axıradək tənzimlənməsəsi səbəbindən Azərbaycan-İran mübahisələri qalmaqdadır. Ona görə də BTC boru kəmərlərinin rentabelli olmasına ümid artıq yaxın illər ərzində Qazaxıstan nefti və Qazaxstan hökumətinin mövqeyi ilə əlaqəlidir.

Layihənin əvvəlindən Qazaxıstan ABŞ və Avropa İttifaqı tərəfindən müxtəlif təzyiqlərə məruz qalmışdır. Türkiyə Bosfor və Dardaneli boğazlarmdan neft tankerlərinin hərəkətlərinə yeni-yeni məhdudiyyətlər tətbiq etməklə, BTC boru kəmərinə Xəzər neftinin axıdılması məqsədini güdür. Son günlər, məsələn, pis hava şəraitilə əlaqədar, axşam vaxtlarında iri tonnajlı gəmilərin hərəkəti qadağan edilmişdir və bunun nəticəsində böyük tıxaclar yaranmış, bir çox Avropa neft emalı zavodlarmda böhran vəziyyəti yaranmışdır.^

Müəyyən dövr ərzində Qazaxıstan hökuməti dənizin dibi ilə Bakıyadək neft kəmərlərinin sahnması təklifini rədd etmiş, yalnız məhdud həcmdə neftin tankerlərlə daşınmasma razılıq vermişdi- Söhbət 5-7 mln. tondan gedir (perspektivdə Kaşqan yatağmın mənimsənilməsi gedişindən asılı olaraq və 2010-2015-ci illərdən tez olmayaraq, 15 mln. ton neft nəzərdə tutulmuşdur.^ Azərbaycan Prezidenti İ.Əliyevin Qazaxıstan səfərinin yekunlarına dair Azərbaycanın Xarici İşlər naziri bəyan etmişdir: «BTC boru kəmərləri ilə Qazaxıstan neftinin nəqlinə dair tariflər haqqında Azərbaycan tərəfindən edilmiş təkliflər ölkələr arasmda (Aktau-Bakı) həll edilməmiş qalır».^ Eyni

**' «Новое время», 2 fevral 2004.**

**“ Yenə orada**

**^ Казахстан будет экспортировать нефть по трубопроводу БТД, «Зеркало». 2 mart 2004.**

zamanda Qazaxıstan Prezidenti N.Nazarbayev qeyd edir: «Aktau və Bakı arasmda nəqliyyat sferasım elə inkişaf etdirmək olar ki, Qazaxıstan Qafqazdan beynəlxalq bazarlara alternativ çıxış əldə etsin». ^

BTC-in başa çatması üçün cəlb edilməsi planlaşdm- lan Qazaxıstan neftinin kəmərə qoşulması layihənin dəyərini açıq-ay dm artınr. Tücinti üçün əvvəl planlaşdınlmış 30% xərcləri iştirakçı şirkətlər özlərinin xüsusi vəsaitləri hesabma, 70%-i isə beynəlxalq maliyyə institutlarından borc şəklində təşkil etdilər. Layihənin maliyyələşdirilməsinə amerikan-yapon Eksimbankı və şəxsi investisiyalar üzrə amerikan agentliyi (OPİK) qoşuldular. Bütün götürülmüş kreditlərin məbləği — 2,3 mlrd dollar, bütövlükdə BTC boru kəmərlərinin tikintisi - 3,3 mlrd, dollara başa gələcək.^

Layihənin kreditorlan ilə əsas ixrac boru kəmərinin maliyyələşdirilməsi haqqmda 4 fevral 2004-cü il tarixli kredit razılaşmasınm rəsmi imzalanması aşağıdakı tərkibdə və bölgüdə oldu. Birinci qrupa Avropa yenidənqurma və inkişaf bankı və Ümumdünya bankı daxilindədir. Onlar tərəfindən təqdim edilmiş kreditlərin ümumi məbləği — 500 mln. dollar təşkil edir. İkinci qrupa Böyük Britaniyadan, Almaniyadan, İtaliyadan, ABŞ, Fransa və Yaponiyadan avadanlıq və materiallarm göndərilməsini maliyyələşdirmək üçün kommersiya banklarma zəmanətlər verən ixrac-kredit agentlikləri təşkil edirlər. Üçüncü qrupa 1,2 mld dollar ayırmış 15 kommersiya banklarmdan ibarət sindikat təmsil edir. Sindikatda əsas yeri ABŞ, AMRO, Citigroup, Mizuuso and Société Generals tutur.

**^ Казахстан ^дет экспортировать нефть по трубохфоводу БТД, «ЗqpKano», 2 mart 2004.**

**^ Интернет сайт «Рейтер», 28 aprel 2003.**

Dördüncü qrupa «British Petrolium», «Statoil», «Totai C.A.» və «Conoco Philips» kimi iri şirkətlər daxildir.^ Maliyyə tərəfdən hər şey qaydasındadır, pul vardır. Region əvvəlki kimi olmayacaq, ona görə ki, orada ümumi siyasi vəziyyətə bundan belə ABŞ nəzarət edəcək.

Tikintinin başlanması münasibəti ilə təşkil edilmiş təntənəli mərasimdə H.Əliyev onun gerçəkləşməsində Vaşinqtonun rolunu xüsusi qeyd etmişdir. Onun sözlərinə görə, ABŞ-m dəstəyi olmadan Azərbaycan, Gürcüstan və Türkiyə layihəni həyata keçirə bilməzdilər və Amerika- mn dövlət rəhbərliyi də hadisəyə xüsusi pafosla yanaşdı və ABŞ-m Energetika naziri Sperser Abraxam ABŞ prezidenti Corc Buşun təbrik məktubunu oxudu.

Fransa prezidenti. Böyük Britaniyanın və Novreçin baş nazirləri də mərasimə təbrik məktubu göndərmişdilər. Qərb Xəzər nefti üzərində nəzarətə görə Rusiya ile mübarizədə özünün qələbəsiin gizlətmirdi. Rəsmi Rusiya ərazisinin yanından keçən neft kəmərinin tikintisinə dair öz fikirlərini kifayət qədər kəskin şəkildə ifadə etdi».^ ABŞ-ın və Avropamn güclü dəstəyi ilə indi Türkiyə özünün tarixi maraqlanm regionda gerçəkləşdirəcək. Qərbə Xəzər neftini, (^ha sonra isə qazı nəql edərək, əsas tranzit dövlətə çevrilmək üçün Türkiyə Qafqazda özünün siyasi təsirini gücləndirmək arzusunu gizlətmirdi. Azərbaycana və Gürcüstana gəldikdə isə, regiona milyardlarla investisiyalann cəlb edilməsilə yanaşı onlar Rusiyadan iqtisadi müstəqillik əldə etmək ümidlərini artırırdılar.

Müsbət tendensiyalar daima problemləri do istisna etmirdi. Gürcüstan əsas ixrac boru kəmərinin nadir Boljomi dərəsindən keçirilməsinə razılıq vermişdi. Ancaq gürcü və onlara qoşulmuş Fransa və Niderland ekoloqlanmn flk-

**^ Так мы договаривались или как, «Новое время», 3 fevral 2004. ^ Интернет сайт «Рейтер», 28 aprel 2003.**

rincə, istənilən həcmdə neftin yerə axması məşhur gürcü minerallarının reputasiyalanna və burada yaradılan Borjomi-Xaraqauİ milli parkın inkişafma xələl gətirəcək.

Ancaq, 1740 kilometrlik marşrut Gürcüstan ərazisindən keçməklə ölkəyə tranzitə görə milyonlarla mənfəət gətirir və minlərlə yeni iş yerlərinin yaranmasına şərait yaradır. Bu layihə geosiyasi nöqteyi-nəzərdən də çox vacibdir. ABŞ-m düşüncələrinə görə, BTC Rusiya neft kəmərlərinə alternativ olduğundan, ekoloqların çıxardığı rəylərdə bu da az rol oynamamışdır və ona görə də Vaşinqton məsələyə sərt münasibət göstərdi. Tiflisiə gələn ABŞ prezidentinin Xəzər regionunda eneıji məsələləri üzrə xüsusi məsləhətçisi və dövlət katibi Stiven Mann hiddətini belə ifadə etdi ki, «Boıjom» marşrutunun rədd edilməsi ona gətirib çıxaracaq ki, Gürcüstanın daha çox xeyir götürməyə ümid etdiyi Bakı-Tiflis-Ərzurum qaz kəməri də Gürcüstan ərazisindən keçməyəcək. «BP Azərbaycan» beynəlxalq əməliyyat konsersiumunun prezidenti Devid Vudford da gürcülərin nazı ilə çox oynamayaraq, açıq bildirdi ki, «Boıjom» problemlərinin müsbət həll ediləcəyi təqdirdə, Bakı-Tiflis-Ərzurum qaz kəməri Gürcüstan ərazilərindən keçəcək.* Gürcüstanı həmin layihədə təmsil edən Gürcüstanın Beynəlxalq neft korporasiyasının prezidenti Georgi Çanturiya da D.Vudfordu dəstəkleyerk bildirdi ki, neft kəmərlərinin çəkilişində tətbiq edilən texnologiya hətta 12 bal gücündə zəlzələ və istənilən torpaq sürüşmələri zamanı riski minimuma endirməyə qadirdir. G.Çanturiya ilk dəfə olaraq, açıq bildirdi ki, BTC- nin mühafizəsinə Pentaqon instruktorlan tərəfindən hazırlanmış bölmələr cəlb ediləcəklər.^ Lakin kəmərin əleyhi- darlan belə hesab edirlər ki, risk barədə Qərb ekspertləri

**‘ Инт^)нст сайт «Рейтер», 22 fevral 2002. ^ Yenə orada.**

yanlışlığa yol verərək, gözdən pərdə asırlar. Belə ki, «Borjomi» mineral suların çıxarılması və doldurulması ilə məşğul olan "Georgian glass&mineral waters" gürcü şirkətinin prezidenti Matika Xazaradze təsdiq edir ki, Borjom sulannm valyuta resurslan neftin tranzitinə görə vəd edilmiş haqqdan daha çoxdur. Artıq indi bu sulann satışmdan ölkənin əldə etdiyi gəlir 30 mln. dol. təşkil edir (Gürcüstanın bütün ixracının 10%-i), yaxın vaxtlarda isə, bu rəqəm 100 mln. dollara çatacaq. Bunun kimi, ”CEE Bank wateh network" Təşkilatı 2002-ci ilin avqustunda ətraf və sosial mühitlərə təsirin qiymətləndirilməsi üzrə tədqiqat apararaq, planlaşdırılmış neft və qaz kəmərlərinin tikintilərinə dair BP-in planlannı kəskin tənqid etmişdir.

Lakin, BP ekspertlərinin zənniycə, BTC neft kəməri ölkənin daha səmərəli şəkildə neft ixrac etmək qabiliyyətini artırır, yerli əhalinin enerji əldə etmək, işsizlik, bərbad hala düşmüş in&astrukturlar (əsasən yollar) kimi problemlərinin nisbətən həll edilməsinə şərait yaradır.^

Gürcüstan Beynəlxalq Neft Korporasiyasmm prezidenti Georgi Çanturiya ilə Təbii Resurslar Nazirliyinin və Gürcüstanın «Yaşıl hərəkat» nümayəndələrinin görüşündə AMOK-nun prezidenti regionun ətraf mühitin mühafizəsinə zəmanət verdi. D.Vudvord bu zaman neft kəmərinin marşrutunun bir hissəsinin - əhalisinin çox hissəsinin ermənilərin təşkil etdiyi Gürcüstanm Axalkalasi rayonundan keçməsinin qətiyyən yolverilməz olduğunu vurğula- yaraq qeyd etdi: «Bu boru kəmərləri ilə nəql ediləcək neft Azərbaycana məxsusdur və onun sərvəti hesab edilir. Azərbaycan təbiidir ki, milyonlarla dollar və gərgin əmək bahasına çıxardığı neftin ermənilər yaşayan regiondan

' НнтсРНСТ caicT «Peirrep», 22 <|№Bpajı 2002.

keçməsinə razılıq verməyəcək».’ Bununla yanaşı beynəlxalq konsorsiumun başçısı Gürcüstandan keçən neft və qaz kəmərlərinin iqtisadi amillərindən və üstünlüklərindən söz açdı. Onun sözlərinə görə yanmmilyard dollar təşkil etməyən Gürcüstanm dövlət büdcəsinin əsas maliyyə mənbələrini öz ərazisindən xam neftin və qazın tranzitlərindən əldə etdiyi gəlirlər təşkil edə bilər. Bu zaman AMOK-nun başçısı xatırlatdı ki, Bakı-Tiflis-Ceyhan boru kəmərlərinin ərazilərindən salınmasma görə Azərbaycan tranzit haqqında Gürcüstana güzəştlə getdi.^

Azərbaycan tərəfindən edilmiş bu güzəştlərə baxmayaraq, Gürcüstan hökuməti özünün ərazisindən neftin nəqU üçün əlavə marşrutların seçilməsində israr etməkdə davam edir, bu barədə Gürcüstan prezidenti Mixail Saa-kaşvilinin Moskvaya səfərindən sonra ortaya çıxan Gür-cüstan-Brodi-Supsa yeni neft boru kəmərinin salınması haqqmda etdiyi bəyanat nəzərdə tutulur. Gürcüstanm gümanına görə həmin boru kəmərinin salınması BTC-dan iki dəfə ucuz başa gələcək.^ Ancaq, hətta çoxvariantlı seçimlər və münaqişəli təzadlar olsa da, BTC neft; boru kəmərlərinin tikintisi başa çatır, Azərbaycan isə dünya baza- nna çıxmaqla Respublika iqtisadiyyatmm strateji məsələlərini yerinə yetirir.

**' Источник Веб-сайт РИА «Ореацда», 26 noyabr 2002. “ Yenə orada.**

**^ «Новое время», 17 fevral 2004.**

# Nəticə

19 noyabr 1999-cu ildə ATƏT-in sammiti zamanı BTC neft kəmərinin tikintisi haqqmda Türkiyə, Azərbaycan və Gürcüstan tərəfindən dövlətlərarası razılaşmanın imzalanması Bakı-Ceyhan neft kəmərinin tikintisi yolunda vacib addım hesab edilir.

Xəzər regionu Yaxm Şərqlə (28 mlrd, barel neft ehtiyatı) müqayisədə az neft ehtiyatlarına maUkdir. Neft ehti- yatlannm böyük hissəsi Qazaxstana və Azərbaycana, qazın əsas hissəsi ilə Türkmənistana məxsusdur. Buna baxmayaraq, perspektivdə region neftə görə Fars körfəzi ilə və qaza görə isə, hüdudsuz ehtiyatlara malik olan Şimali Rusiya ilə rəqabət apara bilər. ^ Böyük miqdarda sərmayələrin qoyulması zərurətinə baxmayaraq. Şimal dənizində gələcəkdə neftin ola bilər ki, tiikənəcəyi ehtimalmdan Xəzər regionunun vacibliyini qiymətləndirməmək mümkün deyil.

Xəzəryam neft yataqlanmn mənimsənilməsi Qazaxıstan və Azərbaycan üçün necə vacib əhəmiyyət daşıyırsa, qaz da Türkmənistan üçün o dərəcədə əhmiyyətlidir.

Yeni müstəqil dövlətlər üçün mürəkkəb ziddiyyətlərin başlıca səbəblərindən biri də budur ki, Qafqaz Rusiya və NATO arasında (Türkiyənin timsalında) siyasi bölüş- dürücü rolunu oynayır.

Müxtəlif qütblü qüvvələrin iştirakı və Rusiyanm cənubunda — Şimali Qafqaz regionunda siyasi qeyri-sabitlik, Qafqaz ölkələri arasında mövcud ziddiyyətlər. Qərbin siyasi maraqları ilə yanaşı problemlərin daha da dərinləşməsinə səbəb olurdu. Belə ki, Qafqazda və dünyamn bir

^ **На долю разведанных запасов газа России сриходится 39,2% моря. Истояншс А.Булатов. Учебное пособие «Мировая экономика». М,2003.**

çox regionlannda son illər böyük siyasəti neft müəyyən edir.

Gürcüstan ərazisindən keçməklə Azərbaycanın və perspektivdə isə Qazaxıstanm neftinin Qərbə daşınmasını nəzərdə tutan BTC neft boru kəmərinin marşrutu davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişələri xəttinin bilavasitə yaxınlığından (10-15 km) keçir. Qafqaz regionunda Ermənistan-Azərbaycan və çeçen münaqişələrinin, Acariyada* və Cənubi Osetiyada separatizm ocaqlan- nın mövcud olduğu şəraitdə, neft kəməri tikintisi iştirakçılarının əsas vəzifələrindən biri də «borunun» təhlükəsizliyinin təmin edilməsidir.

ARDNŞ-in prezidenti Natiq Əliyevin verdiyi məlumata görə, Azərbaycan mütəxəssisləri tərəfindən neftin müxtəlif marşrutlar üzrə ixrac edilməsi imkanlanm nəzərdə tutan neft ixrac strategiyası işlənilir.^ BTC neft kəmərinə gəldikdə isə, o regional strategiyalar nöqteyi-nəzərindən ABŞ-a, həm də Azərbaycan və Türkiyəyə olduqca vacibdir.

Xəzər regionunda keçmiş sovet respublikalarının müstəqillik eldə etməsi və demokratiyanın təmin edilməsi nöqteyi-nəzərindən ABŞ həmin boru kəmərinin vacibliyini şübhə altına almır. BTC neft boru kəməri həm də Rusiya-İran əməkdaşlığmın, onlarm mövcud neft və qaz kəmərlərinin üzərində nəzarət etmək funksiyalarının azalmasına gətirib çıxanr. Eyni zamanda regionda Amerikanın təsirinin artması işində Türkiyə ABŞ-ın ən əsas müttəfiqi hesab edilir. Türkiyə üçün neft kəmərinin tranzitdən dividentlərin əldə edilməsi, ölkənin xammalla təmin edilməsi və Şərq rayonlannda iş yerlərinin açılması planında böyük əhəmiyyəti vardır.

**' Kitab noşr cüilen anda Acariyada separatizm problemlori Gürcüstan prezidenti Mixail Saakaşvili tərəfindən həll edildi.**

**" К разработке экспортной стратегии. «Новое время», fevral 2004.**

Ancaq neft müqavilələrinin gerçəkləşməsi yalnız iqtisadiyyatdan deyil, həm də siyasi məsələlərdən asılıdır. NATO-un üzvi kimi Türkiyə bu alyansın təsirinin yaxın ölkələrdə genişlənməsində maraqlıdır. Həmin işdə ABŞ və Avropa İttifaqı Türkiyəyə yardım göstərir. Rusiya isə, bu regionda öz siyasətini aparmağa cəhd göstərir və bu səbəbdən onun maraqları NATO-un maraqlan ilə tez-tez toqquşur. Yəqindk ki. Xəzər regionuna enerji daşıyıcıları Rusiyadan deyil, digər MDB ölkələrindən daşınırsa, onda bu ölkələrin NATO-a yaxınlaşması şübhə doğurmur. Yalnız bu layihənin sayəsində tranzitə görə haqqlan Rusiya deyil, həmin ölkələr əldə edəcəklər. Vəsaitlər isə az deyil, hər bir kub metr üçün təqribən 40 dollar təşkil edir. Beləliklə, Azərbaycan və Gürcüstan hər il təqribən 1,2 mlrd, dollan öz aralarında böləcəklər. Transxəzər qaz kəməri Xəzər dənizinin dibi ilə salınır, dənizin statusu isə indiyədək müəyyən edilməmişdir. Ona görə də tikinti başlanmazdan əvvəl Xəzər hövəzi ölkələrinin razılıqları alınmalıdır.

Türkmənistan qazına münasibətdə Qərb hazırda xüsusi fəallıq nümayiş göstərməsə də, Bakıdan Türkiyənin Ceyhan limanınadək Xəzər neftinin nəql edilməsi layihəsi üzərində fəal surətdə işlər apanimaqdadır. Qərbin neft şirkətləri əvvəlcə Azərbaycanda kifayət həcmdə neft mənimsənilmədiyindən layihənin maliyyələşməsinə şübhə ilə yanaşırdılar.

03 fevral 2004-cü il tarixdə Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndələrinin iştirakı ilə BTC neft kəmərinin tikintisinə vəsaitlərin ayrılması haqqında paket razılaşmalarının imzalanması mərasimi keçirildi. Onun məbləği 2 mlrd, dollardan yuxarı olmaqla, 27 razılaşmadan ibarətdir.

Eyni zamanda Azərbaycan ABŞ Dövlət departamentinin yardımı ilə Qazaxıstan rəhbərliyi ilə danışıqlar aparır.

Təxmin etmək olar ki, danışıqlar Qazaxıstanda çıxarılan neftin BTC neft boru kəmərləri vasitəsi ilə nəql edilməsi haqqmda aparılır.

ABŞ və Azərbaycan bu variantı həqiqi gerçək hesab edirlər. BTC əsas ixrac boru kəmərlərinin tikinti layihəsinə Qazaxıstanın qoşulması haqqında onların nümayəndələri ilə Londonda aparılmış danışıqlardan sonra ARDNŞ- in prezidenti N.Əliyev belə bəyan etdi ki, Qazaxıstandan Xəzər dənizi ilə Azərbaycana neft boru kəməri çəkiləcək. Qazaxıstan tərəfi BTC-in onlar üçün vacib prioritet olduğunu təsdiq etdi. Qazaxıstan və Türkmənistanın iştirakları olmadan energetik dəhliz natamam olacaq. Bununla belə, bu dəhliz artıq birinci il deyildir ki, fəaliyyət göstərir. Aktau limanından neft Dübəndi terminalına, oradan isə Batumi limamnadək nəql edilir, daha sonra dəmir yollan vasitəsilə daşmır. Energetik dəhlizin inkişaf etdirilməsi məqsədi ilə Gürcüstanın Azərbaycan və Türkiyə ittifaqına qoşulması bu layihəyə yalnız iqtisadi deyil, həm də siyasi ton verir. Yaddan çıxarmaq lazım deyildir ki, Türkiyə eneıji resurslarının Avropa ölkələrinə nəqlində özünəməxsus qapılara malikdir. Bundan başqa. Qara dənizdən Aralıq dənizinə yeganə çıxış olan Bosfor boğazına yalnız Türkiyə nəzarət edir.

Nəyin bahasma olursa-olsun BTC kəmərinin tikintisində israrhq göstərən Azərbaycan Azəri, Çıraq və Günəşli yataqlarının işlənməsi üçün layihənin iqtisadi tərəfinə təsir göstərir. Neftin çıxarılmasında əvvəldən planlaşdırılmış qrafıkdə layihənin iqtisadi tərəflərinə uyğun olaraq düzəlişlər aparılır. Eyni zamanda, Ceyhan boru kəmərinin doldurulması üçün daha çox neft əldə etmək məqsədi ilə Xəzər şelfinin fəaliyyətdə olan layihələrində Azərbaycan investorlarına güzəştə getməyə hazırdır.

Azerbaycanm neft diplomatiyasmm strateji olaraq regionun əsas problemlərinin həll edilməsi, o cümlədən po

zitiv sülhün və iqtisadi yüksəlişin təmin edilməsi üçün şəraitin yaradılmasına yönəldilmişdir. Lakin bütün bunlar perspektivdə mümkün olacaq. Bu gün isə reallıq belədir ki, regionda münaqişə ocaqları mövcuddur. Hələlik onlar müharibəyə keçmək ehtimalı ilə «neqativ sülb> vəziyyətindədirlər. Bir çox şeylər Xəzərin «neft oyunlarının» gedişindən asılıdır.

Nə qədər ki, regional münaqişələr həll edilməyib, «ümumi Qafqaz evi» ideyasının həyata keçirilməsi mümkün deyildir.

Türkiyə analitikləri belə hesab edirlər ki, Gürcüstanda BTC boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi Amerika hərbi missiyasının əsas vəzifələrindən biridir.*

BTC boru kəmərlərinin tikintisinin əvvəlində - Azərbaycan neftinin nəqlində maraqlarm iqtisadi və siyasi bölgüsü artıq apanlımşdı. İki geosiyasi ittifaq yaradılmışdır; açıq antirusiya siyasəti aparan ittifaq - ABŞ, Türkiyə və Azərbaycan, digər ittifaq isə - fonnalaşmağa cəhd göstərən, lakin alınmayan - Rusiya, Ermənistan və İran ittifaqıdır. Türkmənistan və Qazaxıstan öz yerlərini dəqiq şəkildə hələlik müəyyən etməyiblər: siyasi cəhətdən onlar Rusiyaya, iqtisadi cəhətdən isə -- ABŞ-a meyllidirlər.

Yerevan bu günədək israrla Bakı və Ankaraya Ermənistandan nəqliyyat ~ energetika blokadasının aradan qaldırılmasını təklif edir. Təəssüf ki, məsələnin bu şəkildə qoyulmasına regiondan kənarda tərəfdarlar tapılır. 2002-ci ilin iyun ayında bir qrup Amerika konqresmenləri ABŞ-ın ticarət və inkişaf Agentliyinə xarici siyasət idarəsiinn başçısı, ABŞ-m dövlət katibi Pauelin fikirlərinə istinadən BTC neft kəmərinin marşrutunun dəyişdirilərək Ermənistan ərazisindən keçməsi təklifi ilə müraciət etmişlər.^

*** «Turkish Daily News», 8 mart 2002.**
“ «Hc'iaBHCHMaa ra'wrra» №111. **22 iyun 2001**

Ancaq Azərbaycan tərəfi Heydər Əliyevin Azərbaycan və Ermənistan arasında nə qədər ki, sülh bərqərar edilməyib, heç bir əməkdaşlıqdan söhbət gedə bilməz sözlərinə istinad edərək, bu təşəbbüsə neqativ reaksiya göstərdi. ‘

Zaqafqaziyada böyük "oyunda” pərt olmuş Kreml və Ağ Ev bir-birinə əks məqsədlər güdürlər. Rusiya keçmiş İttifaq respublikalarını əldə saxlamaq, onlann siyasi, iqtisadi və hərbi inteqrasiyalan üçün imkanlar yaratmağa can atır. Ancaq, ekspertlərin proqnozlanna əsasən. Cənubi Qafqaz barədə Rusiyanın siyasətində radikal dəyişikliklər baş verməyəck. Rusiya Ermənistanın timsalında prioritet müttəfiqini saxlamaqda davam edəcək. Rusiyanın praqmatik maraqlan Azərbaycanla və Gürcüstanla dostluq münasibətlərinin saxlanmasına, imperiya maraqlan isə - Ermənistanı dəstəkləmək zərurətinin yaranmasına səbəb olacaq.

Londonda beynəlxalq konfransda "energetik təhlükəsizliyə və sabitliyə artmaqda olan təhlükə” problemləri üzrə Zaqafqaziya regionunda vəziyyət müzakirə edilərək, konfrans iştirakçılan belə bir fikir ifadə etmişlər ki, İran və Rusiya Bakı-Ceyhan və Bakı-Ərzurm layihələrinin gerçəkləşməsində maraqlı deyildirlər. Beynəlxalq ictimaiyyət Gürcüstana yardımı gücləndirməlidir və bunu belə əsaslandırırlar ki, Gürcüstansız Şərq-Qərb enerji dəhlizinin reallaşması mümkün deyildir. Eyni zamanda belə bir əminlik ifadə edilmişdir ki, eneıji resurslan məsələsi o dərəcədə vacibdir ki, neft sferasmda qlobal layihələrin reallaşması və onlann təhlükəsizliyinin təmin

' **«Независимая газета» №I 11,22 июня 2001г.**

edilməsi üçün NATO öz diqqətini bu sahələrdə cəmləşdiriləcək.'

Azərbaycanın müdafiə naziri Səfər Əbiyev Böyük Britaniyanın Azərbaycandakı səfiri Endryu Takerlə və səfirliyin hərbi ataşesi polkovnik-leytenant Kristofer Con Nannla görüşündə hərbi sahədə ikitərəfli münasibətlər və regionda hərbi-siyasi vəziyyətə dair məsələlər müzakirə edilərkən qeyd etmişdir ki, Ermənistanın mürtəce siyasəti real təhlükə yaradır və dünya ictimaiyyəti buna qiymət verməlidir?

Gürcüstamn kəşfiyyat departamentinın sədri Aflandil Soselianı xəbər vermişdir ki: "Ərəbistanın bir sıra neftçi-xaran ölkələrinin maraqlan BTC marşıııtu üzrə neftin tranzit layihəsinin gerçəkləşməsinə cavab vermir və muzdluların köməyi ilə bu layihəyə münasibətdə təxribatlar törədilə bilər?

Gürcüstanın qeyri-hökumət təşkilatlan ekoloji təhlükəsizlik baxımdan BTC neft kəmərinin tikintisinin əleyhinə çıxır və boru kəmərinin tikintisinin tamamlanmasına yardım göstərən və vəsait ayıran Böyük Britaniya hökumətini Avropa məlıkəməsinə verməyə hazırlaşır?

Öz növbəsində Xəzəıyam regionun inkişafı üzrə BP tərəfindən yaradılnuş müstəqil məsləhətçi qrup BTC-in ekoloji nəticələrinə dair ikinci məruzəsin açıqlayaraq ərazilərində boru kəmərləri salınan ölkələrə aşağıdakılar təklif edir:

**‘ Конферсшдш по энергетичсской безопасности, «Новое время», 28 января 2004г.**

**^ Армения угрожает нефгепрово;^, «Монитор», Х92, 2003, стр.9.**

**^ Нефтепровод Баку-Тбнлиси-Джейхан мог>т взорвать араби. "Новое время", 10 декабря 2003 *г.***

**«Эхо». 20 декабря 21ЮЗг.**

- ekoloji təhlükəsizliyə qabil lOO-dən çIx müxtəlif tövsiyyələr verilməklə, BTC və onunla əlaqədar layihələr, iqtisadi keçid dövrünü yaşayan dövlətlərə iri həcmdə vəsaitlərin qoyulması üçün gələcəkdə nümunə ola bilər;
- bu regionun investisiyalaşması üçün tam, inteqrasiya edilmiş və pregional yanaşmam təmin edən Xəzəryanı regionun inkişaf Fondunu yaratmaq;
- BTC layihəsində fəaliyyət göstərən hər bir ölkədə ombudsman postu təsis edilməli və insan hüquqları üzrə xüsusi koordinator seçilərək, göstərilmiş ölkələrin hökumətləri və qeyri-hökmət təşkilatları da daxil olmaqla bütün əsas səhmdarlarla qarşılıqlı fəaliyyət göstərilməlidir.*

Bütövlükdə qeyd etmək lazımdır ki, respublikaya iri xarici investorların cəlb edilməsi ilə yanaşı, Azərbaycan hökuməti eneıji strategiyasının reallaşmasmm başlanğıcında ixrac marşrutlarmın inkişafı kimi mürəkkəb məsələni de səriştəli həyata keçirməyə nail oldu. Azərbaycan əvvəlcə çoxvariantlı şəbəkəni seçdi ə mərhələlərlə qarşıya qoyduğu məqsədlərə nail oldu. Azərbaycan prezidenti İ.Əliyev 2004-c ilin mayında “Amerada Xess” Amerikan şirkətinin nümayəndələrini qəbul etdi. Həmin görüşün gedişində o, Azəri-Çıraq-Günəşli və BTC layihələrinin əhəmiyyətini qeyd edərək bildirdi ki, bu layihələr yalnız Azərbaycan üçün deyil, həm də region və bütün dünya üçün iqtisadi cəhətdən qiymətlidir. Geosiyasi nöqteyi-nəzərdən neft kəmərinin Cənub istiqaməti ölkələrinin ərazilərindən keçməsini qiymətləndirmək çox mürəkkəbdir. Potensial investorlar üçün bu o deməkdir ki, həmin ölkələrdə çox və ya az dərəcədə siyasi sabitlik mövcuddur. Bundan başqa, boru kəmərinə malik olan

**«Э.ХО», 20 декабря 2003г.**

ölkə əsas strateji tranzit dövlət olmasını da iddia edə bilər. İqtisadi amillər də böyük əhəmiyyətə malikdir. Karbohidrogen xammalların müəyyən miqdarda dövlətin ərazisindən daşınmasına görə müəyyən edilmiş tariflər, qısa müddət ərzində boru kəmərinin istisman ilə əlaqədar istənilən xərcləri örtməyə qadirdir. İxrac marşrutlarmın mövcudluğu hökuməti regionda stabillik, tərəqqi və sülh məqsədi ilə uzaqgörən və ağıllı siyasət aparmağa məcbur edir.

Əlavə 1

## Neft layihələrimn məniınsəralmə» üzrə ARDNŞ-4n xarici şirkətlərlə imzalanmış razdaşmalan (1994-2000^ fflər)

Xəzərin Azərbaycein sektoru

| | Neft layihələri və razılaşmanın imzalandığı tarix | Şirkətlər və onlann iştirak paylan (%)-lə qısa İnformasiya | Qısa infoımasiya |
|---|---|---|---|
| 1 | AZERİ-ÇIRAQ-GÜNƏŞLİ<br>• Razılaşma 20 sentyabr 1994-cü ildə imzalanmışdır.<br>• Hökumət zəmanəti 11 noyabr 1994-cü ildə təqdim edilib.<br>• Qərar MM-12 dekabr 1994-cü il. | ARDNŞ-10%, AMOKO-17,01%, Yunokal-10,0489%, Penzoyl-4,8175%, Ekson (ABŞ)-8,0006%, Bi-Pi-17,1267%, Remko (B.Britaniya)-2,0825%, Statoil (Norveç)-8,5633%, LUKoyl (Rusiya)-10%, TPAO | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (AIOC). Prezident Terri Adams. Müqavilə sahəsi - 397 kv.km dənizin dərinliyi 120-300 m. Proqnozlaşdırılan ehtiyyatlar: neft - 500 mln.ton qaz-155 mlrd, kub.m Güman edilən sərmayə qoyuluşu 8-10 mlrd.S. |

| | | | |
|---|---|---|---|
| 1 | | (Türkiyə) 6,75, Iloçu (Yapon) 3,9205 % Delta (Səudiyyə Ərəbistanı)- 1,68% | |
| 2 | QARABAĞ<br>• Razılaşma 10 noyabr 1995-ci ildə imzalanıb.<br>• Hökumət zəmanəti 24 yanvar 1996-cı ildə təqdim edilib.<br>• Qərar MM-13 fevral 1993-cü il. | ARDNŞ - 7,5%, Pcnzoyl (ABŞ) 30% LUKoyl (Rusiya) 2,5% Adcip (İtaliya)- 5%, LUKAcip (İtaliya-Rusiya) 45%. | Xəzər beynəlxalq Neft Şirkəti (CIPCO) Prezident-Ceyms Tilli. Struktur Bakıdan 120 km aralıda yerləşir, dənizin dərinliyi 150-200 m, ölçüləri 13x3 km. Güman edilən neft ehtiyyatları min - 85, max-150 mln.ton. 1 Proqnozlaşdırılan sərmayə qoyuluşu: kəşfiyyat və qazma 33 mln. $<br>İşlənmə 1,7 mlrd.S.<br>İstismar xərcləri 1,1 mlrd. $. Neftin çıxaniması 2003-cü ildən. Zirvə 10 mln. ton (2005-ci il). |
| 3 | ŞAHDƏNİZ<br>• Razılaşma 4 iyun 1996-cı ildə imzalanıb.<br>® Hökumət | ARDNŞ-10%, BiPi (B. Britaniya) -25,5%, Statoil | Bi-Pi Şahdəniz Əməliyyat Şirkəti Opereytinq Limited. Prezident-Mayk Şerman. Struktur |

| | | |
|---|---|---|
| zəmanəti 12 iyul 1996-ci ildə təqdim edilib.<br>Qərar MM-4 oktyabr 1996-a il. | (Norveç)-25,5%, LUKoyl (Rusiya)-10%, Hlf Akiten (Fransa)-10%. | Abşerondan 25 km cənubda yerləşib. Dənizin dərinliyi 50-500 metr. Ölçüləri 20,5x6,5km. Çıxanimış ehtiyyat-ları neft 190,4 mln.ton, qaz-545,5 mlrd.kub.m. Proqnozlaşdırılan sərmayə qoyuluşu 3969 mln $. Ondan kəşfiyyata aynlan 131 mln. $. |
| ƏŞRƏFI-DAN ULDUZU<br>• Razılaşma 14 dekabr 1996-cı ildə imzalanıb<br>a Hökumət zəmanəti 30 yanvar 1997-ci ildə təqdim edilib.<br>• Qərar MM-25 feval 1997-ci | ARDNŞ-20%, AMOKO-30%, YUNOKAL (ABŞ)-25,5%, İtoçu (Yaponiya)-20%, Delta (Səudiyyə Ərəbistam)-[illegible] | Nord Abşeron Opereylinq Kompani (NAOK). Prezident Tomas Klokenberq. Əşrəfi strukturu Abşerondan 105 km şimalda yerləşir. Dənizin dərinliyi 160-180 metr. Dan Ulduzu strukturu Abşerondan 85 km şimalda yerləşir. Dənizin dərinliyi 80-120 metr. Əşrəfi yatağının minimal ehtiyatları 90 mln. ton, Dan Ulduzu 55 mln. ton. |
| LƏNKƏRAN-DƏNİZTAUŞ- | ARDNŞ-25% | Lənkəran-dəniz strukturu |

| | | |
|---|---|---|
| DƏNIZ<br>• Razılaşma 13 yanvar 1997-ci ildo imzalanıb.<br>• Hökumət /əmanəti 6 iyun 1997-ci ildə təqdim edilib.<br>• Qərar MM-13 | Elf Akiten (Fransa) 40%, Total (Fransa)-10%, Demineks (Almaniya)-10%, OIEC(İran) -10%, Finna (Belçika)-5% | Azərbaycan sektorunun Cənub-Şərq hissəsində yerləşir. Dənizin dərinliyi 50-120 metr, ölçüləri - 14x4 km, Talış-dəniz strukturu Azərbaycan sektorunun cənub-şərqində yerləşir. Dənizin dərinliyi - 50 metr, ölçüləri - 15,5x3,5 km. Ümumi ehtiyyatları 50 mln. ton. Sərmayə qoyuluşu həcmi 2 mlrd.S |
| D-222<br>• Razılaşma 3 iyul 1997-ci ildə imzalanıb.<br>• Hökumət zəmanəti 30 sentyabr 1997- ci ildə | ARDNŞ-40%, LUKoyl (Rusiya)-60%. | D-222 dəniz bloku Azərbaycan sektorunun şimal-qərb hissəsində yerləşir. (Rusiya ilə sərhəddə). Dənizin dərinliyi 100-600 metr. Ölçüləri 70 x 64 km. Proqnoz ehtiyyatlan - 50 mln. ton. |
| ABŞERON<br>• Razılaşma 1 avqust 1997-ci ildo imzalanıb.<br>• Hökumət | ARDNŞ-50% Şevron (ABŞ)-30% Total (Fransa)- | Abşeron strukturu Azəri-Çıraq-Günəşli müqavilə sahəsindən 40 km cənub-qərb tərəfdə yerləşir. Dənizin dərinliyi - |

| | | | |
|---|---|---|---|
| ■ | sentyabr 1997-ci ildə təqdim edilib.<br>• Qərar MM-11 noyabr 1997-ci il. | 20% | 400-500 metr, ölçülən 40x7km. |
| 8<br>j<br>! | OĞUZ<br>• Razılaşma 1 avqust 1997-ci ildə imzalamb.<br>• Hökumət zəmanəti 30 sentyabr 1997-ci ildə təqdim edilib.<br>Qərar MM-7 noyabr 1997- ci il. | ÄRDNŞ-50%<br>Mobil (ABŞ) - 50% | Oğuz strukturu neft daşlan yatağından 45 km şərq tərəfdə yerləşir. Dənizin dərinliyi 50-100 metr, Ölçüləri 17 x6 km.<br>i |
| 9<br>i<br>!<br>1<br>1 | NAXÇIVAN<br>• Razılaşma 1 avqust 1997-ci ildə imzalanıb.<br>• Qərar MM-14 noyabr - 1997-ci il. | ARDNŞ-50%<br>Ekson (ABŞ)-50% | Naxçıvan strukturu Xəzərin qərb sahilində 55 km şərq tərəfdə yerləşir. Dənizin dərinliyi 400-600 metr. Ölçüləri 32 x7,5 km. |

**Əlavə 2**

1994-2Q04-CÜ illərdə Azərbaycan strukturrlarına xarici texniki yardımlar

| Layihənin adı | Mənbəə-donor | Alıcı | Layihənin dəyəri (mln.doll) | j0 cümlədən texnikui yardımların dəyəri (mln.doll) |
|---|---|---|---|---|
| 1 | 2 | _ i | 4 ! | 5 |
| 1. Yenikənd elektrik stansiyasının tikintisi. | Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB). | «Azərenerji» dövlət konscrrni | 53,4 1 | 2.0<br>j 1995/98* |
| 2. Mil-Muğan kollektorunun tikintisi. | İslam inkişaf Bankı (İİB) | Su təsərrüfatı və Meliorasiya komitəsi, kənd təsərrüfatı | 10,497 | 0,697<br>1994 |
| 3. Neft sənayesinə texniki yardun. | Ümumdünya Bankı (ÜB) | Dövlət Neft Şirkəti. Neft sənayesi. Energetika. | 20,8<br>(borc) | 1995 |

to «o

---

**layihənin başlandığı və qurtardığı illər.**

Si u>

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 4. Transmissiya və qazın bölüşdürülməsi sistemlərrinin yenidən qurulması. (Layihənin işlənməsi). | Ümumdünya Bankı (ÜB) (Y aponiya qrantı) | «Azəriqaz» Dövlət konserni. | | 0,775 (qrant) 1994/95 |
| 5. Bakı şəhərinin su ilə təchizi layihəsinin hazırlanması | Ümumdünya Bankı (ÜB) | Mənzil-kommunal təsərüfatı Komitəsinin «Bakkomsu sənaye» Birliyi. | 1,0 | Ю 1995 |
| 6. İnstitumsional tikinti layihəsinin hazırlanması | Beynəlxalq İnl^af Assosiasiyası (BİA) | «Dövlət əmlak komitəsi» | 0,5 (borc) | Kadrların hazırlanması, zəruri avadanhqlarrın alınması |
| 1 7. Qaçqınlara yardma | İslam Bankı | Dövlət Qaçqınlar Komitəsi | 1,5 | !,5 (грант) 1994 Tibbi dərmanların ahnması və qaçqınlara iş yerlərinin açüması |

ю
u>

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| ı 8. Qazımommәd-Әlәt ' yolunun birr hissәsinin tikintisinin laiyhәbndirilmәsi. | İslam İnkişaf Bankı (tİB) | «Azәrravtoyol» Dövlәt Konserni | 0,240 | 0,240 1994 Texniki-iqtisadi әsaslandırılmanı n |
| 9. Bakı aeroportunda yeni anqarın layihәsinin hazırlanması. | İslam Bankı | AZAL / | 0,327 | 0,327 1996 Texniki-iqtisadi göstәidlәrin vә layihә-smeta sәnәdlәrinin hazırlanması. |
| 10. Lәnkәran konserv zavodunun yenidәn qurulması. | İslam Bankı | Kәnd Tәsәrrüfatı Nazirliyi | 0,19 | 0,19 (грант) 1996 |
| 11. Samur-Abşeron kanah | İslam Banb | Su tәsәrrüfatı vә meliorarsiya Komitәsi | 0,28 | 0,28 (грант) 1996 Texniki-iqtisadi göstәricüәrin vә layihә-smeta sәnәdlәrinin hazırrlanması. |

N5
O

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 12. Xırdalan süd zavodunda uşaq yeməkləri istehsalı xətli. | İslam Bankı | «Qidasənayesi» Dövlət konserni | 0,23 | 0,23 (грант) 1996 Texniki-iqtisadi göstəricilərin və layihə-smeta sənədlərinin hazırrlanması. |
| 13. Texniki yardun. Ümumi İnkişaf siyasəti və planlaşdırrma. | BMT inkişaf Proqramı | | 0,2 | 0,2 1994/96 |
| 14. Məşğulluq və təhsil xidmətimnin inkişafına texniki yardım. | Dünya Bankı | Əmək və sosial Müdafiə Nazirliyi | 5,0 | 5,0 1995/96 |
| 15. Kənd təsərrüfatının inkişaf layihəsi. | Beynəlxalq Rekonstruksiya və İnkişaf Bankı (BRİB) | Su təsərrüfatı və Meliorasiya Komitəsi | 0,50 | 0,5 (qrant) 1996 |
| 16. «Azal» Dövlət Konserninə texniki kömək | TACIS | «Azal» Dövlət Konserni | 0,42 | 0,42 (qrant) 1995 |
| 17. Avtomobil yolannm infrrastrukturu | TACIS | «Azəryolnəqliyyat» | 0,48 ■ | 0,48 (qrant) 1996 |

to

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 18. Xəzər gəmiçiliyin inkişafı | TACIS | «Xəzərgəmi» | 0,74 | 0,74 (qrant) 1996 |
| 19. Dəmir yolu idarəsinin yenidən təşkili üçün texniki kömək | TACIS | Dəmir yolu İdarəsi | 0,48 | 0,48 (qrant) 1996 |
| 20. Məşğulluq və təhsil xidmətlərinin inkişafı | Ümumdünya Bankı | Əmək və sosial təminat Nazirliyi | 5,0 | 5,0 (qrant) 1997 |
| 21. Ərzağın bölüşdürülməsi sektorunun özəlləşdirilməsi | TACIS | Kənd təsərrüfatı Nazirliyi | 1,68 | 1,68 (qrant) 1997 |
| 22. Energetika sektoruna texniki kömək | TACIS | | 1,80 | 1,80 (qrant) 1998 |
| 23. Özəlləşdirmə | TACIS | | 1,80 | Qrant |
| 24. Kiçik və orta müəssisələrin inkişafı agentlikləri | TACIS | | 0,72 | 0,72 (qrant) 1998 |
| 25. Bankı təhsili | TACIS | | 0,60 | 0,60 (qrant) 1998 |
| 26. Xüsusi və ailə təsərrrüfatlarma kömək | TACIS | | 0,84 | 0,84'(qrant) 1998 |

N

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 27. Dövlət idarəçiliyi Ali məktəbi | TACIS | | 3,60 | 3,60 (qrant) 1999 |
| 28. Özəlləşdirmə (kiçik müəssisələrdə idarrəetmə məsləhətləri) | TACIS | | 1,44 | 1,44 (qrant) 1997 |
| 29. Kiçik və orta müəssisələr üçün tədris proqrramları | TACIS | | 0,84 | 0,84 (qrant) 1999 |
| 30. Əmanət banklarnna məsləhət | TACIS | | 0,12 | 0,12 (qrant) 1999 |
| 31. Azərbaycanın Maliyyə sektoruna Texniki Kömək | Ümumdünya Bankı | Maliyyə Nazirliyi | 0,880 | 0,880 (qrant) 2001 |
| 32. Azərbaycanın xarici ticarət rejimi sənədlərinin hazırlanması layihəsi | ABŞ"in ticarət və inkişaf agentliyi | İqtisadi İnkişaf Nazirliyi | 1,0 | 1,0 (qrant) 2002 |

to
**4:**

| 1 | 2 | ! 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 33. «insanın kökü vo təhlükəsizliyi» prroqramı üzrə: | | Azərbaycanın qeyri-hökumət orqanları. | | 0,86 |
| a) Yardımlı rayonununda ilk tibbi yardım xidmətinin təkmilləşdirilməsi. | Yapon hökuməti | e\b «Mercy corps» | 0,232 o.c. | 2004<br>0.81 |
| B) Konserv istehsalı üzrə sexin genişləndirilməsi. | Yapon hökuməti | Əlil qadınlar cəmiyyəti | | 2004<br>0.65 |
| V) Mingəçevin uşaq psixonervoloji sanatoriyasının təmiri. | Yapon hökuməti | «Uşaqlara qayğı» xeyriyyə cəmiyyəti | | 2004 |
| 34. İnstitusional dəstək layihəsi | TACIS (Europe Aid) | İnvestisiya və məsləhətin mükafatlandınrlması fondu | 1,0 | 1,0 evro qrant<br>2004 |

ю

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 35. Azərbaycanın Ümumdünya Ticarət təşkilatına üzv olması üçün sənədlərrin hazırlanması **(l.Q.Q)** | ABŞ-ın Ticarət və İnkişaf Nazirliyi | iqtisadi İnkişaf Nazirliyi | 0,943 | 0,943 qrant 2004 |
| 36. Antiinhisar fəaliyyətə texniki yardım | Mərkəzi və Qərbi Asiya ölkələrinin inkişafı üçün Asiya Bankı | İqtisadi inkişaf Nazirliyi | 0,930 o.c. | 0,230 (qrant) 2004 |
| 37. İqtisadi İnkişaf Nazirrliyinin potcnsiahnın inkişafı üçün texniki yardım. | Mərkəzi və Qərbi Asiya ölkələrinin inkişafı üçün Asiya Bankı | İqtisadi İnkişaf Nazirliyi | | ev |
| 38. Yevlax-Gəncə (88,8 km) avtomobil yollarının TİƏ-si layihəsinin yenidən işlənməsi | Asiya İnkişaf Bankının (AİB) direktorlar şurası | «Azeravtoyol» D.K. | | 0,150 2004 |

**İqtisadi İnkişaf Nazirliyinin, «Зеркало», «Эхо», «Новое время» qəzetinin materialları əsasında tərtib edilmişdir.**

/

**Əlavə 3**



Əlavə 4




Xəzər neftinin rus-bolqar-yunan marşrutu

**istifadə olunmuş əlavə ədəbiyyat**


**Bölmə 1**

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, Bakı, (I-XI hissə), 1997-2003;
2. Əliyev H.Ə., Müstəqillik yolu. Seçilmiş tikirlər, Bakı, 1997;
3. Əliyev H.Ə., Azərbaycan iqtisadiyyatı, Bakı, 1998;
4. Əliyev H.Ə. Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır, Bakı, 2000;
5. Аббасов Ч.М. Пакистано-японские экономические отношения 1950-1975 гг., М., 1975 г.;
6. Аббасов Ч.М. Экспансия японских монополий в текстильную промышленность Пакистана - «Народы Азии и Африки», 1972 г., №5;
7. Abbasov Ch. Foreign investment in the petroleum and mineral sectors. Geology and mineral resources of Azerbaijan, New York, 2000;
8. Булатов А.С. Мировая экономика. М., 2001;
9. Гаджиев Ш.Т. Азербайджан на пути к мировому сообществу; стратегия внешнеэкономического развития. Киев, 2000;

Ю.Ильина И. А. Японский капитал на азиатских рынках, М., 1966;

11. Рыбалкин В.Е. Международные экономические отношения;
12. Azərbaycanın iqtisadi icmalı (rüblük bülleten), **2001**;
13. Economic Trends Quarterly lassie, «Azerbaijan», **2001**,
14. 2000-ci Ü Azərbaycan Respublikasinm sosial-iqtisadi inkişaf göstəricilərinin proqnozu, Bakı 1999;
15. «Müstəqil Azərbaycan», 2001.

**Bölmə II**

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, Bakı, (I-II

hissə), 1997-2003;
2. Аббасов Ч.М. «Основные направления формирования внешнеэкономической политики Азербайджана», Баку, 1994;
3. Аббасов Ч.М. «Пакистано - японские экономические отношения 1950-1970гг», М., 1975г;
4. Abasov Ch.M. “Geology and Mineral Resources of Azerbaijan”, New York, 2000;
5. Abasov Ch.M. Azerbaijan’s Investment Policy, «Caspian», London, 1999;
6. Булатов А. С. «Мировая экономика», М. 2001,
7. Даниел Эргин «Добыча», М. 2001,
8. Михайлов В., Смольников Г. «Транскаспий привлекает инвесторов», «Независимая газета», 22 апреля, 1999;
9. Пшеничников Е. Двадцать миллиардов тонн нефти под килем, «Русский телеграф», 20 марта, 1998;
10. Американцы приедут с собственными проектами, «Зеркало», 29 апреля 2003 г.,
11. Азербайджанская экономика продолжит рост в ожидании инвестиционного бума, “Internet news” № 108, 1 мая 2003г.;
12. Статистический Ежегодник Южно-Кавказских стран, 2002-2003гг., Баку, 2003;
13. Демографическая ситуация в России, «Новое время», 13 февраля 2004.

**Bölmə 111**

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, (1-11 hissə), 1997-2003;
2. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, IV-V kitab, Bakı, 1997;

3. Əliyev H.Ə. Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır, Bakı, 2000;
4. Əliyev H.Ə. Yeni neft strategiyası. Bakı, 1998;
5. Алиев Гейдар. Дипломатия мира, Баку, 1997;
6. Алиев выбирает турецкий маршрут, «Независимая газета», 12.05.98;
7. АМОК поддерживает программу по экспорту «большой» каспийской нефти, «Русский телеграф», 28.04.98;
8. Ахундов С. Грозный стремится к Каспийскому морю, «Русский телеграф», 28.04.98;
9. Бирман А. Казахские газовики приблизили Россию и Индонезию, «Сегодня», 13.01.98;
10. Вивиано Ф. Артерия на Запад-под угрозой, «Время по Гринвичу», 14.08.98;
11 .Гаврилов Ф. Как потечет «черное золото»? АиФ. 06.11.98;
12. Гаджиева А. Российский маршрут под угрозой, «Независимая газета,» 17.07.98;
13. «Голубой потою> готовится к старту, «Коммерсант-Ош1у», 04.03.98;
14. Зверева П., Исаев Р. Азербайджанская нефть течет через Россию, «Русский телеграф», 28.04.98;
15. Иванов А.1СГК определился с фингшеированием. «Русский телеграф», 24.02.98;
16. Иванов Н. Стамбульцы «зеленеют» от упущенной выгоды. «Сегодня», 09.06.98;
17. Исаев П., lOiaccoH М. Каспийский консорциум притягивает помыслы депутатов, «Время», 17.07.98;
18. Иран активизировал попытки установить

19. Иран разработал проект нефтепровода для каспийской нефти, «Финансовые известия», 09.06.98;
20. Кадымбеков 3. Турецкая труба пока на ватмане, «Правда», 11.03.98;
21. Кадымбеков 3. Баку-Джейхан, нефть потечет мимо России, «Правда», 5.04.03.98;
22. Кириллов Д. Политические договоренности между Москвой, Ашхабадом и Киевом остаются на бумаге, «Финансовые известия», 31.03.98;
23. Микадзе А. Ставки на транзит нефти растут, «Время МН», 23.10.98;
24. Михаилов В. Станет ли Украина нефтяным коридором для Европы, «Общественно-политическая газета», 26.10.97;
25. Михайлов В., Смольников Г. «Транскаспий» привлекает инвесторов, «Независимая газета», 22.04.99;
26. Михайлов В., Смольников Г. Ниязов давит на газ, «Независимая газета», 25.05.99;
27. Мухин В. Каспийская нефть потекла в обход России, «Независимая газета», 16.04.99;
28. Москва и Грозный договорились, «Известия», 28.04.98;
29. Начало транзита туркменского газа откладывается, «Независимая газета», 31.03.98;
30. Нефтепроводы России интересуют Тексако, «Столичное обозрение», 1998, №26;
31. Новопрудский С. Киев ответил на ухаживания Анкары, «Русский телеграф», 14.06.98;
32. Основная каспийская нефть пойдет по маршруту Азербайджан-Грузия-Турция, «Сегодня», 12.05.98;

33. Петров Э. Год без туркменского газа, «Независимая газега», 26.03.98;
34. Попов В. Турция презентует нефтяную трубу, «Русский телеграф», 28.03.98;
35. Пшеничников Е. Двадцать миллиардов тонн нефти под килем, «Русский телеграф», 20.03.98;
36. Рахметов Н. Азербайджан принял решение о маршруте Основного экспортного трубопровода, «Экспресс К», 05.05.98;
37. Смольников Г. Транспортный проект обретает реальные черты, «Независимая газета», 31.07.98;
38. Соглашение по Каспию предотвратит «балкгшизацию», «Время по Гринвичу», 08.07.98;
39. «Транснефть» ищет обходные пути, «Независимая газета», 13.05.99;
40. Ширяев В. На каспийской трубе сошлись политический пламень и экономический лед,

*Аббасов Чингиз Микаил оглы*

***ПУТИ ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА***

***В МИРОВУЮ ЭКОНОМИКУ***

***(па азербайджанском языке)***


Texniki redaktor: MDAİ BF "Dünya iqtisadiyyatı" kafedrasının baş laborantı -

Yığılmağa verilib: 05.01.05. Çapa imzalanıb: 18.01.05.
Format 60x84 Ş.ç.v. 13,31. Kağız ela növ.
Zakaz № 114. Tiraj 500. Qiymət müqavilə yolu ilə

***Araz-M» müəssisəsinin mətbəəsi***




**'X**